# ƏSRİMİZİN QƏHRƏMANLARI

## BİRİNCİ FƏSİL

Günəş sönmüş, qaranlıq çökmüş, üfüqlər qısalmışdı. Bakının göylərində mənzil etməyə qərar vermiş qara, sıx cənub buludları ucubucağı olmayan durna qatarı kimi düzülərək, aylı-ulduzlu göylə şəhərdən ucalan çıraq və elektrik işıqlarının bir-biri ilə öpüşməsinə mane olurdu. Xəzərin qoynuna girmiş Bakı gecəsini, pəncərələrdən, yaxın buruqlardan, Qara və Ağşəhər zavodlarından, çit və bez fabrikindən, limanlarda və dənizdə olan yük və minik gəmilərindən ətrafa yayılan elektrik və çıraq işıqları ala-qaranlıq bir səhərə çevirmişdi. Təsadüfi olaraq o işıq nümayişində bu gecə Hacı Kərimin də elektrik lampaları iştirak edirdi. Məsləhətə çağırılmış olan qohum-qardaş yemək otağına toplanmış, mavi abajurlu elektrik lampalarının parlaq şəfəqləri altında şirin-şirin danışıq aparırdı. Hörmət və adət üçün bu gecə toyun nə zaman və necə başlanması haqqında yaxın qohumların da fikri öyrəniləcək və onlarla birlikdə qərar çıxarılacaqdı.

Mina xanım qonaqları qabaqcadan söhbətə hazırlamaq istədiyindən məyus bir səslə:

– Hacı peyğəmbəri toy etmək istəyir, başınıza dönüm, bu fikri onun başından çıxarın – dedi.

Qohum-qardaş Mina xanımın sözünü tutaraq Ağamürsələ təntənəli bir toy etməyə söz verdi. Ancaq Hacı Kərim məclisdə olmadığından heç kəs məsələni qəti surətdə həll edə bilmir, hamı onun gəlməsini gözləyirdi.

Hacı mağazasından çoxdan gəlmiş, öz otağında gündəlik ticarətin haqq-hesabı ilə məşğul idi. Hacının gecikməsinə qonaqlardan artıq Mina xanım əsəbiləşir, qəlbindəki sıxıntı və çırpıntıdan rəng verib, rəng alırdı. Çünki Hacının evinə gəldiyi müddətdə o yalnız iki-üç dəfə belə gurultulu məclis görə bilmişdi. Bu gecə oğlu Ağamürsəlin toy məsləhəti gecəsi olmaqdan artıq onun üçün şadlıq məclisi idi. O, otaqlarını tərtəmiz süpürtmüş, sildirmiş, lazım olan bəzəyi vermiş, masa üzərinə incə naxışlı qələmkar süfrə sərmişdi. Mina xanım indi öz qonaqlarını yedirmək, içirmək, onlara qarşı olan hörmət və məhəbbətini

göstərmək üçün tələsirdi. Onun səbir kasası dolub daşdı, artıq dayana bilmədi. Hacını çağırmaq üçün əvvəlcə xidmətçi qızı göndərdi, bir az sonra özü getdi. Hacı hər ikisini acılayıb qovdu. Hacının bu hərəkəti ona yaman təsir etdisə də acığını qonaqlardan gizlədərək, söhbətlə onları məşğul etməyə çalışdı.

Nəhayət, Hacı gəldi. İçəri girən kimi əvvəlcə otağı bir quş baxışı ilə başdan-başa süzdü. Qonaqlardan artıq onu maraqlandıran yemək otağında olan bu günkü dəyişiklik idi. Sonra qonaqlarla görüşdü, oturdu, başı üstündə par-par yanan beşlampalı qəndilə heyrətlə bir də baxdı, ətrafı bir də gözdən keçirdi. Qonaqların təbriklərini soyuq və əhəmiyyətsiz bir halda qarşıladı. Ortaya çay, mürəbbə, iki böyük vazada şəkər və badamçörəyi gətirdilər. Hamı yeyib-içməyə başladı. Yemək zamanı Hacı danışmağı sevmədiyindən heç kəs ağzını açmağa cəsarət etmirdi. Hacı ancaq bir fincan çay içdikdən sonra sözə başladı. Onun həmişə çatılmış enli qaşlarının düyünləri açılmış, dumanlı üz-gözündən kədər silinmişdi. Bu gün bir az şən və məmnun görünürdü. Onun bu halını qonaqlar, xüsusilə Mina xanım böyük bir müjdə kimi qarşıladı. Hacı toy haqqında qısaca məlumat verdi. Toyu ayın 14-də cümə axşamı başlamağı təklif etdi. Hamı razı oldu. Sonra bəzi səbəblərə görə peyğəmbəri toy etmək məsələsini ortaya sürdü. Qonaqlardan bir qismi buna etiraz etdi. Xüsusən bacısı Xədicə Hacının üstünə qabararaq:

– Necə peyğəmbəri, bu nə sözdür? Neçə ildir gözümüzü Ağamürsəlin toyuna dikmişik. Bu bizim üçün böyük kamdır. Sən bu toyu bizim istədiyimiz kimi eyləyəcəksən! – dedi.

Mina xanım baldızının sözünə qüvvət verdi:

– Dilinə qurban olum, yaxşı deyirsən, qardaşına bunu başa sala bilmirəm ki, böyüdüb yetirdiyimiz bir oğuldur, onu tay-tuşlarının yanında başı aşağı etmək olmaz... Bir də dost var, düşmən var, xalq bizə nə deyər... Ağamürsələ gərək bir toy olsun ki, bütün Bakı tamaşasına dursun.

Hacının qardaşı Kazım da bu fikirdə idi.

– Hacı, qohum-qardaş peyğəmbəri toya razı deyil, görünür bu toyda hamı əl-qol açıb süzmək, bir az şənlənmək istəyir. Mina dostu demişkən, Ağamürsəl də cavandır, ürəyində arzusu var. Sən gəl bu toyun hər zəhmətini bizim üstümüzə at, heç bir işə qarışma.

Hacı sözündə israr etdi:

– Yox, yox atam, mən bütün Bakını bu dörd-beş otağa doldura bilmərəm. Buna heç razı olmayacağam. Bu xüsusda danışmaq artıqdır.

Hacının bu sözündən sonra hamı susdu. Yalnız Mina ilə Xədicə arabir dodaqaltı söylənir, bu qərardan məmnun olmadıqlarını bildirirdilər.

Gecə keçmişdi. Bu nəşəsiz qonaqlıqdan çox da razı qalmayan qonaqlar ayağa qalxdılar. Hacını və Mina xanımı təbrik edərək çıxdılar.

* * *

Hacı Kərim Bakıda məşhur bəzzazlardan idi. Əvvəlləri İrana səfər edib çit, qələmkar və qədək alıb satardı. O zaman bu mallar əlverişli olduğundan çox sərvət qazana bilmişdi. Bu mallar getdikcə dəbdən düşdüyü və yollar zəhmətli olduğuna görə şəhərdə böyük bir mağaza açdı. Gündən-günə böyüməkdə və zənginləşməkdə olan şəhərin ən gurultulu küçələrində ucuz qiymətə evlər və boş yerlər aldı, böyük binalar tikdirdi. Hacı bununla da kifayətlənmədi. Bir neçə neft yeri aldı. Gündüzlər kontorda ticarətlə, gecələr də otağına çəkilərək haqq-hesabla məşğul olurdu. Ailə üzvlərindən birisi onun otağına ayaq basdıqda dərhal pulları iki əli ilə qucaqlayaraq: "Nə var? Nə üçün gəldin? Burda alma, armud ha paylanmır. Sizə demişəm. mənim otağıma ayaq basmayın. Çıx, çıx!.." – deyə səsi gəldikcə bağırardı. O hamıdan qaçar, yalqızlıq və səssizliyi sevdiyindən otağından ayrılmazdı. Ailə üzvləri onun üzünü ancaq axşam yeməyi zamanı görərdilər. Hacı çatıq qaşları, dumanlı siması ilə süfrə başına keçər, dinməz-söyləməz yeməyini bitirdikdən sonra yenə öz otağına çəkilər, qapını içəridən bağlardı. Sonra döşəkçəsi üzərində bardaş qurub lampanı titrək əlləri ilə yandırar, başı üstündəki köhnə İran sandığını açar, kisə-kisə pulları bir-bir çıxarıb sayar, qorxaq baxışlarla ətrafı süzdükdən sonra kisələri yenə bir-bir sandığa yerləşdirib ağzını bağlardı.

Hacı bir axşam adətinin ziddinə olaraq evə erkən gəlmişdi. O bu gün tamamilə dəyişmişdi. Qaşlarının çatı açılmış, üz-gözü gülümsəyirdi. Mina xanım onu görüncə heyrətlə:

– Xeyir olsun, Hacı, nə var yenə? – deyə soruşdu.

Hacı gülümsəyərək:

– Xeyirdir, otur görək – dedi.

Mina xanım Hacının yanında oturdu. Hacı kiçik bürüşük gözləri ilə gülümsəyərək:

– Sənə varlı bir gəlin tapmışam – dedi.

– Kimdir?

– Rəhmətlik Əlibəyin qızı. Deyirlər ki, Əlibəyin bütün var-dövləti oğlu ilə qızı Məryəmə qalıbdır. Çox adam qulağını şəkləyib durub. Atasının ili verildikdən sonra hər yandan elçilər axacaq, sən də ayıq ol, bu qızı əldən vermək olmaz! – Sonra başını mənalı tərpədərək – bu qızı Ağamürsələ ala bilsək, oğluyun iti uluyacaq. Heç bilirsən nə cah-cəlalı var?!

Hacının bu sözlərindən Mina xanımın gözləri işıqlanmış, Məryəm kimi varlı bir gəlini olmaq xülyası onu çox sevindirmişdi. Hacı ilə qarşı-qarşıya oturub bu qədər səmimi söhbət etdiyi günlər həyatında çox az nəsib olan günlərdən idi. Bu gün bəxtiyar qadınlara məxsus bir qürur alaraq, qıza elçi getmək haqqında dadlı-dadlı danışırdı. Hacı deyirdi:

– Bu günlərdə ilini verəcəklər. Bir həftə sonra elçi gedərsən. Qorxma, sözün yerə düşməz. Dövlət dövlət üstünə axar. Mənim var-dövlətim Əlibəydən az döyül. Onlar bizə qız verməyə bilməz!

Bu sözlərdən sonra hər ikisi bir an dadlı sükuta daldı. Hacı bir şey xatırlamış kimi birdən-birə başını qaldırdı və ətrafı gözdən keçirdikdən sonra gözlərini Mina xanımın üzünə dikərək:

– Bu donuz harada sümsünür? – deyə soruşdu. Mina xanım bu sualı heyrətlə qarşıladı. Çünki Hacının öz oğlu Ağamürsəlin taleyi ilə maraqlandığını görməmişdi. Buna baxmayaraq o, qadınlara məxsus bir nəzakətlə:

– Bilmirəm, yəqin yoldaşlarının yanına gedibdir, – dedi.

Hacı acıqlanaraq:

– Necə bilmirəm, it ayağı yemiş kimi haralarda gəzir? Niyə demirsən, ayağını qırıb evdə otursun.

– Nə qədər kiçik idi, bacarırdım, indi daha gücüm çatmır. Boyum boyda boyu var. Bir söz deyirəm, it kimi üzümə çəmkirir. Mən də anayam, öz hörmətimi saxlayıram. İndi bu işlər sənin işindir... Ancaq sən də...

Hacı təndir kimi alovlandı:

– Axı, mən köpək oğlu, mən it oğlu, mən donuz oğlu başıma nə kül töküm? İşdən başım heç ayılır ki... Mənim də bir canım var. Boş oturduğum saatı göstər?! Gecə-gündüz çalışıram... Sizdən adam olmaz!

Hacının bu sözlərindən nədənsə Mina xanımın gözləri işıqlanmış, Hacıda övlad məhəbbətinin sönmədiyi onu çox sevindirmişdi. Xüsusən Məryəm kimi bir gəlinə sahib olmaq xülyası onu bir an belə rahat buraxmırdı. Odur ki, bu haqda oğlu Ağamürsəlin də fikrini öyrənmək və sevincini onunla bölüşdürmək istəyirdi. O gecə Ağamürsəli çox

gözlədi, lakin o gəlib çıxmadı. Nəhayət yatağına girdi. Başında dolaşan bu dadlı xülyalarla yuxuya getdi. Gecənin bir zamanı şiddətli çalınmaqda olan zəng onu oyatdı. Yuxulu-yuxulu qapını açmağa gedərkən Məryəm məsələsini xatırladı. Öz-özünə: "Görək Ağamürsəl bu müjdəni necə qarşılayacaq?" – deyə düşündü. Qapını tez açdı. Ağamürsəl içəri girincə onu şəfqətli ana nəzəri ilə süzərək:

– Oğlum, bu vaxta qədər hardasan? – deyə soruşdu. Ağamürsəl etinasız və acıqlı bir səslə:

– O sənin işin deyil, get yat! – deyə cavab verdi.

Bu gün Hacı yenə evə tez qayıtmışdı. Əvvəlcədən qərara aldıqlarına görə o gün Mina xanım Əlibəyin qızı Məryəmə elçi gedəcəkdi. Hacı içəri girən kimi ümidlə parlayan gözlərini Mina xanımın gözlərinə dikərək:

– Hə, nə oldu, qız gəldin, oğlan? – deyə soruşdu, Mina xanım qürurla gülümsəyərək:

– Qorxma, oğlan gəldim, – dedi, – anası Dürsədəf xanım mənə çox hörmət etdi. Oturduq, görüşdük. Məryəmdən söz açdım. Dürsədəf xanım gülə-gülə dedi: "Səninlə quda olmağa nə sözüm ola bilər! Qızı bir neçə yerdən istəyən var. Ancaq dayıları ilə gənəşmək lazımdır. Bir-iki günə mən sizə cavab verərəm" – dedi.

Hacı dil-dodağını çeynəyə-çeynəyə:

– Qızı başqa yerdən də istəyənlər var? Bu heç yaxşı olmadı! – deyə düşüncəyə daldı.

– Qorxma, Dürsədəf xanımın meyli bizədir, – deyə Mina xanım Hacıya təsəlli verdi.

– Qızı görə bildinmi?

– Ötəri gördüm. Kor deyil, keçəl deyil, kişinin qızına nə eyib tapa bilərik?

* * *

Hacının evində kiçik bir hazırlıq vardı. Kiçik deyirəm, çünki Hacı, oğlu üçün peyğəmbəri toy etməyə qərar vermişdi. Yaxın qohum-qardaşdan ancaq beş-on nəfər çağırılmışdı. Hacı bu gurultusuz toyla oğlu Ağamürsəllə Məryəmin ömürlük həyatını bir-birinə bağlamağa müvəffəq olmuşdu.

Məryəm xanım evə gəldiyi birinci gündən özünü Ağamürsələ sevdirməyə çalışdı. Ağamürsəl isə ancaq bir-iki həftə onun nazı ilə oyna-

dı. O, yenə köhnə vərdişlərindən əl çəkməyib, ancaq yatmaq üçün evə qayıdırdı. Onu düşündürən nə ev, nə ailə, nə də gələcəyi idi. Ən böyük məqsədi atasının varına yiyələnmək, istədiyi kimi həyat sürmək idi. O hər zaman atasının üzünə onda ölüm əlaməti görmək üçün baxardı. Atasının uzun yaşadığını gördükcə əsəbiləşir: "Bu nə zaman öləcək? Mən öldükdən sonramı? Ondan sonra başına dəysin onun varı, dövləti" deyirdi. Hətta bu sözü bir neçə dəfə anasının yanında da söyləmişdi. Anası ona:

– Bala, heç yaxşı oğul da atasının ölümünü istərmi? O yazıq sənə neyləyir? Bir də əcəl onun öz əlində deyil ki!.. – deyə cavab vermişdi.

Bu sözlərin bir çibin vızıltısı qədər Ağamürsələ təsiri olmamışdı. Xərcləməyə cibində istədiyi qədər pulu olmayanda atasının arxasınca söylənərdi:

– Qoy istədiyi qədər yığsın. Onun qəpik-qəpik yığdığı bu sərvəti mən ovuc-ovuc, ətək-ətək dağıtmasam, kişi deyiləm.

Hacı Kərim öz var-dövlətinə həsrətlə vida etdikdən sonra Ağamürsəlin əl-qolu açılmışdı. O bütün istədiyinə qovuşmuşdu. Həftələr, aylarla ailə üzü görməzdi. Hətta oğlu Əşrəf beş aylıq olduğu halda bu vaxta qədər ata olaraq bir dəfə də onu qucağına almamışdı. Bu hallar Məryəmin qəlbində sağalmaz yaralar açır, dərdlərini kimsəyə açmadığı üçün yağsız çıraq kimi səssiz-səmirsiz sönürdü.

Bir gün anası Ağamürsəli yaxalayaraq:

– Oğlum, bizə nə üçün yazığın gəlmir? – deyə şikayətə başlamaq istərkən, Ağamürsəl onun sözünü kəsərək:

– Çəkil, çəkil, məndən nə istəyirsiniz? Sizi ac, susuz qoyuram, nədir? – demişdi.

* * *

Əşrəf hər səhər quşlar kimi erkən oyanar, kiçik beşiyinin içində qığıldamağa, məsum gülümsəmələr saçmağa başlar, kiçik tumbul əllərini, ayaqlarını oynadar, barmaqlarını ağzına soxaraq, əmə-əmə qara kirpikləri arasından günə baxardı. Bu canlı lövhəni uzaqdan seyr edən anası Məryəm artıq dayana bilməz, yerindən sıçrayaraq, özünü Əşrəfin üzərinə atardı. Əşrəf anasını görüncə iki kiçik qolunu quş qanadları kimi açaraq uçmaq, anasının sevimli qolları arasına atılmaq istərdi. Məryəm onu sevə-sevə qolları arasına alar, qızarmış yanaqlarını öpə-öpə təkrar bağrına basaraq, bir çiçək dəstəsi kimi onu qoxulardı. Son-

ra uşağın köynəyini dəyişdirər, üzünü yuyar, saçlarını darardı. Bu zaman uşaq daha gözəl bir şəkil alar, daha sevimli və şən görünərdi. Bundan sonra onu yenə öpə-öpə nənəsinin qolları arasına atar, nənəsi də onu atar-tutar, yorulunca oynadar, güldürər, ağladar, hər halından bir zövq alardı. Əşrəf hamının üzünə şən-şən gülər və hər kəsdə gülərüz görmək istərdi. Biri qaşlarını ona qarşı çatarsa dərhal nəşəsi pozular, üzündəki, baxışlarındakı saflıq, aydınlıq uçaraq siması dəyişər, gah anasının üzünə baxar, gah da ətrafındakıları tutqun baxışlarla süzər, həzin bir halda boynu bükülər, yeni açmış gül rəngində olan kiçik dodaqlarını büzərək, birdən-birə ağlamağa başlardı. O məsum göz yaşları, o canlı lövhə anasının o qədər xoşuna gələrdi ki, artıq dayana bilməz, özünü çiçəyəbənzər balasının üzərinə atar, yanaqlarındakı yaşlar qurumamış Əşrəf yenə də anasının qolları arasında şən-şən gülərdi. "Oğlumu sən vurdun?" – deyə anasının təhriki ilə nənəsini vurar, nənəsi də vurmaq üçün əllərini ona uzadarkən birdən-birə ürkək ceyran kimi sıçrayıb anasına sarılar, iki kiçik qolunu onun boynuna keçirərdi. Əşrəfi oradan artıq kim ala bilər? Dünyada anadan daha qüvvətli, daha güclü bir hökmdarmı var?!

Əşrəf üç yaşına qədəm basmışdı. O indi yavaş-yavaş danışır, səhərdən axşama qədər otaqların içində, şüşəbəndlərdə qaçır, bağırır, mühitində gördüklərini götürməyə, eşitdiklərini öyrənməyə başlayırdı. İndi Əşrəf əvvəlkindən daha sevimli, ailə üzvləri üçün daha qiymətli idi: o gülür, güldürür, söyləyir, əyləndirirdi. Xülasə, o, kiçik bir ailənin böyük bir əyləncəsi idi. Hələ bomboş otaqların qalın divarları arasında anasının yeganə təsəllisi idi. Anası bütün gecələrini-gündüzlərini onunla keçirir, dərdlərini, matəmlərini onunla unudurdu.

Əşrəf bu qədər şux və sevimli olmaqla bərabər gündən-günə şıltaq bir uşaq olurdu. İstədiyini edər, əlinə gələn şeyləri qırar, dağıdar, kimsəni tanımazdı. Anasının, xidmətçinin evdə, mətbəxdə hər bir işinə qarışardı. Onun əlindən kimsəyə rahatlıq yox idi. Son zamanlar ora bir "xortdan yuvası" olduğundan artıq Əşrəf mətbəx işlərinə qarışa bilmirdi. Divardan nənəsi tərəfindən xortdan adlandırılan quru bir balıq asılmışdı. Əşrəf yalnız ondan qorxar, çox ağladığı, yaramazlıq etdiyi zaman anası ona balığı göstərər, bu zaman yazıq uşaq qorxudan yarpaq kimi titrəməyə başlardı.

Yemək yeyərkən üst-başını batırdığını görüncə anası qaşığını əlindən alaraq:

– Oğlum, gəl mən yedirim, bax, üst-başını batırdın, – deyə ona yanaşarkən Əşrəf qaşlarını çataraq, dodaqlarını büzər, bir qabdakı yeməyə baxar, bir də acı-acı anasını süzər, birdən-birə qabaqdakı yeməyi ayaqları ilə itələyərək, evin içinə dağıdardı. Anası ona cəza verər, Əşrəf çaqqal balası kimi üzüquylu uzanıb səsi gəldiyi qədər bağırardı. Bir az sonra "acından uşağın qursağı daralar" fikri ilə anası ona yanaşaraq: "Oğlum, Əşrəf, qalx, qalx yeməyini ye, bax, nə qədər dadlıdır" – deyə onu susdurmağa çalışardı. Əşrəf anasının yalvarmasını görüncə daha şiddətlə bağırardı. Anası onu qucağına almaq istərkən Əşrəf ağlaya-ağlaya dartınaraq, onun əlindən çıxmaq istər, bunun mümkün olmadığını görüncə anası əli ilə onun ağzını tutaraq: "Sus! Sus! Mən daha qarışmayacağam, qalx, istədiyin kimi ye" – deyə onu qucağına alaraq sakit edər, yeməyini qarşısına qoyardı. Əşrəf istədiyi kimi üst-başını, əllərini, üzünü, qulaqlarını ucuna qədər yağa batırar, beləcə yeməyini bitirdikdən sonra boş qabı yağlı əlləri ilə anasına tərəf ataraq: "al, yedim" deyərdi. Anası sevinə-sevinə Əşrəfin üst-başını, süfrəni təmizlərdi. Nə etsin, cüzi bir cəza etdikdə uşaq o qədər ağlayır, bağırır ki, qan-tər içində əldən düşürdü.

Əşrəfin gecələri gündüzdən daha müdhiş kəsilirdi. Şamlar yandımı, nəşəsi pozulur, əsəbiləşir, ağlamaq üçün min bir bəhanə axtarırdı. Axşamlar lampanı mütləq o, yandırmalı idi. Anası ondan xəbərsiz lampanı yandırarsa ayaqlarını şiddətlə yerə çırparaq səsi gəldikcə bağırardı. Anası söylənə-söylənə lampanı yenidən söndürər, Əşrəf lampanı yandırdıqdan sonra palaz üzərində üzüquylu uzanaraq, gözlərini lampaya dikər, durardı. Anası bir tərəfdə tikiş tikərdi. Əşrəfin dörd divar arasında aldığı qapalı tərbiyə bundan ibarət idi.

Əşrəfin yatmaq zamanı gəlmiş, anası onun yatağını çoxdan hazırlamışdı. Uşaq isə uzandığı yerdə əsəbi bir halda ağlayır, bu səsə artıq alışmış olan anasının etinasızlığını görüncə əllərini, ayaqlarını yerə çırparaq bağırırdı. Anası: "qalx, oğlum yatağında yat" deyərkən Əşrəfin halı tamamilə dəyişərdi. Yataq onun sevmədiyi və ən çox nifrət etdiyi bir şey idi. Yataq adı eşidəndə: "Yox, yox!" deyə qışqıra-qışqıra ayaqlarını oynadır, anasının xoşuna gəlməyən hərəkətlər edirdi. Anası acıqlanaraq: "Əşrəf yenə?.. İndi çağıraram gəlsin" deyə bayıra çıxar, bir az sonra qorxunc səslə "kimdir o, yenə ağlayır? İndi gəlib onu boğaram" deyə içəri girərdi. Qorxudan sapsarı olmuş uşağa: "Bax, gördünmü? Xortdan gəlib deyir ki, Əşrəf niyə ağlayır. Yatsın, yoxsa gəlib onu boğaram".

Əşrəfin dili tutula-tutula:

– Hanı? – deyə soruşduqda:

– Odur qapı dalında, – deyə anası bayıra çıxar, qapı arasından quru balığın başını içəri uzadaraq: A... ö... a... ö... – qorxunc səslər çıxarar, bir az sonra otağa girərdi.

– Gördünmü? Xortdan da deyir ki yatsın! Yoxsa onu ham-ham elərəm.

Bundan sonra qorxudan gözlərinin içinə qədər saralmış uşağı yatağına uzadar, onu yatırmaq üçün özü də onun yanına uzanardı. Uşaq anasının boynuna sarılaraq sağ, sol böyrü üstə çevrilə-çevrilə xortdan qorxusu ilə gözlərini yumardı. Anası yenə əl işinə davam edər, həm də arabir öz bəxtindən, həyatından şikayətlənərdi; onun qara kirpikləri arasından süzülən göz yaşları yanaqlarını isladardı. Birdən-birə Əşrəfin qorxulu bir səslə bağırtısından dimdik qalxaraq, özünü uşağın üstünə atar, oğlunun yuxuda sayıqladığını gördükdə bildiyi dualardan oxuyub, onun üzünə püflərdi. Sonra yenə yerinə oturaraq, dalğın bir halda söylənməyə başlardı:

– Ah, bilmirəm, bu dualar da nə üçün təsirsiz qalır? Altıbarmaq seyidə bu qədər dua yazdırıram, heç birinin faydası olmur; yenə də uşaq dəli kimi gecələr sayıqlayır. Allahın kərəminə şükür, heç bir yandan bəxtim açılmır.

Əşrəf indi büsbütün dəyişmiş, əvvəlki gözəlliyini, şən və şətarətini itirmiş. başı böyümüş, üzü kiçilmiş, yanaqlarındakı qırmızılıq getmiş, yerinə sarımtraq, tutqun bir rəng çökmüş, o saf və parlaq gözlərinin ağı incə qırmızılıqlarla bulaşmış, göz qapaqları şişmiş və qırmızımtraq bir rəng almışdı. Yanaq sümükləri çıxmış, çənəsi aşağıya doğru uzanmış, hər zaman bağlı olduğundan alnı yastılanmış, başı isə yuxarıya doğru uzanaraq, nabatı qarpızı andıran iki yandan batıq bir şəkil almışdı. Gözəl simaya malik olan bu uşaq indi çirkin bir dona girmişdi.

* * *

Üzərində yaşadığımız yer kürəsi o qədər baş fırladıcı bir sürətlə dönür ki, insan ömründən gedən ayların necə və nə vaxt keçdiyini belə hiss etmir. Bu sürətlə aylar, illər keçdi, Əşrəf altı yaşına qədəm qoydu. O, indi evdən başqa küçələri də tanımağa başlamışdı. Məhəllə uşaqlarının heç biri ilə dostluq etmirdi. Günlərinin çox saatlarını Gülcahan xalanın qızı Sona ilə bir yerdə gəlin-gəlin oynayar, qonaqlıq edər,

uşaqlara məxsus oyunlarla əylənərdi. Sonanı o. səmimi bir uşaq hissi ilə sevirdi. Heç bir kəsdən söz götürməyən Əşrəf Sonanın çox zaman uşaqlara xas olan şıltaq və yaramazlıqlarına qarşı yaşlı bir adam kimi səbir və mətanət göstərirdi. Arabir acıqlanaraq bütün oyunların onun istədiyi kimi olmasına inad göstərdiyi zamanlar da olurdu. Bir dəfə acıqlandımı, əlləri ilə qızın saçlarını çəkərək ağzı üstə onu yerə çırpdıqdan sonra sivişib gedərdi. Hər halda həm ailə, həm də məhəllə uşaqları arasında hamıdan çox sevdiyi, hər kəsdən çox bəyəndiyi kiçik Sona idi. O, evdən bir yaramazlıq üstündə qovulduğu zaman dərhal özünü Sonanın yanına atardı. Vaxt onlar üçün olduqca xoş və qısa keçirdi. Bir gün Əşrəf Sonanın saçlarından tutub, onu şiddətlə yerə çırpdığı zaman qızının bağırtısına anası Gülcahan çıxmış, "Bundan sonra Əşrəflə oynamayacaqsan!" deyə ona tənbeh etmişdi. Əşrəf oradan çıxıb qaçarkən bu sözləri eşitmiş, olduqca mütəəssir olmuşdu.

Əşrəf hər gün bir fincan çay içər-içməz evdən çıxar, birbaş Sonagilin qapısı ağzına gedər, qapı dəliyindən saatlarla gözlərini dikib baxardı. Sona həyətdə tut ağacı altında oyuncaqlarını toplayıb oynar, yaxud sarı pişiyinin quyruğuna bir quş lələyi bağlayıb onun arxasınca qaçardı. Qapı ağzına yaxınlaşan kimi Əşrəf fit verib orada hazır olduğunu bildirər, məsum baxışlar bir an bir-birinə dikilib qalardı.

Bir gün Sona yenə pişiyini qovurdu. Yorulmuş, tərləmiş, yanaqları qızarmış, qıvrım saçları üzünə dağılmış halda, qara, iri gözlərini Əşrəfə dikərək:

– Ah, yoruldum, – deyə uşaqlara məxsus bir şivə ilə güldü. Əşrəf sükut içində Sonaya baxdıqdan sonra həzin bir səslə:

– Sona, nə üçün mənimlə oynamırsan? – deyə soruşdu. Sona incik bir səslə cavab verdi:

– Anam buraxmır.

– Gəl bizim evdə oynayaq.

– Yox.

– Niyə?

– Anam məni döyər.

– Döyməz, heç bir şey olmaz.

Sona uzun qara kirpiklərini qəmgin-qəmgin aşağı əydi, məsum bir əda ilə:

– Yox, anam buraxmaz, – dedi.

"Buraxmaz!" Bu kəlmə Əşrəfi uzun-uzadı düşündürdü. Sonra fit çala-çala məhəllə uşaqlarına tərəf getdi.

Bir gün Əşrəf məhəllə uşaqlarından biri ilə dalaşarkən, ağır bir əl qollarından yapışdı. Geri dönərkən qarşısında üst-başı təmiz, ağsaqqal bir kişi gördü:

– Tərbiyəsizlər! Nə üçün boğuşursunuz?

Əşrəf qollarını qocanın əlindən qurtarmaq üçün şiddətlə çəkərək:

– Burax məni, sənə nə! – deyə dik-dik qocanın üzünə baxdı. Qoca onu acıqlı nəzərlərlə süzdükdən sonra əl ağacını havada sallayaraq:

– Ey, bu ağacı görürsənmi? Başını əzərəm! – dedi.

Bu sözləri qoca o qədər kəskin bir səslə söylədi ki, Əşrəf onun qolları arasında titrəməyə, həm də tutqun bir səslə: "Burax, burax" deyə ağlamağa başladı. Qoca onun kim olduğunu öyrəndikdən sonra:

– Yazıq sənə, atan Ağamürsəl gecə-gündüz kazinolarda, min cür səfalət bucaqlarında donuz kimi eşələnir, sən də vəhşi tərbiyənin müdhiş pəncəsi altında əzilib xurdxəşil olursan, – dedi.

Ömründə eşitmədiyi bu sözlərin təsiri ilə Əşrəf heyrətlə qocanın üzünə baxdı. Qoca onun başını əli ilə oxşayaraq:

– Oğlum, bu hisli, paslı küçələrdə oynama, gəl gedək, səni məktəbə qoyum, həm oxu, həm də orada yoldaşlarınla oyna! – dedi.

Əşrəf ilk əvvəl Məhərrəm əminin sözlərinə əhəmiyyət vermədi. Onun sadəcə olaraq zarafat etdiyini, yaxud başqa bir məqsəd güddüyünü düşündü. Ancaq əsalı qoca sözünün üstündə möhkəm durdu. Məktəbin əhəmiyyətindən xeyli danışdı. İş oraya çatdı ki, axırda Əşrəf istər-istəməz Məhərrəm əmi ilə gedib məktəbə yazılmağa razılıq verdi.

Həmin gün Məhərrəm əmi Əşrəfi aparıb məktəbə yazdırdı.

Qoca o gün iki dəfə Ağamürsəlin kontoruna gedib, onu görməmişdi. Bir gün təsadüfi olaraq onu kontorda yaxalayaraq:

– Canım, səni yerində tapmaq olmur. Oğlun Əşrəf kimi sən də göylərdə gəzirsən, insan əli ətəyinə çatmır, – dedi.

Onunla qarşı-qarşıya oturan dostu Ağacəfər gülərək:

– Doğru deyirsən, Məhərrəm əmi, Ağamürsəlin əli mələklər ətəyindədir, – deyə cavab verdi.

– Mələklər ətəyindən tutduğunuz qədər insanların əlindən də tutsaydınız, pis olmazdı.

– Pis olmaz, ancaq insan mələklərin zövq və nəşəsindən, seyr və səfasından qalar!

– Bilirəm, sən də bir zaman o mələklər ətəyindən bərk yapışmışdın, indi isə eşqin tərsinə çevrilibdir. İnan ki, o mələk sandığınız zəhərli ilanlar bir gün sizi iflic, yaramaz və eybəcər edəcək.

Sonra əllərini bir-birinə çırparaq, sözünə davam etdi:

– Sizlər nədənsə həyatın bütün mənasını yalnız bu ilan qılıqlı qadınlarda görürsünüz. Sizin üçün qadın hər şeydir. Ancaq insanın alçaq nəfsi də onun ən böyük düşmənidir. Sizin üçün həyatını, səadətini, sərvətini, hətta namus və qeyrətini yalnız bunlara fəda etmək böyük səxavət və mərdlik sayılır.

Ağamürsəl qaşlarını çataraq, bu sözlərdən məmnun olmadığını bildirən bir səslə cavab verdi:

– Mənim xüsusi işlərimə qarışmağa heç kimə izin vermirəm. Bundan sənə nə!

– Yanılırsan. Sən bir ailə üzvü olduğun kimi müəyyən bir cəmiyyətin üzvü və vətəndaşısan. Bir ailə üzvünün etdiyi yaramazlıq ailə üzvlərinə nə qədər ziyan verərsə, onun yaramazlığı mənsub olduğu cəmiyyətə, yaşadığı mühit və ölkəyə də bir o qədər ziyanlıdır. Mənim sözlərim yalnız sizə aid deyil. Ümumiyyətlə bizim həyata olan bu yanlış görüşümüzü, bu böyük ictimai nöqsanlarımızı, bu çirkin tərbiyə və əxlaqımızı göstərmək və bununla gələcəyimizi gözümüz qarşısında canlandırmaq istəyirəm.

– Hər halda bu daşlar hər kəsdən çox bizə atılır.

– Siz birinci və sonuncu deyilsiniz. Onlarla, yüzlərlə vətəndaşlarımız bu çirkin axına qapılaraq sürüklənir. Bunun qorxunc və acı nəticəsini hamımız üçün zərərli gördüyümdən hər yerdə söyləməyi özümə borc bilirəm.

Məhərrəm əminin verdiyi öyüdlərin və söylədiyi sözlərin bir çibin vızıltısı qədər ona təsiri olmadı. Qocanın öyüd verməsini Ağamürsəl cahil qürurуna sığışdırmadığından ona ağır cavab vermək istədi. Acıqlı üzünü yerə dikmiş olduğu halda istehza ilə:

– Yaxşı, bunun başqalarına nə zərəri var? – deyə soruşdu.

Məhərrəm əmi acı-acı gülümsədikdən sonra bir az da ona yaxınlaşaraq:

– Zərərini göstərim, ancaq darıxmayın! – dedi. – Bunun ən böyük zərəri ailə həyatını pozmasıdır. Sizin məqsədiniz gündüz pul qazanmaq, axşam kef çəkmək idisə, o halda neçin evləndiniz? Sizin ailə üzvlərinizə baxaq. Nümunə olaraq yalnız oğlunuz Əşrəfi götürəcəyəm. Siz bir atasınız, oğlunuzun o yaşda hansı yerlərdə dolaşdığını, nələr etdiyini bilirsinizmi? Şübhəsiz, bilmirsiniz! Halbuki bir ata olduğunuz üçün bilmək vəzifənizdir! Bu ictimai, milli, həyati bir vəzifədir. Əşrəf ayda neçə dəfə sizin üzünüzü görür? Bir il içində onun gələcə-

yini, səadətini neçə dəfə düşünürsünüz? Əlinizi vicdanınızın üzərinə qoyub ata kimi cavab verin!

Ağamürsəli nə bu suallar maraqlandırırdı, nə də ona veriləcək cavablar. Bu qədər söz içərisində onu az-çox düşündürən və maraqlandıran bir şey varsa, o da Məhərrəm əminin Əşrəfi tanıması məsələsi idi. Başını qaldıraraq:

– Bizim Əşrəfi siz haradan tanıyırsınız? – deyə soruşdu.

– Haradan tanıyacağam, küçələrdən. Yəqin ki, onu məktəbə yazdırdığımı da bilmirsiniz?

Sonra o, gördüyü hadisəni olduğu kimi nağıl etdi, Ağamürsəl dinmədi. Bir az sükutdan sonra gülümsəyərək, Ağacəfərin üzünə baxdı. Ağacəfər söhbətin mövzusunu dəyişdi. Məhərrəm əmi mühüm tarixi simalardan bəhs etməyi çox sevərdi. Böyük Pyotr və Napoleonun məmləkətə etdiyi xidmətlərini uzun-uzadı hər yerdə danışdığı kimi, burada da onlardan söz açıb, geniş məlumat verdi. Sonra başını oynadaraq:

– Padşah belə olar. Yoxsa bizim Nəsirqulu (İran padşahı Nəsrəddin şahın xalq arasında işlənən adıdır). kimi? Nadirlərin əldə etdikləri xəzinələri Firəngistan səfərində o da sizin kimi yubkalara sərf edib, İranı viran etdi.

## İKİNCİ FƏSİL

Məhərrəm əmi Gəncə vilayətinin Palçıqlı kəndində anadan olmuşdu. Atası Heydər kişi ağır bir ailə sahibi və yoxsul bir kəndli idi. Var-dövləti iki öküz və bir parça əkin yerindən ibarət olduğundan o öz ağır ailəsini idarə edə bilmək üçün başqalarına rəncbərlik etməyə məcbur olurdu. Məhərrəm on beş yaşında ikən atası Heydər ağır xəstəlikdən vəfat etmişdi. Avam və bacarıqsız anası yoxsul ailə həyatının ağır zərbələrinə davam gətirməyib, bir il sonra həyata vida etmiş olduğundan uşaqları tamamilə başsız qalmışdı. Ailə həyatında olan bu iki müdhiş faciə kiçik Məhərrəmin bütün varlığını sarsıtmış, həyatını alt-üst etmişdi. Ömrünün bahar çiçəklərini qoxulamadan, gənclik zövq və səfasını duymadan iki müdhiş xəzan görmüş olan gənc Məhərrəm, həyatın ağır boyunduruğu altına girməyə, onunla üz-üzə gələn ağır həqiqətlərlə çarpışmağa məcbur olmuşdu. Kimsəsiz yetim bacılarının

yaşlı gözləri yalnız ona dikilmişdi. O, gənc ikən arxasına almış olduğu bu yükü namusla daşımaq üçün çox yollar düşündü. Bu ağır vəziyyətin altından çıxmaq üçün o, şəhərə köçməyə qərar verdi. Fəhləlikdən qazandığı pulla bacılarını dolandırırdı. Şəhər həyatı çalışmaq üçün onun gözləri önündə geniş bir sahə açmışdı. Çalışmaq və çarpışmağın zövqünü dadmış, yaşadığı dövr və mühitin qayəsini az-çox anlamışdı. Onun zəif vücudu ağır yük daşımağa qadir olmadığından şəhərdə bir əttar dükanı açdı. Ancaq yazı-pozu bilmədiyindən, gəlir-çıxarını lazımınca təyin etmədiyindən oxumaq fikri ilə qohumlarından bir mollanın yanına gedib yazı-pozu öyrətməsini ondan xahiş etdi. Molla istehza ilə gülərək: "Bu mahal bir əmrdir, yazı-pozu öyrənmək üçün azı yeddi-səkkiz il çalışmaq lazımdır" – deyə onu başından etdi. Məhərrəmin azərbaycanca oxumaqdan ümidi kəsildikdən sonra rusca oxumağa başladı. Cahil məhəllə adamları rusca oxuduğuna görə ona "rus Məhərrəm" adı verdilər. Məhərrəm bu sözlərə əsla əhəmiyyət verməyib oxumaqda davam edirdi. Bu aralıq hər iki bacısını köçürmüş olduğundan özünü daha sərbəst hiss edirdi. şərqin çürük mövhumatpərəst və dedi-qodulu həyatı onu sıxdığından bu mühitdən uzaqlaşmaq, daha mədəni bir həyata atılmaq üçün tədbirlər düşünməyə başladı. Nəhayət, kasıb bir ailədən yenicə evləndiyi Firuzəni də götürərək, Rusiyanın mərkəzi olan Peterburqa köçdü, tam qırx il orada ticarətlə məşğul oldu. O, yalnız ticarət adamı deyildi; eyni zamanda cəmiyyət adamı idi də. Xüsusi ticarət işlərindən artıq onu Qafqaz türklərinin iqtisadi, siyasi və mədəni həyatı da düşündürürdü. O bu yolda çalışmaq, bacardığı köməkliyi etmək istəyirdi. Lakin təhsili az olduğundan buna lazımınca müvəffəq ola bilmirdi. O özünü bir yanı iflic adam kimi hiss etdiyinə baxmayaraq, bu yolda çalışmağı bir vəzifə bilirdi. O zaman az da olsa Peterburqun ali məktəblərində təhsil almaqda olan azərbaycanlı tələbələrlə görüşür, onlara maddi kömək edir, tələbələrə məxsus yardım kassası açmaq, qiraətxana təsis etmək kimi məsələlər ortaya ataraq onun tətbiqinə çalışırdı. Öz xalqının istedadına inanmış olduğundan: "Bizim xalqımızın içinə Qərb mədəniyyəti girərsə, gələcəkdə böyük adamlar yetişdirə biləcəkdir" deyirdi. Ona görə də Peterburq universitetində təhsil almaqda olan dörd-beş studentin gələcəyinə böyük ümid bəsləyirdi. Onlarla tez-tez görüşür, bütün dərdlərinə, sevinclərinə şərik olurdu. Bu dörd-beş tələbə ona bir ordu kimi görünürdü. Onlarla görüşdüyü zaman özündə o qədər ruh yüksəkliyi hiss

edir, o qədər şən və bəxtiyar görünürdü ki, sevincindən dünyalara sığmırdı. Tələbələr də bu saf, səmimi və fədakar adama qarşı dərin bir hörmət bəsləyirdilər. O görünən kimi hamısı başına toplanaraq, onu danışdırmağa çalışırdı. Məhərrəm əmi Qafqaz müsəlmanlarının geri qalmasını ruhanilərdə və köhnə İran padşahlarında görürdü. Ona görə də arabir söz açaraq, tələbələrə deyirdi:

– Bizim iki böyük düşmənimiz var: biri İranda, Ərəbistanda təhsil almış ruhanilər və İranı aşıb gələn mərsiyəxanlardır. İkincisi xalqı istibdad pəncəsində əzməkdə olan əyyaş və başsız İran padşahlarıdır. Birincilərdən yaxamızı qurtarmaq üçün Qərb mədəniyyətini xalqımızın içinə geniş-geniş yaymaq və mənimsəmək, ikincidən qurtarmaq üçün isə İranda geniş bir inqilab hazırlayıb, ölkəni bu əyyaş, məğrur və xudpəsənd Qacar nəslinin ağır pəncəsindən qurtarmaq lazımdır.

Məhərrəm əmi fikirlərini təsdiq etmək üçün yeri gələndə maraqlı hadisələr də danışırdı. Məsələn, İran ruhanilərinin cahilliyini göstərmək üçün o, həmişə aşağıdakı əhvalatı nağıl edirdi:

– Bir dəfə İran müctəhidlərindən Ağa Mirzə Həbib bir qafqazlıya vasitəçilik etmək fikri ilə rus konsuluna bir məktub yazdırmaq istəmişdi. Məktubu bir qafqazlı vətəndaşa yazdırdıqdan sonra ağa ondan soruşmuşdu:

– Sizin məmləkətinizdə ruslar çoxdurmu?

– Çoxdur, ağa.

– Onların da İran dövləti kimi mətin dövləti var?

– Vardır!

– Şübhəsiz əsgərləri də var?

– Vardır!

– Yəni İranın ordusu qədər müsəlləhmidir?

Qonşu Rusiyadan xəbərsiz olan belə korlar xalqa rəhbər olduqca, bizim üçün qurtuluş yoxdur.

Məhərrəm əmi bu qisim söhbətlərlə qafqazlı tələbələrin gözünü açmaq, onlarda xalqı və vətəni sevmək üçün dərin bir hiss oyatmaq istəyirdi. Hər il bayram axşamları tələbələr tərəfindən tərtib edilən şərq müsamirələrində Məhərrəm əmini görməmək olmazdı. O, məmləkətlər fəth edən bir komandan qədər şən və bəxtiyar görünərdi. Xüsusən müsamirə başlandığı zaman tələbələrin səhnədəki müvəffəqiyyətlərini gördükcə riqqət və sevincindən gözləri yaşarar, iri dodaqlarını qımıldadaraq:

– Çox şükür, ölmədim, bu günləri gördüm, xalqımızın gələcəyini bunlar hazırlayacaqlar. – deyərdi.

Həmin il iki nəfər universiteti bitirmişdi. Məhərrəm əmi onların şərəfinə təntənəli bir ziyafət verdi. Bu gün onun üçün ən böyük bayram və unudulmaz bir xatirə idi. Zira ki, məmləkətin yetişdirmiş olduğu bu gənclərə son sözlərini söyləməli idi. Məhərrəm əmi bunu unutmadı. Söylədiyi qızğın nitqində çarizmin azğın milli siyasətindən yanıqlı bir dillə danışdı, dərdlərini açıb bir-bir söylədi. Bu onun birinci müvəffəqiyyəti idi.

Daha sonrası var. Məhərrəm əmi Qafqaz müsəlmanlarının mədəni həyatındakı hər yeniliyi böyük sevinclə qarşılayırdı. O, müxtəlif zamanlarda satıcı dükanlarında rast gəldiyi "Əkinçi", "Ziyayi-Qafqaz", "Kəşkül", "Tərcüman" qəzetlərini gördükdə çox şad olmuş və sevincindən qəzetin hər nömrəsinə bir manat vermişdi. Oradan birbaş tələbələrin yanına gələrək: "Balalarım, bircə bunu mənə oxuyun!" deyə qəzetləri başdan-ayağa onlara oxutmuşdu. Sonra kiçik gözlərini çevirərək: "Çox şükür, bu böyük neməti də görə bildim. Rusiya müsəlmanları ayılır" – demişdi.

Məhərrəm əmi ömrünün son günlərini yenə də öz vətənində, öz xalqının içində keçirməyə qərar verdiyindən Peterburqdan Gəncəyə dönmüşdü. O, çox xəyalpərəst olduğundan vətənini bambaşqa təsəvvür edirdi; lakin vətənə qayıtdıqdan sonra fikirlərində yanıldığının, bu uzun zaman içərisində onun çox az dəyişmiş olduğunun şahidi oldu. Köhnə mövhumat, bidət və dini etiqad hələ də xalqın ruhunda yaşamaqda idi. Bu acı həqiqətlərlə üz-üzə gələn Məhərrəm əmi faydalı işlər görmək məqsədi ilə inqilabçı tərəqqipərvər ziyalılara yaxınlaşmağa qərar verdi. Xalqın hələ də çox geridə qalması onu düşündürürdü. Onda ictimai şüur, ictimai məfkurə kifayət qədər doğmamışdı. Azçox təhsil görmüşləri də donuq və bacarıqsız idi. "Bütün bunların başlıca səbəbi mollalardır" – deyə Məhərrəm əmi hər yerdə onları rüsvay edirdi. Bu isə onu axırda Gəncədən qaçmağa məcbur etdi, çünki "rus Məhərrəm" adını almış və o, kafirlikdə şöhrət qazanmışdı.

Məhərrəm əmi Gəncədən Bakıya gəldi.

Lakin bu dəfə o, arvadından başqa bacısı qızı Nəzakəti də özü ilə bərabər gətirmişdi. Övladı olmadığından bu qumral gözlü, xoş simalı qızı o, qızlığa qəbul etmişdi. Bakıya gəldiyi gündən həm Nəzakətin təlim-tərbiyəsi ilə məşğul olur, həm də ictimai-mədəni işlərdə fəal çalışırdı. Ömründə əyilmək bilməyən bu adam, apardığı təbliğat yolunda bəzən cahil, nadan adamlara yalvarmalı olurdu. Hisli, tozlu kü-

çələrdə döyüşən, söyüşən uşaqları görüncə yanaşır, qolundan tutub kim olduğunu soruşur, evlərini, atasının dükanını, kontorunu öyrəndikdən sonra birbaşa ora gedir, oğlunu məktəbə verməyə atasını zorgüc razı salırdı. Hətta çox zaman uşağı özü məktəbə aparıb adını qeyd etdirirdi.

Məhərrəm əmi yoxsul uşaqları daha çox sevir, bütün ümidini onlara bağlayırdı. Onun maarifpərvərliyinə bəzi cahil və nadan şəxslər başqa məna verirdi. "Bu qoca rus xəfiyyəsidir" – deyə onu töhmətləndirirdilər. Bakıda ona başqa bir ad verilmişdi: "Qaz otaran rus". Uzaqdan onu görüncə: "Odur, qaz otaran rus gəlir" deyirdilər.

Xalq içində təbliğat apardığı zaman Məhərrəm əminin təhqir edildiyi, hətta söyülüb qovulduğu zamanlar da olurdu. Vətəndaşlarının ona qarşı olan bu qaba hərəkətləri onun saf və odlu qəlbinə bir tikan kimi batırdı. Ona yalnız gəncliyin gələcəyi və bəzi ziyalıların onu təqdir etməsi az-çox təsəlli verirdi.

* * *

Əşrəf gecəli-gündüzlü realnı məktəbə davam edirdi. Sinif yoldaşları ilə birlikdə çalışır, dərslərini hazırlayır, boş vaxtlarında isə bir yerə toplanaraq gülüb danışırdılar. Məktəb həyatı Əşrəfdə gözəl təəssürat oyadırdı. Get-gedə yoldaşlarını, müəllimlərini sevməyə başlayırdı. Hətta bazar axşamları xidmətçi onu evə aparmağa gələrkən kədərlənirdi. Yoldaşları ilə dəniz sahilində bərabər dolaşmaq onu daha çox şənləndirirdi. Evdə onu sevindirəcək, ona zövq, nəşə verəcək heç bir şey yox idi. Gündən-günə əriməkdə, sönməkdə olan anası Məryəmin oxşamaları da ona təsəlli verə bilmirdi. Atası ilə anası arasında olan küskünlük, ailə həyatında olan uyğunsuzluq onda acı təsirlər oyadırdı. Qayınana ilə gəlinin arası şiddətli surətdə açılmışdı. Vuruşma, deyişmə olmayan, göz yaşları tökülməyən gün çox az olurdu.

Məryəm qayınanasına Ağamürsəldən şikayət edərək qarğıyarkən qarı buna dözə bilmirdi: "Dilin qurusun, balamı qarğıma, sənin bu qarğışların mənim ocağımı söndürəcək" – deyirdi.

Məryəm göz yaşlarını əli ilə silə-silə deyirdi:

– Necə qarğımayım. O mənim cavan ömrümü bu dörd divar arasında yandırıb kül etdi. Belə yaşayış olmaz, o ancaq özünü düşünür, mən də onun kimi insanam, mən də onun kimi yaşamaq istəyirəm.

Hər gün gəlin ilə qayınana arasında deyişmələr, vuruşmalar beləcə uzanıb gedirdi. Bu ürək sıxıntısına davam gətirməyən ana çarşabını götürüb qonşulara gedərdi.

Əşrəf bu faciəli həyatı görməkdən yorulmuş, təngə gəlmişdi. Atasının ailəyə qarşı soyuq hərəkəti, anasının bitməz-tükənməz göz yaşları onun ruhunu, qəlbini əzir, parçalayırdı.

Bir gün Məryəm Əşrəfin boynuna sarılıb:

– Oğlum, Əşrəf, səndən başqa ümidim, pənahım yoxdur. Atam yox, anam yox, günüm yox, diriliyim yox, mənim üçün yalnız sən varsan. Mənim qolum-qanadım, ümidim, pənahım yalnız sənsən. Mən ancaq səni xoşbəxt görmək üçün yaşayıram. Çalış, oxu, adam ol, mən də şad olum. Amandır, oğlum, mənim bəxtsizliyimə, göz yaşlarıma yazığın gəlsin. Oxu, oxu, hər ikimizi bu qara günlərdən qurtar...

Xəyalpərəst uşaq gecələr yatağına girdiyi zaman bədbəxt anasını gözləri önünə gətirir, onun dərdlərini unutdurmağa, göz yaşlarını qurtarmağa çarə və tədbirlər düşünür, öz xəyalında dağı arana, aranı dağa daşıyırdı. Xəyal aləmində orta məktəbi, tibb fakültəsini bitirir, anası Məryəmi atasından ayıraraq kirə ilə oturduğu evə köçürür, hər gün anasını faytonlarda teatrlara, kinoya aparır, anası da: "Oğlum, yaşa, xoşbəxt ol. Sən məni məşəqqətli həyatdan qurtardın", – deyə onu bağrına basaraq öpürdü.

Əşrəf gecələr bu dadlı xülyalar içində yuxuya gedir, yuxuda anasını görürdü: o yenə nənəsi ilə savaşmış, əllərini dizlərinə vuraraq, hıçqıra-hıçqıra ağlayır. Əşrəf o kiçik qollarını açaraq, anasının göz yaşlarını qurutmaq, dadlı ümidlər və xoş vədlərlə ona təsəlli vermək istərkən gözlərini açar, yatağının içində dərdindən, kədərindən səhərə qədər gözlərinə yuxu getməzdi. Həyatında ən çox sevdiyi yalnız yaralı quş kimi çırpınmaqda olan bədbəxt anası idi. Hətta məktəb salonunda dərslərinə çalışdığı zaman bir az çətinlik hiss edincə: "Bax, ana can,. hər zəhməti, hər sıxıntını ancaq səni qurtarmaq, səni yaşatmaq üçün çəkirəm", – deyirdi.

Son zamanlar Əşrəfin qəlbini gəmirməkdə olan sıxıntı, kədər üzgözünü duman kimi bürümüş, onun qol-qanadı qırılaraq yanına düşmüşdü. Keçən həftə evə gedərkən xəstə anasını çox halsız görmüşdü. Hətta ayda, ildə bir dəfə üzünü görmədiyi atası Ağamürsəl də evdə idi. Həkimlər Məryəmi müayinə edib, o biri otağa keçdikləri zaman: "Sağalmağına ümid yoxdur, vərəm xəstəliyi sürətlə irəliləyir" sözlərini qapı arasından eşitmiş, içində bir şeyin qırıldığını hiss etmişdi. Bu acı

xəbər onun vücudunu sarsıdaraq, bütün ümid çiçəklərini qırıb yerə tökmüşdü. Yalnız atası Ağamürsəlin evdə olması, arabir anasına dərman içirməsi ona təsəlli verirdi. Bundan sonra onların arasında səmimi məhəbbətin olacağına, anasının bu xəstəlikdən qurtaracağına inanırdı. Bilirdi ki, anasını üzən, onu vərəm yatağına sərən Ağamürsəlin çirkin və qaba hərəkətləri olmuşdur. Bundan sonra isə anası üzülməyəcək, düşünməyəcək, hamısı şən, bəxtiyar həyat keçirəcəkdir. Əşrəfi bu ümid və xəyallar sevindirir, həftəni böyük bir maraq və intizar içində keçirir, hər gün ona bir il qədər uzun görünür, o ata-anası arasında olan barışığın davam etməkdə olduğunu öyrənməyə tələsirdi.

İkindi çağı idi. Əşrəf yoldaşları ilə bərabər salonda dərs hazırlarkən mürəbbi qapını açaraq "Əşrəf!" deyə bağırdı. Əşrəf tez yerindən fırlayaraq qapıya tərəf qaçdı. Qapı ağzında xidmətçi Rəcəbi görüncə titrək bir səslə:

– Nə var? – deyə soruşdu.

Rəcəb həzin bir səslə:

– Heç, xanım səni görmək istəyir, – deyə cavab verdi. Bu söz onun qəlbində dərin bir həyəcan doğurdu. Əşrəf bir şey sezmiş olduğundan çox dalğın idi. Rəcəblə evə gedərkən yolda ondan bir şey soruşmağa belə cəsarət etmədi. Həmin həyəcan və iztirabla anasının otağına girdi. Anasını çox halsız gördü. Atası Ağamürsəl Məryəmin yatağı ucunda oturmuşdu. Xəstə isə ağır-ağır nəfəs alırdı. Əşrəf çarpayının aşağı tərəfində səssiz duraraq, gözlərini anasının üzündən ayırmırdı. Xəstənin ağır bir böhran keçirməkdə olduğunu hiss etdiyindən gözləri dolmuş, içindəki həyəcan və iztirabdan yanaqları qızarmışdı. Əşrəf qollarını açmaq, anasının boynuna sarılmaq, ağlamaq, onun kəhrəba kimi saralmış ətsiz, quru, sümük üzünü göz yaşları ilə islatmaq istəyirdi. Atası Ağamürsəlin orada olması Əşrəfi sıxır, qəlbinə bir ağırlıq verirdi. Ağlaya bilmədiyindən göz yaşları qəlbinin içinə axırdı. Məryəm dərin bir nəfəs aldıqdan sonra gözlərini açdı, bir şey axtarırmış kimi çuxura çökmüş sönük gözləri ilə ətrafı süzdü. Əşrəf orada olduğunu bildirmək üçün yerindən qımıldandı, yaş dolu gözlərini anasının üzünə dikərək qaldı. Məryəm Əşrəfi görüncə başını yastıqdan qaldırmaq istədi, mümkün olmadı, başı yenə taqətsiz halda yastığa düşdü. Quru, sümük əlləri ilə Əşrəfi yanına çağırdı. Əşrəf qollarını açaraq anasına sarıldı. Artıq dayana bilmədi, bir an əvvəl qəlbinə axan göz yaşları indi onun gözlərindən tökülməyə başladı. Başını anasının quru, soyuq köksünə dayayıb, hıçqıra-hıçqıra ağladı. Məryəm əlləri ilə onun başı-

nı oxşayır, qəlbinin son atəşi ilə, uzun və qara kirpikləri arasından süzülən qızğın göz yaşları ilə quru yanaqlarını isladırdı.

Bir müddət Əşrəfin başını qucaqlayıb durdu. Sonra onun alnını dodaqlarına doğru çəkib öpdü, qoxuladı, əlləri ilə başını bir az qaldırdı; həsrətli gözlərini ona dikərək baxdı, başını yenə dodaqlarına aparıb doyunca öpdü. Sonra başını yastıqdan qaldırmaq istəyərək həzin bir halda Ağamürsələ baxdı. Bir saniyə iki cüt göz bir-birinə dikildi. Bir söz söyləmədi, yenə də hər ikisi gözlərini aşağı dikib qaldılar. O ani baxışlardan hər ikisi bədbəxt bir ailənin fərəhsiz tarixini, on beş illik bir həyatın ən müdhiş və qaranlıq səhifələrini oxudular. Məryəm Əşrəfi köksünə sıxdı. Gözlərini kirpikləri arasında gizlədərək titrək və həzin bir səslə:

– Ağamürsəl, Əşrəf əmanəti!.. Heç olmasa bunu sev, – deyə bildi.

Rəngin qanadlarını ətrafdan toplamaqda olan günəş üfüqlərə sarı şəfəqlərini yaymaqda davam edirdi.

Məryəmin ölümü Əşrəfdə olduqca acı bir təsir oyatmışdı. O, gündən-günə əsəbiləşir, bədbinləşir və atası Ağamürsələ anasının qatili kimi baxırdı. Bunu duymuş olduğundan Ağamürsəl bu yaralı ceyranı özünə ram etmək üçün hər gün onun cibini pul ilə doldurur, arabir özü ilə bərabər kinoya, teatra, hətta kazinoya belə aparırdı. Bu həyat Əşrəfin əhval-ruhiyyəsi və əxlaqı üzərində silinməz qara izlər buraxır, dərsə olan eşq və həvəsi get-gedə sönməyə başladığından məktəb ona bir zindan görünürdü. Dərslərinə o, yalnız anası Məryəmi bəxtiyar yaşatmaq üçün çalışırdı. İndi dərslərin çətinliklərinə, məktəbin ona zindan kimi görünən həyatına nə üçün və kim üçün dözəcəkdi? Atasının sərvəti tükənməz bir dənizdir. Bu yanlış mühakimə onu yolundan azdırır, qaranlıq, uçurumlu yollara salmağa kömək edirdi.

Məryəmin ölümündən beş-altı ay sonra Əşrəf çox sürətlə dəyişməyə, əxlaqındakı xəstə, zəif cəhətlər qüvvətlənməyə, daha qabarıq bir şəkildə üzə çıxmağa başladı. Hər gün sinifdə dörd-beş saat oturmaq ona cəhənnəm əzabı kimi müdhiş görünürdü. Müəllimlər şirin dərs dediyi zaman onun fikri tamamilə başqa yerlərdə dolaşır, başqa şeylər düşünürdü. Bunun nəticəsi olaraq axır zamanlarda o, fənlərdən orta qiymət də ala bilmirdi. O, dördüncü sinifdə qalacağını yəqin etmişdi. Əşrəf bunu qürurunu sığışdıra bilmədiyindən məktəbi atmaq üçün bir bəhanə axtarırdı. Qəribədir ki, dördüncü sinif Əşrəf kimi düşünən, Əşrəf kimi tərbiyə almış uşaqların təhsil taleyini həll edən müəmmalı bir mərhələ idi. Məktəb müdiri də dördüncü sinfə "zadəgan sin-

fi” adını vermişdi. Çünki Əşrəf kimi zadəgan balaları çox zaman ya bu sinifdə qalmağa, ya da məktəbdən tamamilə çıxmağa məcbur olurdular.

Qəribə bir təsadüf Əşrəfin də məktəbi atmasına səbəb oldu. Bir gün böyük tənəffüsdə Əşrəf bütün yoldaşlarına konyak ziyafəti vermiş, içməyənləri də zorla sinifdə içməyə məcbur etmişdi. Sinfə girdiyi zaman içki düşkünü olan kimya müəllimi İvan Petroviçi spirt qoxusu tamamilə sərxoş etdi. Onun içməyərək sinfə girdiyi günlər çox az olurdu. Bu gün təsadüfi olaraq ağzına bir damcı da spirt dəyməmişdi. Bu kəskin konyak qoxusu onun əhval-ruhiyyəsini tamamilə dəyişdirdi. Əsəbləri şiddətlə gərildi, dimağını dumanlı bir atəş bürüdü. Qızdırmalı adamlar kimi bütün vücudu titrəməyə başladı. Atəş böcəyi kimi parıldayan kiçik yuvarlaq gözlərini, onu şübhəli baxışlarla süzən sinfə dikərək:

– Bu nədir? Otaq spirt qoxusu ilə dolmuş, sinif meyxanaya çevrilmişdir! – deyə acıqlı və xırıldayan bir səslə bağırdı. Sinif sükut edir, gülməyini saxlaya bilməyənlər dodaqlarını gəmirir, başlarını skamya altında gizlətməyə çalışırdılar.

İvan Petroviçin ağzı köpüklənərək coşmadığı gün çox az olurdu. Bir dəqiqə içində ağzından köpüklər saçar, acığından bığlarını, dodaqlarını gəmirər, sonra yenə bir an içində təbii halına dönərdi. Buna alışmış olan uşaqlar bu acığın yenə hər zamankı kimi uzun sürməyəcəyinə inanmışdılar. Onlara elə gəlirdi ki, bu o qədər də böyük bir qəbahət deyildi, çünki kimya dərslərində müəllimin ağzından yayılan bu qoxunu hər gün onlar udmurdularmı? Nə fərqi var, bir dəfə də həmin qoxunu müəllim tələbələrin ağzından udsa qiyamətmi qopar? Bu mühakimə ilə bütün sinif əyləncəli bir sükut içində müəllimin ikinci üzünü göstərəcəyi zamanı gözləyib dururdu. Ancaq nəticə onların gözlədiyi kimi olmadı. İş getdikcə böyüdü, İvan Petroviç tələbələrə yaxınlaşaraq:

– Konyak şüşəsi kimdədirsə versin – deyə təkid etdi.

Sinif isə sükutunda davam edirdi. Bu halın uzun sürməsinə dözə bilməyən İvan Petroviç vaxtı qısaltmaq və işdən bir nəticə ala bilmək üçün yol axtarmağa başladı, zehnində verdiyi qərarı həyata keçirmək və tələbələr üzərində dərin təsir buraxmaq üçün üzünü sinfə tutaraq dedi:

– Konyakın sinfə kimin tərəfindən gətirildiyini və kimin skamyası altında saxlandığını çox gözəl bilirəm. Müəlliminiz olmaqdan başqa sinfin mürəbbisi olduğum üçün də bu məsələni sizinlə birlikdə həll edəcəyəm. Ona görə də kimə sual versəm həqiqəti deməli və şüşənin kimdə olduğunu söyləməlidir!

Bu sözlərlə tələbələr üzərində dərin bir təsir buraxdığını yəqin edərək qəti, amiranə bir səslə sağ sırada oturan tələbələrdən birisinə:

– Qalx, sən söylə! – dedi.

Təsadüfə bax ki, keçən gün kimya dərsindən "Spirtonun təhlili" keçilmiş, İvan Petroviç isə başı qızışmış olduğundan dərsi böyük bir maraq və həvəslə anlatmışdı. Tələbə qalxdı, ciddi bir halda dedi:

– Etil spirtinin kimyəvi tərkibi: S2H5OH-dır.

Sinifdə qopan qəhqəhədən və tələb etdiyi suala verilən yersiz cavabdan kimya müəllimi qəzəbləndi. Qan başına sıçradı. Artıq müvazinəti itirərək nə edəcəyini bilmədi. "Yaramazlar! Tərbiyəsizlər!" deyə ayaqlarını yerə çırparaq, səsi gəldiyi qədər bağırmağa başladı. İşin əvvəlində bu məsələni səssiz, gurultusuz basdırmaq istədiyi halda, heç düşünmədən tələbələrin birisinə: "Qalx, müdiri sinfə çağır!" – deyə əmr verdi. Tələbə getdi. İşin mürəkkəbləşdiyini və bunun acı bir nəticə verəcəyini duymuş sinif həzin bir sükut içində oynanmaqda olan bu komediyanın son pərdəsini görmək üçün dərin bir həyəcan içində gözləyirdi. Qapı açıldı. müdir sinfə girdi. Kimya müəllimi İvan Petroviç onu görüncə qollarını çarpazlayaraq, aciz qaldığını bildirən adamlara məxsus bir səslə:

– İvan Viktoroviç, – mən öz acizliyimi etiraf edirəm. Bu işdə bəlkə siz mənə kömək edəsiniz? – dedi.

Müdir cavab vermədən tələbələrə doğru gəldi. Tez-tez spirt qoxusunu burnu ilə udub sağ əlini havada sallayaraq, başını sürətlə oynatdığı halda acı və istehzalı bir səslə:

– Əcəba, mən haradayam, maarif ocağı olan Bakı realnı məktəbinin sinfindəyəm, ya sərxoşlar yığıncağı olan meyxanada? Məktəb divarları arasında bu qabalıqda zarafata indiyə qədər təsadüf etməmişəm. Tərbiyəsizliyin bir dərəcəsinə bax! Sinfin müqəddəratını özünüz həll edin! Bu sinif ya tamamilə bağlanacaq, ya müqəssirlər göstəriləcək! Konyak kimin tərəfindən gətirilmiş və kimdədir?

Sinif dilsiz bir sükut içində susurdu. müdir sualı təkrar etdi. Heç kimdən səs çıxmadı. Sinfin inad etdiyini görüncə İvan Viktoroviç başqa bir çarə düşündü. Tələbələri bir-bir skamyadan qaldıraraq, divar dibində sıraya düzdü və skamyaları axtarmağa başladı. Birdən əlində boş bir konyak şüşəsini qaldıraraq:

– Ey... Bu hansı mübarəkin yeridir? – deyə soruşdu.

Əhməd irəli yüyürərək. dalğın səslə:

– Mənim yerimdir, ancaq, ondan mənim xəbərim yoxdur! – dedi.

– Qoçaq, bu şüşə sənin skamyanda durduğu halda necə olur ki, sənin bundan xəbərin olmur? – deyə müdir onun sözünü kəsdi, sonra Əhmədin başını əlləri ilə qaldıraraq, ağzını qoxladı:

– Konyak ziyafətində iştirak edən bir adamın hər şeydən xəbəri olmalıdır! – dedi.

Uşağın bənizi kəhrəba kimi saraldı, bədəni, dodaqları titrəyə-titrəyə:

– İvan Viktoroviç, namusuma and olsun ki, konyakı mən gətirməmişəm, – dedi.

Müdir Əhmədin yoxsul olduğunu və konyakın başqa tələbə tərəfindən gətirildiyini bildiyindən baş müqəssiri tapmaq üçün tədbir düşünməyə başladı.

Dalğın bir halda pəncərəyə söykənərək, tamaşaçı kimi uzaqdan baxmaqda olan İvan Petroviç sürətlə irəli gəldi, şüşəni qaldıraraq, diqqətlə baxdı. İçərisində bir damla belə qalmadığını görüncə məyus bir tövrlə şüşəni başıaşağı tutdu. Titrək və yanıqlı bir səslə:

– Acgöz həriflər, konyakı son damlasına qədər içmişlər, – deyə şüşəni yenidən masa üzərinə qoydu.

Müdir tələbələri bir-bir öz kabinetinə çağırıb, istintaq etdi, ciddi yoxlamadan sonra konyakın Əşrəf tərəfindən gətirildiyi və böyük səxavətlə bütün sinfi içirdiyi meydana çıxdı. O gecə təcili çağırılmış müəllimlər şurasında Əşrəfin məktəbdən qovulmasına, bir daha belə çirkin hərəkət görülərsə sinfin tamamilə bağlanmasına qərar verildi.

## ÜÇÜNCÜ FƏSİL

Bayram axşamı idi. Məktəb şagirdlərinin bir qismi öz evinə, bir qismi qohum-əqrəbasının, yaxın dost-aşnasının evinə, bir qismi də teatr və müsamirəyə getmişdi. Bayram Əhməddə acı bir düşüncə doğurmuş olduğundan o bu axşam heç bir yerə getməyərək geniş, səssiz dəhlizlərində dalğın-dalğın dolaşır, yalqızlığını, kimsəsizliyini düşündükcə amansız bir duyğu qurd kimi qəlbini gəmirirdi. Bu sıxıntılı düşüncələrlə salona girdi. Hər zaman yoldaşlarının şən gurultuları ilə canlanan salon indi səssiz-səmirsiz, onun kimi yalqız və kimsəsiz görünürdü. Köksünə sığmayan kədərlərini unutmaq fikri ilə pəncərəyə yanaşdı. Yoldan keçən arabaları, evlərinə şirni daşıyan üstü-başı təmiz adamları, qoltuqları dolu evlərinə tələsən şən uşaqları gördükcə acı bir

düşüncə qəlbini dəlir, ruhunun işığını söndürürdü. Hətta yiyəsinin arxasınca qaçan köpəkləri gördükdə dərindən içini çəkdi: "bax. bu köpəklər də məndən xoşbəxtdir! Bunlar da bayram olduğunu hiss edərək, quyruqlarını oynada-oynada yiyələrinin şadlığında iştirak edirlər. Mən isə...".

İçindəki sıxıntı və həyəcandan sözlərini bitirə bilmədi. Gözləri yaşardı. Başını pəncərədən çəkərək, ortalıqdakı skamyanın üzərinə yıxıldı. Həzin-həzin düşünərək, qəlbində bu bayram axşamı münasibəti ilə Məhərrəm əminin evinə getmək arzusu canlandı. Bu xüsusda bir az düşündü. Qəlbi ona "Get!", əzm və iradəsi isə "Getmə!" deyirdi. Bu tərəddüd içində stola dirsəklənərək, əlindəki rus şairlərindən Lermontovun əsərini vərəqləməyə, kitabın içərisində "Mtsıri" sərlövhəli poemanı istər-istəməz mütaliə etməyə başladı. Poemanın mündərəcəsi həyatına uyğun olduğundan daha böyük bir maraqla oxumağa, əsərin qəhrəmanı olan uşağın halını öz halına bənzətməyə çalışırdı. Bu düşüncə onu uzaqlara aparır, ixtiyarsız olaraq öz ata-anasını, yoxsul olmaqla bərabər şən və sadə ailə həyatını, atasının, anasının vəfatını, yetimliyini, həyatın qaranlıq və qorxunc çöllərində başsız. kimsəsiz, çaşqın-çaşqın dolaşdığı zaman Məhərrəm əminin yol göstərən bir ulduz kimi qarşısında parlayaraq, ona həyat və səadət yolunu göstərdiyini acı-acı düşünürdü. Sonra əsərin qəhrəmanı olan uşağın əsir düşüb vətənindən, ata-anasından, azad, geniş yaşıl yamaclardan, güllü çəmənlərdən ayrılaraq, bahar ömrünü monastrın sıxıntılı, kədərli qalın divarları arasında keçirməsini özünün məktəb divarları arasında inləyə-inləyə yaşamasına bənzətdi. bu fikirlərlə o qədər məşğul idi ki, qapı ağzına qədər gələn ayaq səslərini eşidə bilməmişdi. Birdənbirə qulaqları dibində gurlayan qəhqəhədən dik qalxdı. Əşrəfi görüncə əlini uzadaraq:

– Vay Əşrəf, sənsən? – dedi.

Əşrəf həm güləş, həm də məğrur bir səslə:

– A yetim! Tək-təkinə bu salonda neyləyirsən? – deyə soruşdu.

Əhməd qırıq və kəsik bir səslə:

– Heç bir şey... Lermontovun "Mtsıri" poemasını oxuyuram, – deyə cavab verdi.

– Oxumaqdan bir şey çıxmaz, qalx, qalx! səni gözəl bir müsamirəyə aparacağam. Müsamirədən sonra tans olacaq, mənim tansda qazandığım məharəti görəcəksən, – deyə Əhmədin qoluna girdi.

Əhməd bir az düşündükdən sonra:

– Mürəbbimiz tələbələrlə gedib, ondan izinsiz...

– Ay qorxaq! Bu müəllimlərin, mürəbbilərin qabağında nə qədər boyun əyəcəksən? Bir də bu axşam bayram axşamıdır. Mürəbbi nə deyəcək? – deyə Əhmədi müsamirəyə apardı.

* * *

Əhməd, Əşrəf kimi yoldaşlarına qibtə edərək: "Bax, bunlar doğrudan yaşayır, həyatın bütün zövq və nəşəsini dadır, bizim kimi sürünmür" deyirdi. Bununla bərabər dərslərini də unutmurdu, çünki düşündüyü məsul həyatı yalnız elmlə qucaqlaya biləcəkdi. Bunu bildiyi üçün məktəbin və dərslərin bütün ağırlığına qatlanaraq, siniflərin heç birində qalmadan məktəbin təhsil dövrünü bitirdi. Son imtahanlarını verdiyi gün sevincindən məktəbin geniş, işıqlı otaqlarına və dəhlizlərinə sığmayaraq, özünü sevinclə küçəyə atdı. Geniş bir nəfəs aldıqdan sonra: "Uf, qurtardım" – deyə üzündə-gözündə sevinc qığılcımları parladı. Lakin bu sevinc çox sürmədi. Üzündəki parlaqlıq birdən-birə sönərək bulaşdı, yerinə həzin və solğun bir rəng çökdü.

O sevinirdi, çünki orta məktəbi bitirmiş, on il çalışmış, çapalamış, sərf etdiyi əmək və fəaliyyətinin bu gün mükafatını almışdı. Əhməd kimi yoxsul, kimsəsiz bir uşaq üçün bu az müvəffəqiyyət deyildi. Onun üçün sevinirdi. Kədərlənirdi, çünki qəlbində coşub-daşan, onu rahatsız edən hissiyyatını söyləyəcək, onun sevincinə şərik olacaq heç kimi yox idi. O gün kimsəsizliyinin acısını hər zamandakından daha çox hiss edərək. qol-qanadsız bir quş kimi inildədi. Bundan başqa təhsilini davam etdirmək niyyətində idi. O yalnız Məhərrəm əmiyə güvənir, ondan kömək gözləyirdi. Ona görə də ondan bir "afərin" almaq və gələcəyi haqqında fikrini öyrənmək üçün onun evinə getdi. Məhərrəm əmi onu bir ata kimi qarşıladı. Onun müvəffəqiyyətini alqışlayaraq: "Afərin oğlum! Xalqına, vətəninə səni faydalı bir oğul görmək istərəm! – deyə əllərini əlləri içində sıxdı. Əhməd də cavabında:

– Məhərrəm əmi, xalqımızın ən namuslu oğlu olacağıma sizin qarşınızda bütün vicdanımla, namusumla söz verirəm! – dedi.

Qocanın ürəyi kövrəldi, gözləri yaşardı. Titrək bir səslə:

– Oğlum, yetimliyin, kimsəsizliyin hər üzünü görmüş, hər acısını dadmısan. Unutma ki, bizim xalqımız, vətənimiz səndən daha yetim, daha kimsəsizdir! O sizinlə böyüyəcək, canlanacaq və şənlənəcəkdir.

Bu ağır və olduqca şərəfli olan vəzifəni mətanətlə yerinə yetirənləri tariximiz unutmayacaq. Bu yolda açdığınız izləri gələcək şüurlu nəsil addım-addım izləyəcək. Tarixin bu ağır imtahanında sizi alnıaçıq, üzüağ. vicdanı təmiz görmək son arzumdur, – dedi.

Ana dilini bir qədər yadırğamış olan qoca öz fikrini Əhmədə gözəl təsir etsin deyə, rusca söylədi.

* * *

Əhməd orta məktəbi bitirdiyi gündən Məhərrəm əmi onun pulsuz vəkili olmuşdu. tərbiyəsindən, biliyindən uzun-uzadı söz açaraq, ali məktəblərdə təhsilini davam etdirmək üçün dövlətlilərdən maddi kömək istəyirdi. Nəhayət, Bakı varlılarından birini ayda 15 manat verməyə razı etmişdi. Əhməd maddi cəhətdən təmin edildiyindən artıq üz-gözü gülür, Moskva universitetinin neft şöbəsinə girməyə hazırlaşırdı. Bu arada dostu Əşrəflə görüşüb, Moskvada xüsusi kurslarda çalışaraq, az zamanda orta məktəbin son sinfinə imtahan verə biləcəyinə onu inandırdı. Əşrəf bu təklifi böyük bir məmnuniyyətlə qəbul etdi, çünki onda oxumağa olan maraq hələ tamamilə sönməmişdi. Əhməd kimi yoxsul və kimsəsiz uşaqların orta məktəbi bitirməsi ona olduqca ağır gəlirdi. Məsələni atasına söylədiyi zaman Ağamürsəl onun fikrini böyük sevinclə qarşıladı.

Təhsil illərinin birinci günündən hər ikisi Moskvada – Əşrəf kursda, Əhməd isə universitetin neft şöbəsində oxumağa başladı. Əhməd universitetə qəbul olunduqdan sonra Məhərrəm əmiyə belə bir məktub yazdı: "Əziz atam!

Universitetin neft şöbəsinə qəbul edildim. Bilsən nə qədər sevinirəm, məni düşündürən bir şey varsa, sizin mənə etdiyiniz bu qədər yaxşılıqlara qarşı heç bir şeylə əvəz verə bilmədiyimdir. Mən doyunca ailə həyatı, ailə məhəbbəti görmədim, ata-anamın isti qoynunda bəxtiyar bir həyat sürə bilmədim. Atalıq vəzifəsini tamamilə siz icra etdiniz. Sizin işıqlı və məhəbbətli qanadınız altında bu müvəffəqiyyətləri qazandım. Daha kamil bir insan olmaq üçün indi bütün qüvvəmlə çalışıram. Ana dilini daha yaxşı öyrənmək üçün ən qiymətli saatlarımı sərf edirəm.

Ana dili deyirəm, ana, ana! Uf! Nə qədər sevimli, nə qədər dadlı bir kəlmə... hər uşaq ilk dəfə "ana" deyə dil açır. Ana kəlməsinin mənə verdiyi coşqun hissi və geniş mənanı mən heç bir dillə təsvir edə

bilməyəcəyəm. Elə hisslər vardır ki, insan onun mənasını bütün qəlbi ilə, bütün ruhu ilə hiss edir, ancaq onu qələmlə, dillə təsvir edib başqalarına duydurmağı bacarmır. Ana, bir məhəbbət heykəli – ana; bir səadət timsalı – ana; bütün istəklərin, diləklərin beşiyi – ana; işıqlı və hərarət ocağı – ana..., o hər şey, hər şey... Uf! Ana bu qədər sevimli, dəyərli olduğu halda doyunca üzünü görmədim, onun günəş qədər qızğın qoynunda, sevgi qədər əziz qucağında mənəvi hərarət və məhəbbət ala bilmədim.

Ana qucağı görməyənlər taxta kimi quru, daş kimi qatı, buz kimi soyuq olur, deyirlər. Əcəba bu sözlər doğrudurmu? Doğru olursa, yazıqlar olsun mənə...

Ancaq, o biri tərəfdən düşünürəm, ata-anam olsaydı, kim bilir, bəlkə də bu müvəffəqiyyəti qazana bilməzdim, deyə təsəlli tapıram. Nə isə, fərdi bəxtiyarlığın ictimai həyatda nə əhəmiyyəti var?

Fikrimdən uzaq düşməyim. Mən sizin zəhmətinizə nə ilə əvəz vermək haqqında danışarkən atımı bax haralara sürdüm. Sevimli atam, məni yetişdirən xalqımız üçün namuslu və dəyərli bir oğul yetişə bilsəm, sizin mükafatınızı vermiş olmazmıyam? Sizə bundan böyük bir mükafat təsəvvür edə bilmirəm. Sizi müzəffər və bəxtiyar ata görmək üçün özümü namuslu, şərəfli bir oğul yetişdirməyə çalışıram. Sağ olun! Əlinizi hörmətlə sıxıram. Oğlunuz Əhməd".

Məhərrəm əmi məktubu aldı. Onu azından on kərə oxudu, oxudu. Məktubu ilk dəfə oxuyarkən aldığı təsirdən köksü qabardı. Gözləri sevinclə parladı. Əhmədə, ümumiyyətlə yetişməkdə olan gənclərə məhəbbət və inamı artdı. Ürəyində: "Bu fırtınalı dənizin qudurmuş dalğaları ağzından gəmimizi ancaq bu gənc sükançılar salamat sahilə çıxaracaqlar" – dedi.

* * *

Əşrəf Moskvada yalnız üç il qala bildi. Əvvəlləri kursda, sonra bir orta məktəb müəllimi yanında xüsusi olaraq çalışır, dərslərində az-çox müvəffəqiyyət göstərə bilirdi. Ancaq onun elm dalınca getməyi çox az davam etdi. O, yenə qaranlıq yollarda dolaşmağa, hər cür kef və işrət dalınca qaçmağa başladı. O, Əhmədi də tamamilə bu yola çəkmək istəyirdi. Əhməd dostu Əşrəfin fikrini anlamışdı. O, Əşrəf kimi dövlətli balalarının əhval-ruhiyyəsini gözəl bilirdi. O bilirdi ki, Əşrəf kimi cahillər hər bir məziyyət və qiyməti yalnız sərvət və dövlətdə görür.

Əhməd üçün isə bilik və ixtisasdan başqa güvənəcək və gələcəyini təmin edəcək heç bir vasitə yoxdur. Ona görə də bütün qüvvət və iradəsi ilə dərslərinə sarılaraq, ondan ayrılmırdı. Məhərrəm əmidən aldığı məktubların da onun üzərində böyük təsiri olurdu. Bununla bərabər Əşrəf arabir Əhmədi də özü ilə bərabər aparır, o azğın həyatın acı və füsunkar zövqünü ona dadızdırırdı.

Bir gün Əhməd dostu Zəki ilə bərabər oturub danışırdı. Əşrəf atasından aldığı məktubu əlində tutduğu halda içəri girdi. Qürurla üzünü Əhmədə tutub:

– Əhməd, atamdan aldığım məktubu sənə oxumaq üçün gəldim, qulaq as! "Oğlum Əşrəf! Mənim işim o qədər çox, vaxtım o qədər azdır ki, sənə məktub yaza bilmirəm. Sən mənə baxma, məktubunun arasını kəsmə. İndi ki, oxumağa qərar vermisən, sözüm yox. Ancaq canını çox üzmə, keçinmək üçün lazımınca sərvətimiz var. Elm insan özünü idarə və təmin edə bilmək üçün deyilmi? Ye, iç, kefdən qalma, dünyadan istədiyin qədər kam al!.. Sənə iki min manat göndərdim, kifayət etməzsə yaz, yenə göndərim. Sağ ol. Atan Mürsəl".

Əşrəf məktubu oxuyub bitirincə sevinclə parıldayan gözlərini Əhmədin üzünə dikərək:

– Bax, məktub belə olar! Sən də qocanın məktublarını elə bir fərəhlə oxuyursan ki, elə bil göydən enmişdir, – dedi.

– Qoca kimdir? Yoxsa Məhərrəm əmini deyirsən? – deyə Zəki maraqla soruşdu.

Əşrəf acı-acı gülümsəyərək cavab vermədi.

– Bu daşlar ona atılır, ancaq Əşrəf, sənin dədənin məktubu sənə aiddir, mənə də atalıq edən qocanın məktubu qiymətlidir, – deyə Əhməd ciddi bir səslə cavab verdi.

Zəki dostunun sözlərini təsdiq etdi:

– Bir bax, kim kimi bəyənmir! O qoca sənin və mənim kimi gənclərdən, hətta dədən Ağamürsəldən qat-qat uca bir insandır. Bunu anlamaq lazımdır. Məncə oxuduğun o məktub ağlını və şüurunu itirmiş bir sərsəmin söylədiyi sözlərdən başqa bir şey deyildir! Şüurlu ata oğluna belə məktub yazmaz!

Əşrəf Zəkinin sözündən çox pozuldu, ancaq cavab vermək istəmədiyindən:

– Elm və ixtisas özünü idarə və təmin edə bilmək üçün lazımdır. Mənim isə özümü idarə edə biləcək qədər sərvətim vardır, – deyə qürurla gözlərini Əhmədin üzünə dikdi.

– Odur ki, oxumağın daşını atdın. Ancaq məncə sərvət insanı təmin edər, idarə etməz. İdarənin nə olduğunu bilmək üçün elm və ixtisas lazımdır.

– Heç lazım deyil, həqiqət göz qabağındadır. Bizdə oxumamış, çalışqanlığı ilə milyonlar qazanan və özünü gözəlcə idarə edə bilənlər azdırmı?

– Onların elm və ixtisası olsaydı, daha çox və səmərəli qazana bilər və sərvətləri faydalı yerə sərf olunardı.

– Sizin elm və biliyiniz daha faydalı yerlərə sərf edildiyi kimi!

Zəki hər ikisinə etiraz etdi:

– Hər ikiniz yanlış düşünürsünüz. Məncə elm və sərvət insana idarəçilik öyrədə bilməz! İdarəçilik yalnız heyvan kimi qarnını hər cür həşərat və nəbatat ilə doldurmaqdan ibarət deyil. Məmləkətimizdə atan Ağamürsəl kimi sərvətdarlar və müəyyən ixtisas sahibi olan ziyalılarımızın çoxu həyatı ancaq belə düşünür. Halbuki həqiqi bir vətəndaş, kamil bir insan yalnız öz həyatını təmin etməyi, özünü idarə edə bilməyi düşünməz. Bunu anlamaq üçün hər şeydən əvvəl ictimai şüur və tərbiyə lazımdır! Demək, bu məsələ əxlaq və ictimaiyyətlə əlaqədardır. Bu olmayınca əşrəflərin sərvəti, əhmədlərin, zəkilərin elmi və ixtisası dənizdəki dalğalar üzündəki köpüklərdən başqa bir şey deyildir!

Bu sözləri söylərkən Zəki ciddi bir natiq vəziyyəti almışdı. Onun hərarətlə dediyi sözlər hər ikisinə ağır təsir etdi, Əşrəf istehza ilə gülərək:

– Zəki, zurnanı çox ucadan başladın! – deyə təhqirə başladı. O ictimai şüur və tərbiyəni, şübhəsiz, səndən öyrənmək lazım gələcəkdir.

Zəki çox səbirli və iradəli bir gənc idi. O əvvəlki ciddiyyətlə cavab verdi:

– Onu məndən deyil, həyatdan, mühitdən, xalqımızın ehtiyacından öyrənməlisiniz! Fərdi həyat yaşayanların ömrü az, səadəti qısa olur.

– Qısa olsun, ancaq daşqın, coşqun olsun! Sürünməyə də həyat deyərlər?

– Yenə səhv edirsən, insana həyatı sevdirən, onu şənləndirən mübarizədir. Sənin və atan Ağamürsəl kimi sərvətdarların daşqın və coşqun yaşadığına nədən hökm edirsən? Onun çirkablı sular üzərindəki bulanıq bir köpük olduğunu tezliklə anlayacaqsınız. Bu təbiətin qanunudur. Əyyaşlığın sonu yorğunluq və səfalət, səfalətin sonu heçlik və fəlakətdir!

Əşrəf deyişmənin belə uzanıb getməsindən darıxdı. Verilən cavablar qarşısında aciz qaldığını hiss edincə:

– Biz o heçliyə də razıyıq, siz xoşbəxt yaşayın! – dedi.

– Həyat mübarizəsində qalib gəlmək ümidi ilə yaşamaq haqqımızdır.

– Oho, təbrik edirəm. Moskva səni də qudurtmuş, xalis sosialist etmişdir.

– Məni qudurdan Moskva deyil, məmləkətimi və xalqımı öz vəhşi pəncəsi altında əzməkdə olanlardır. Onları gördüyüm zaman qızmış bir aslan kimi üzərinə atılıb parçalamaq istəyirəm.

– Qızmış aslan kimi deyil, qorxaq bir pişik kimi cırmaqlamaq istəyirəm, desən daha doğru olardı.

– Yox, Əşrəf, cırmaqlamaq sənin kimi həyatda kor və qorxaqlara yaraşar, hüququnu anlayanlar cırmaqlamaz, əzər, parçalar!

Əşrəf əlini köksü üzərinə qoyaraq, istehzalı bir səslə:

– Bağışlayın, vəhşi bir pələng olduğunuzu bilmirdim! – dedi.

Zəki eyni sakitliklə:

– Nə qədər vəhşi olsam, hər halda səndən daha şüurlu və mülayim bir insanam, – dedi.

Sözün belə uzanıb getməsi Əşrəfi əsəbiləşdirirdi. Onunla bu gün görüşdüyünə heç məmnun deyildi. Zəkidən uzaqlaşmaq fikri ilə Əhmədin əlindən çəkərək:

– Qalx gedək! Bu səni də azdırar, – dedi.

– Hara?

– Onu yolda təyin edərik.

Əhməd mütərəddid bir vəziyyət aldı. Zəki cavaba imkan verməyərək:

– Bu gün gedə bilməyəcək, onunla mühüm bir işim vardır, – dedi.

– Yoxsa gizli iclasınız var? O halda mane olmayım, – deyə Əşrəf onu şübhəli baxışlarla süzərək otaqdan çıxdı.

Zəki mənalı nəzərlə Əhmədə baxdıqdan sonra dedi:

– Əxlaqsız! Gecəni kim bilir yenə hansı bataqlıqda keçirəcək. Başqa millətlərin sərvətdarları xalqı istismar etsə də, heç olmasa az-çox məmləkəti abad etmək, maarif və sənayeni yüksəltmək kimi ümumi faydalar da verirlər. Bizimkilər isə ancaq qarnını həşəratla doldurmaq, şansanetkaların kirli yubkalarını qoxulamaqdan başqa bir şey düşünməyiblər. Gözlə o səni də azdırmasın. Yoldaşlıq naminə belə adamlardan uzaq olmağını məsləhət görürəm.

* * *

Əşrəf Əhmədin otağından kefsiz çıxdı. Zəkinin iynəli sözlərini xatırladıqca nəşəsizliyi daha da artır, köksünü sıxmaqda olan sıxıntı və kədər onu narahat etməyə başlayırdı. O yalnız bu sözlərin həsəd və qəzəbdən irəli gəldiyinə hökm verməklə bir az təsəlli tapırdı. Nəşəsizliyini qaçırmaq üçün çarə axtarmağa başladı. Yanından keçən bir faytona oturub, tam iki saat Moskvanın ən gözəl küçələrini, meydançalarını dolaşdı. Avropa oteli qarşısında faytondan endi. Oteldə iki böyük otaq kirələdi. Yeməkdən sonra uzanıb axşama qədər yatdı. Oyanınca zəngi basdı. Hazır olan xidmətçiyə bir çox sifariş verdi. Xidmətçilər yemək masasını açıb, hazırlıq görməyə başladılar. Masa yeməklə və əlvan çiçəklərlə bəzəndi. Dörd-beş şansanetka və orkestr hazır oldu. Oyun və çalğı başlandı. İçki məclisi quruldu. Arası kəsilmədən yeməklər gətirildi. Məclis getdikcə şənləndi. Əşrəf gecəni səhərə qədər eyş və işrətlə keçirdi. O artıq Zəkinin sözlərini tamamilə unutmuş, dörd bir ətrafını almış şansanetkalar içərisində özünü bəxtiyar sanırdı. Deyir, gülür, əyləndirdi. Səhərə yaxın məclis bitdikdən sonra günortaya qədər yatdı. Oyandıqdan sonra qəlyanaltı edib, oteldən çıxdı. Küçəyə çıxınca hara gedəcəyini təyin edə bilmədi. Vücudunda əzici bir yorğunluq, əsəblərində acı gərginlik vardı. Bu hal ona Zəkinin: "Əyyaşlığın sonu yorğunluq və səfalət, səfalətin sonu isə heçlik və fəlakətdir" sözünü xatırlatdı. O indi bir az Zəkiyə haqq verməyə başladı, dodaqaltı: "Bu da həyatmıdır?" – deyə mırıldandı.

* * *

Ağamürsəl səfalətin uçurumlarında yuvarlanır, onun çıxılmaz, yorucu bataqlığında əl-qol atırdı. Əyyaşlıq onu əsəbiləşdirir, bədbinləşdirir, həyat və sərvət nəzərində öz əhəmiyyətini itirməyə başlayırdı. Günlər, saatlar ona uzun və yorucu görünürdü. Həyatda onu sevindirəcək bir şey yox idi. Hər şey ona qaranlıq, hər şey ona şübhəli və dumanlı görünürdü.

Bu əhvali-ruhiyyə Ağamürsəli səfalət və əyyaşlığa daha çox bağlamış olduğundan və sərvətin onun nəzərində artıq əhəmiyyəti qalmadığından gecə-gündüz qumar məclislərindən ayrılmır, vaxtını öldürmək üçün sərvətini ətək-ətək qumara qoymaqdan çəkinmirdi. Bəlkə

də bütün sərvətini puç etmək onunçun yeganə bir təsəlli idi. Oğlu Əşrəfə yazdığı məktubu da bu əhvali-ruhiyyədən irəli gəlirdi. Son zamanlar bu əhvali-ruhiyyə Ağamürsəldə bir xəstəlik şəklini almışdı. Saatlarca dalğın-dalğın düşünür, əzici və sıxıcı düşüncə və xülyalar içində üzülüb gedirdi. Ən çox ürəyindən şikayətlənirdi. Həkimlərin tapşırığına görə iki ay Kislovodskda narzan vannaları götürdü; bunların heç biri onun xəstəliyinin qarşısını ala bilmədi. O, gündən-günə sıxıldı, bədbinləşdi, lakin yenə adətindən əl çəkmədi.

Bir gün Əşrəf Bakıdan bir teleqram aldı. Bu onu çox qorxutdu, çünki Moskvada yaşadığı üç ilin içində bir dəfə də olsun teleqram almamışdı. Ata və oğul bir-biri ilə çox az məktublaşırdı. Yalnız xərcliyi bitdiyi zaman Əşrəf atasına məktub vasitəsi ilə bildirir, Ağamürsəl də ya poçt, ya bank vasitəsi ilə ona xərclik göndərirdi. Bu uzun müddətdə atasından ancaq üç məktub almışdı. Bu gün aldığı teleqram onda dərin bir həyəcan doğurdu. Teleqramı ildırım sürəti ilə açıb oxudu. Gözlərinə inanmadı. Teleqramı təkrar oxudu. bütün vücudu titrədi. Teleqram dayısından idi: "Ağamürsəl vəfat etdi, Tez gəl". Əşrəf stola dirsəklənərək, gözlərini teleqramdan ayırmayıb acı-acı düşünməyə və nə edəcəyini təyin etməyə çalışdı. Bu zaman Zəkinin sözlərini bir də xatırladı: "Əyyaşlığın sonu yorğunluq və səfalət, səfalətin sonu isə heçlik və fəlakətdir!" Dodaqaltı: "Zalım oğlu, atamın ölümünü elə bil bilirmiş!" – deyə mırıldandı. Bu matəm xəbəri onun köksünü bir məngənə kimi sıxır, qəlbini dərindən yaralayırdı. Artıq dayana bilmədi. Kədər və iztirabını azaltmaq fikri ilə dərdini bir neçə yoldaşına dedi. Onlar bu matəm xəbərini çox təbii və soyuqqanlılıqla qarşıladılar: "Başın sağ olsun, nə etmək, təbiətin qanunudur. Bir gün gələn, bir gün gedəcək" – deyə adi sözlərlə ona təsəlli verdilər. Əşrəf dostlarından onun bütün kədər və sıxıntısını qəlbindən siləcək bir təsəlli umurdu. Belə bir təsəllini kimsə ona vermədi. Oradan Əhmədin yanına gəldi. Əhməd də haman adi sözləri təkrar etdi. Əşrəf hirsindən partlayırdı. Birdən:

– Canım, indi mənim vəzifəm nədir? Siz onu mənə söyləyin! – deyə bağırdı.

– Sənin vəzifən Bakıya gedib atanın var-yoxuna sahib olmaqdır. Sonra isə nə etmək lazım gəldiyini həyat özü göstərəcək.

Əşrəfin fikri də belə idi. O özü ilə bərabər Əhmədi də aparmaq istəyirdi. Odur ki, Əhmədi təhsilini buraxıb onunla birlikdə Bakıya getmək üçün dilə tutmağa başladı:

– Nə? Təhsili buraxmaq? Bu heç olan iş deyil. Bunu eşidən mənə nə deyər? – deyə Əhməd etiraz etdi.

Əşrəf onu acı-acı süzərək:

– İnadkar axmaq, sən də bu tərsliyindən əl çəkmədin, – deyə Əhmədi təhqir etdi.

Əhməd cavabında:

– Axmaq sənsən ki, belə təklif edirsən. İki ilim qalır. Ölsəm də təhsilimi atmaram, – dedi.

Əhmədin cavab qaytarması Əşrəfə bərk toxundu, çünki dəfələrlə ona dediyi ağır sözlərə birinci dəfə idi ki, Əhməd cavab qaytarırdı. Onu istehzalı nəzərlə başdan-ayağa qədər süzərək:

– Oho! Dəyişmisən, çox dəyişmisən – dedi, – hələ diplom alandan sonra yel olub sənin yanından da keçmək olmayacaq. Axmaq, mən sona kimi qızları buraxıb gedirəm, sən dərsini atıb gedə bilmirsən?

Əşrəf bir də Əhmədə tərs-tərs baxıb otaqdan çıxdı. Bakıya tək getmək ona çox ağır görünürdü. Çox fikirləşdi, getməkdən başqa çarə tapmadı. Üç gün sonra Bakıya yola düşdü.

## DÖRDÜNCÜ FƏSİL

Bakı stansiyasına çatdığı və şəhərin mənzərəsini uzaqdan gördüyü zaman onda başqa bir hal doğdu: – "Qoca Bakı, yenə qovuşdum sənə!" – deyə pıçıldadı. Moskvadan çıxdığını teleqramla xəbər vermiş olduğundan yaxın dost-aşna onu qarşılamağa gəlmişdi. Görüşdülər, matəm münasibəti ilə ona təsəlli və başsağlığı verdilər. Sonra oradan birlikdə evə gəldilər.

Atası Ağamürsəlin həftəsi idi. Bir neçə gün təziyədarlıq və dost-aşnanı qəbulla məşğul oldu. Sonra atasının qoyub getdiyi əmlak və sərvətin hesabına oturdu. Ağamürsəl son günlər ağır borca düşdüyündən mülklərinin bir çoxunu satmışdı. Həyatının son dəqiqələrində klubda qumar oynarkən yüz min manat uduzmuş, bir buruğunu da bir mədənçinin yanında girov qoymağa məcbur olmuşdu. Klubda oyun stolu üzərində bir əli ilə qədəhi dodaqlarına götürdüyü, o biri əli ilə də kartı açmaq istərkən ürək partlamasından vəfat etmişdi. Atasının bu qədər israfçı və belə faciəli ölümü Əşrəfi çox düşündürdü. O, əvvəlcə əyyaşlıq və səfaləti ataraq işə ciddi yapışmaq və atasının puç etdiyi

sərvəti yenidən qazanmaq, buruğu girovdan çıxartmaq istədi. Ancaq Moskva həyatı bütün qüvvəti ilə onu özünə doğru çəkməyə başladı, o bütün əşya və əmlakını satıb Moskvada yaşamağa qərar verdi, çünki Bakı onu sıxırdı. Başqa sərvətdarların oğulları ilə rəqabət etmək iqtidarı qalmamışdı. Bu səbəbə görə Bakıdan tamamilə uzaqlaşmaq istəyirdi. Lakin o günlərdə Gülcahan xala ilə görüşməsi onu Moskva səfərindən daşınmağa məcbur etdi.

Əşrəf gecəni dərin üzüntü və kədər içində keçirmişdi. Onu bir tərəfdən matəm yormuş, bir tərəfdən də Moskva sonalarının ayrılığı bütün varlığını alt-üst etmişdi.

Səhər çox gec oyanmışdı. Qapı döyüldü. İçəri çarşablı bir qadın girdi. Əşrəfi görüncə bir ana kimi onu qucaqlayıb: "Bədbəxt Məryəmin balası!" – deyə ağlamağa başladı. Əşrəf onu dərhal tanıdı. Qadının belə səmimi hərəkəti qəlbinin ən incə tellərinə toxunmuş olduğundan gözləri yaşardı. Bir az sonra hər ikisi həyəcansız bir-birindən ayrıldı. Əşrəf skamyanı çəkərək:

– Gülcahan xala, buyur otur, – dedi.

Gülcahan xala oturdu. Onu diqqətli baxışlarla başdan-ayağa süzdükdən sonra: "Başın sağ olsun, oğlum, fikir eləmə. Cavansan, sənə qəmlənmək yaxşı deyil" – dedi. Ağamürsəlin vəfatından aldığı acı təsirləri azaltmaq məqsədi ilə onun Məryəmə etdiyi zülmləri bir-bir xatırladı. Sonra mənalı gülümsəyərək:

– Dünən Sona deyirdi: "Ana, yazıq Əşrəf də az zəhmət çəkmədi. Məryəm xalanı o çox istəyirdi. O, vəfat etdikdən sonra hər şeydən soyudu. Axırda başını götürüb Rusiyaya getdi". Oğlum, indi üç ildir ki, vətən üzünə, qohum-qardaş, dost-aşna üzünə həsrətsən. Necə olsa bu üç ildə sənin ürəyin vətənini, dost-aşnanı istəməyə bilməzdi; amma sən bir kərə də bu tərəfə üz çevirmədin, çünki incimişdin. Çox şükür, yenə sağ və salamat gəlib öz qohum-qardaşına qovuşdun. atanın var-yoxuna sahib oldun. Ah, nə olaydı, indi Məryəm sağ olaydı, səni belə görəydi.

Rəhmətlik başqa insan idi. Qonşuluqda bir dəfə də ondan incimədik. İki bacı kimi yaşadıq. İpək kimi xasiyyəti vardı. Rəhmətlik son nəfəsində əllərimi tutub dedi: "Gülcahan, Əşrəfi sənə, səni də allaha tapşırıram. Məndən sonra onun nazını, dərdini çəkən olmaz. Balam aralıqda bədbəxt olacaq, allah rizasına ona analıq et!" Ay dünya, zülm yerdə qalmaz, – Gülcahan yaşlı gözlərini yerə dikdi.

Əşrəfi bir daha süzdükdən sonra əlavə etdi:

– Şükür olsun bu boya, bu yaşa gətirən allaha, maşallah, böyük oğlan olmusan. Yaxşı oldu, gəldin, otur, atanın çırağını yandır. Bilirəm, sən atan kimi olmazsan, çünki başın çəkdi. Məsəldir: "Başına gələn, başmaqçı olar". Bir də sən oxumuşsan, atan kimi deyilsən. İndi maşallah, neçə ildir oxuyursan.

Gülcahan bu sözləri söylərkən Əşrəf sadəcə gülür, onun üzünə baxırdı. Həm də Sona ilə keçirdiyi şən və məsud uşaqlıq həyatını, onunla oynamasını, savaşmasını, hələ on iki yaşında ikən dəlicəsinə Sonanı sevdiyini bir-bir xəyalından keçirir, o bəxtiyar zamanları xatırlayırdı.

Gülcahan xala gedərkən:

– Oğlum, sən özgəsi deyilsən, allah bilir ki, sənə övlad gözü ilə baxıram. Sən də bir ocağın yetirməsisən. Məryəmin yadigarısan. Bizə gəl, get, sıxılma, oğlum, – dedi.

Əşrəf Gülcahan xalanın yumşaq və ətli əllərini əlləri içində hörmətlə, nəzakətlə sıxdıqdan sonra:

– Çox sağ ol, xala can. göstərdiyiniz məhəbbətə qarşı təşəkkür edirəm. Allah sizi dostluqdan əskik etməsin, – deyə onu qapıya qədər ötürdü.

Gülcahan xala ağır addımlarla pilləkəndən enərkən Əşrəfin gözəl əxlaqını, nəzakətini, tam mənası ilə ağır, tərbiyəli bir cavan olduğunu düşünürdü. Əşrəf də eyni zamanda Sonanın səkkiz il bundan əvvəl gördüyü şəklini nəzərinə gətirir, onu xəyalında dərəcə-dərəcə böyüdərək bu gün nə kimi bir şəklə girmiş olduğunu təyin etməyə çalışırdı. Moskvanın sarısaç, sarıgöz, sarıbəniz qızları ilə Sonanı qarşılaşdıraraq zehnində ölçür, biçirdi. İri qara gözlər, uzun qara kirpiklər daha canalıcı olduğuna hökm etdiyindən Sona ona daha sevimli, ürəyə yatımlı görünürdü. Uşaqlığından bəri qəlbinin dərin guşələrində donmuş olan sevgi yavaş-yavaş qımıldanmağa və get-gedə odlu qığılcımlar saçmağa başlamışdı. Ürək içində elə dərin və incə guşələr vardır ki, orada məhəbbətdən başqa heç bir şey yuva tuta bilməz! Məhəbbət orada dəqiqə içində doğar, ağac kimi rişə ataraq bir anda vücudun hər tərəfinə hakim olar. Məhəbbət yenilməz bir qəhrəmandır! Əşrəf ürəyində: "Məni burada Sonanın məhəbbətindən başqa heç bir qüvvə dayandıra bilməz – deyirdi – sevən ürək hardadır, məsud həyat ordadır! Fəqət Əşrəf aldanırdı, çünki onun qəlbindəki o saf, səmimi duyğu, pak və parlaq sevgi çoxdan sönmüşdü, indi onun yerində qara yellər əsirdi.

Əşrəf o gecə Sonanı düşünə-düşünə gözlərini yumdu. Tam üç gün onu xəyalında müxtəlif şəkillərdə canlandırdı, gözü önündə canlanan şəkillərin hamısı ona xoş görünürdü. Nəhayət, xəyalı həqiqətə tətbiq etmək fikri ilə Gülcahan xala ilə görüşməyi qərara aldı. Ona yaraşan ən gözəl paltarını geydi. Tualet önündə bir qadın qədər özünə yaraşıq verdi. Nəhayət, şlyapasını götürüb, Gülcahan xalanın qapısına gəldi. Qapının zəngini basdı. Qapıya bir uşaq gəldi. Əşrəf ondan Gülcahan xala evdədirmi?" – deyə soruşarkən, qarşı-qarşıda olan qapıdan gənc və gözəl bir baş göründü, yenə sürətlə çəkildi. Əşrəf o başı bir saniyə içərisində nəzərdən keçirdikdən sonra: "Yox, yanılmamışam, təsəvvür etdiyimdən daha gözəldir!" – deyə pıçıldadı.

Gülcahan xala Əşrəfi çox məhəbbətlə qəbul etdi. İki saat oturub danışdılar. Əşrəf bu uzun zaman içərisində yalnız bir şeydə ixtisas qazanmışdı: qadın qəlbini ovlamaq, onu özünə ram etmək. Gülcahan xala ona keçmişdən söz açaraq Məryəmlə Ağamürsəlin ailə həyatından, Sona ilə Əşrəfin uşaq ikən savaşmalarından uzun-uzadı danışdı. Əşrəf də göstəriş olmaq üzrə atası Ağamürsəlin üç böyük evi satdığından və neft mədənini üç yüz manat alıb başqa mədənçinin yanında girov qoyduğundan, babasının min bir fəlakətlə əldə etdiyi sərvəti insafsızcasına dağıtmasından söz açdı. Gülcahan xala təəssüf etdi. Əşrəf özünü toplayaraq, məğrur bir tövrlə:

– Qəm çəkmə, xala can, birinin atası şüursuz olur, birinin oğlu. Atam mənim üçün böyük ibrət oldu. Şükür olsun, əvvəlindən bu cür işlərə boyun vermədim. Bu xüsusda özümdən çox razıyam. Sağlıq olsun, hamısını qazanıb yerinə qoyaram, – dedi.

Sadədil qadın Əşrəfin sözlərindən son dərəcə sevindi.

– Oğlum, allah kamalına görə versin, – dedi.

Əşrəf çox nəzakətlə Gülcahan xalanın əllərini əlləri içində sıxıb ayrıldıqdan sonra yalnız Sonanı düşünür, qüdrətin yaratdığı gözəlliyə afərin söyləyirdi. Gülcahan xala da Əşrəfi çox bəyənmiş olduğundan dili ağzına sığmırdı. Sonaya onu tərif edərək:

– Allah saxlasın, elə bil, şəkildir, kamalına, xasiyyətinə də söz yoxdur. Atasına bənzəmir. Danışığı, xasiyyəti rəhmətlik Məryəmin özüdür, – deyirdi.

Əşrəf Moskva sövdasını başından büsbütün çıxartdı. O gündən Gülcahan xalanı tez-tez ziyarət etməyə, qadınların mübaliğədən xoşlandığını bildiyi üçün hər bir sözü mübaliğəli olaraq söyləməyə, oturuşunda, duruşunda başqalıq göstərməyə çalışır və müvəffəq olurdu.

Sadədil qadına Əşrəfin hər halı, hər hərəkəti xoş görünürdü. O, Əşrəfə tamamilə məftun olmuşdu. Odur ki, dayısı arvadı Zəhra xanım yarım rəsmi olaraq Əşrəf tərəfindən Sonaya elçi gəldiyi zaman Gülcahan xala onu son dərəcə hörmətlə qəbul etmiş, cavab olaraq: "Sona əvvəlindən Əşrəfindir. Rəhmətlik Məryəm xanımın vəsiyyətidir. Mənim heç sözüm yoxdur. Axşam Hacı ilə görüşüb sizə cavab verərəm" demişdi. Hətta Zəhra xanım gedərkən arxadan: "Əşrəfə söylə ki, qorxmasın, mən onun tərəfindəyəm" – deyə səslənmişdi. Zəhra xanım qayıdaraq əhvalatı olduğu kimi Əşrəfə danışmışdı.

Əşrəf Sonanı alacağı xəyalı ilə artıq yerə-göyə sığmırdı. Xüsusən iki gün sonra Gülcahan xalanın: "Hacının da sözü yoxdur, qudalarıma, kürəkənimə de ki, hazırlıq görsünlər" deyə göndərdiyi cavab onu xoşbəxt bir uşaq kimi sevindirmişdi.

Sona da eyni hallar keçirirdi. O gün qapı ağzında Əşrəfi görmüş, son dərəcə bəyənmişdi. Anası Gülcahan xalanın odlu bir dillə olan tərifi qızın ona qarşı olan məhəbbətini bir qat daha artırmış, uşaqkən ona qarşı bəslədiyi yoldaşlıq hissi başqa bir şəkildə canlanaraq, onu rahatsız etməyə başlamışdı. Sonanın məhəbbəti daha səmimi, daha kəskin idi. Həyatında birinci dəfə olaraq sevməyə başladığı Əşrəfə qəlbinin sönməz hərarətini, ruhunun ən incə, ən parlaq şəfəqlərini bəxş etmişdi. Onun dağ çeşməsi qədər saf qəlbini heç bir kirli əl qaraltmamışdı. Uşaq ürəkli, pəri xilqətli, sevimli, gözəl bir qız idi. Əşrəfi qəlbi kimi sevəcək, özünü ona sevdirəcək və bəxtiyar yaşaya biləcəklərinə əmin idi.

Hər iki gəncin bir-birinə qovuşmaq arzusu onları əzməkdə davam edirdi. Nəhayət, bir gün təntənəli bir toy bu iki həsrətlini bir-birinə qovuşdurdu.

## BEŞİNCİ FƏSİL

Əhməd dörd il Moskvada çalışdı, çapaladı, hər çətinlik və zəhmətə qatlanaraq, geoloji fakültəni bitirdi. O, artıq Moskvanın küçələrinə sığmırdı. Nə demək, bu onun üçün az şey deyildi. Bilik səhnəsindən həyat cəbhəsinə atılmış, maddi və mənəvi ehtiyacını təmin edəcək ixtisas sahibi olmuşdu. O gün Moskvanın ən gözəl gəzinti yerlərini saatlarla dolaşdı. Ən böyük küçələrdəki iri mağazaların sərgisini dərin bir nəşə və maraq içində nəzərdən keçirdi. Ancaq onun gənc köksünü və daşqın qəlbini axın-axın doldurmaqda olan sevinclərində iştirak

edəcək bir kimsə tapmadı. Artıq o gözəl bağçalar, gəzintilər, o geniş küçələr onu sıxmağa başladı. O hamıdan artıq Məhərrəm əmini xatırladı. Əllərini köksü üzərində çarpazlayaraq:

– Ah, o indi yanımda olmalı idi! – dedi, – Həm diplomumu göstərərək sevincimi onunla bölüşər, həm də gələcəkdə görəcəyim işlər haqqında ona geniş məlumat verərdim.

İki-üç gün də Moskvada qalmağa qərar vermiş olduğu halda birinci gündən sıxılmağa başladı, çünki o, dörd ildi ki, Bakıdan uzaqlaşmış və bu uzun müddətdə ancaq iki dəfə yay tətili zamanlarında Bakını görmək ona nəsib olmuşdu. Bu uzun müddət içində Bakıda nə kimi dəyişiklik olduğunu görmək, bilmək istəyirdi. Səbir edə bilmədi, o axşam Bakıya hərəkət etdi. O yenə nəşəsini toplamışdı. Onu yalnız məsafənin uzun olması sıxır və buna görə çox darılırdı. Bakıya yaxınlaşdıqca həyəcan və iztirabı da o nisbətdə artır, bir quş kimi qanadlanaraq uçmaq istəyirdi. Qatar Biləcəri stansiyasından Bakıya hərəkət etdiyi zaman parovozun verdiyi fit, çarxların taqqıltısı onun qulaqlarında ən ahəngdar bir musiqi kimi səslənirdi. O, pəncərə önündə mıxlanmış kimi durub, gözlərini uzaqdan görünən şəhərin ümumi görünüşünə dikərək qəmgin-qəmgin düşünür, köhnə məktəb həyatı, uşaqlıq və tələbəlik illəri, çəkdiyi bütün fəlakətlər bir-bir zehnindən keçirdi. Ancaq bu dəfə o qəmli lövhələr onun böyük ümidlərlə çırpan gənc qəlbində acı təsirlər buraxmırdı. Çünki, fəlakət və məşəqqətlərlə əldə etdiyi ixtisas sayəsində o, fəlakətlərə birdəfəlik vida etmiş olduğuna əmin idi.

Qatar stansiyaya yaxınlaşdığından sürətini azaldaraq ucadan fit verdikdə Əhmədin qəlbi daha şiddətlə döyündü, tanıdığı bir çox adamlardan birisinə təsadüf edəcəyi ümidi ilə gözlərini stansiyada qaynaşmaqda olan adamlara dikdi. Qatar dayandı. O, qarışqalar kimi qaynaşmaqda olan yüzlərcə adamları bir-bir gözdən keçirdi, ancaq onun sevincində iştirak edəcək bir nəfər tanış belə çıxmadı. O çox axtardı, çox baxdı, ümidi qırıldığından həzin bir tövrlə pəncərə önündən çəkilərək, şeylərini götürüb vaqondan çıxdı.

Əhməd indi çox nəşəsiz idi. Hər gün vücudunu rahat-rahat daşıyan ayaqları bu gün zorla, güclə sürünürdü. Köksünü əzməkdə olan acı düşüncələr bütün ümid və sevinc çiçəklərini yolmuş, onu dərmansız bir halda buraxmışdı. O, addımlarını tərəddüdlə ataraq düşünür, hara gedəcəyini, iş tapıncaya qədər kimin evində qalacağını təyin edə bilmirdi. Ən çox güvəndiyi Məhərrəm əmi də arvadı və qızlığı Nəzakət-

lə kiçik iki balaca otağa sığınmış olduğundan bu xüsusda ona yardım edə bilməyəcəkdi. Bir də ki, Nəzakət... O, indi böyük bir qız idi. Ora düşmək heç cəhətdən münasib deyildi. Bu müdhiş vəziyyəti mühakimə edərkən içində: "Həyat yoxsullar üçün hər zaman və hər yerdə müdhişdir" – deyə ah çəkdi. Ancaq yenə də Əşrəfə qonaq olmağı əlverişli gördü. Əşrəf onu necə qarşılayacaqdı? Bu haqda çox düşündü. Xatırladı ki, Əşrəf dəfələrlə təhsilini ataraq onun kontorunda yaxşı maaşla hesabdar sifəti ilə çalışmağı təklif etmişdi. Hətta son zamanlar Moskva təhsili boşa çıxdığı zaman onunla bərabər Bakıya dönməyi xahiş edərkən rədd cavabı alınca:"Bilmirəm, bu nə ölümdür, bir qarnı ac, bir qarnı tox oxuyub nə olacaqsan? Əgər sən bu fakultəni bitirsən bu bığlarımı qırxdıraram" demişdi. Son hadisələri, Əşrəfin ona bəslədiyi münasibəti bir də nəzərdən keçirdikdə yoxsul mühəndisin qürur və mənlik hissi coşdu. "Yox, mən ona qonaq ola bilməyəcəyəm!" – dedi. – Onlar fəzilət və şərəfi pulda görür, yoxsul Əflatun da olsa, onların nəzərində heçdir!"

Əllərində şeyləri, zehnində acı düşüncələr dalğın-dalğın yeriyir, istiqamətini heç cür təyin edə bilmirdi. Artıq konka stansiyasına yaxınlaşmışdı. O minməyə tələsərkən, ağır bir qol çiynindən yapışdı. Qarşısında universitet yoldaşı Zəkini görüncə şeylərini yerə atdı. Hər ikisi səmimi və dost kimi görüşdülər. Zəki ona yardım edərək, bərabər konkaya mindilər. Yolda bir-birinin halından xəbər tutmağa, tələbəlik həyatından bir çox xatirələr nağıl etməyə başladılar. Hər ikisi bu təsadüfi görüşdən çox şad olmuşdu. Zəki qoltuq dəftərçəsini çıxarıb:

– Sənin lə oturub uzun-uzadı danışmaq istəyirəm, harada qalacaqsan? Ünvanını söylə, – dedi.

Əhməd acı-acı gülümsəyərək:

– Hələlik heç bir yerdə, – deyə cavab verdi.

– Hər halda sən bir evə gedirsən?

– Gedəcəyim evi hələ təyin etməmişəm.

Zəki dərhal Əhmədin Bakıda tamamilə kimsəsiz olduğunu xatırladı. Onun sığınacaq bir yeri olmadığını duyunca, şeylərindən birini götürüb, o biri əli ilə də Əhmədin qolundan çəkərək:

– Gəl, gəl, gedək! – dedi.

Əhməd heyrətlə:

– Haraya?

– Ən yaxın bir yoldaşının evinə.

Əhməd artıq heç bir söz deyə bilmədi. Hər ikisi konkadan düşdü.

* * *

Zəki Əhmədlə universitetdə tanış olmuşdu. Hələ təhsil illərində Zəki Moskva universitetindəki sosial-demokrat partiyasına mənsub tələbələrlə yaxınlıq edir, onların təşkil etdiyi gizli təşkilatda çalışırdı. Əhmədi də elə o zaman təşkilata cəlb etməyə müvəffəq olmuşdu. Bir dəfə universitetdə düzəldilmiş gizli yığıncaqda iştirak etdiyi, çar üsuli-idarəsinə qarşı çıxışda olduğu üçün Zəki bir neçə universitet yoldaşı ilə birlikdə qovulmuş, ali məktəblərdə oxumaq hüququndan həmişəlik məhrum edilmişdi. Bu hadisədən sonra Əhməd təşkilatdan tamam uzaqlaşmışdı.

Universitetdən çıxarılmaq Zəkiyə çox ağır təsir etmişdi. O birinci dəfə olaraq, həyatın ağır zərbəsini dadmış, dərin həyəcan və iztirabın acısını vücudunun bütün üzvlərində hiss etmişdi. Odur ki, həmin günü qəm-qüssə içində başa vurdu. Gecəni bir təhər yatdı. Səhər dan yeri ağarar-ağarmaz yataqdan qalxdı. İstər-istəməz şəhərə baxan pəncərənin qarşısına keçdi. Nəzərinə ilk dəfə onu illərlə öz qoynunda bəsləyib kamala çatdıran universitetin sarı rəngə boyanmış binası sataşdı. Bu, yüzlərlə alimlər yetişdirmiş qoca Moskva Universiteti idi. İndi isə onu heç nəyin üstündə, əslində haqq iş gördüyü üçün bu müqəddəs yerdən qovmuşdular. Bu düşüncələr içində Zəki pəncərənin taxtasına söykəndi: "Ey minlərlə gənci öz qucağında bəsləyən bilik ocağı, sənin başında azadlıq bayrağının dalğalandığı günü görsəydim!" – deyə pıçıldadı.

Lakin bu arzunu andıran fikirlər bir anda ümidə çevrildi. Moskva və Peterburqda sosial-demokrat partiyasının apardığı böyük tarixi işlər onun gözləri qarşısında canlandı. Hələ onların universitetdəki bu balaca təşkilatına mənsub olan onlarla, hətta yüzlərlə student və onların öz dallarınca apardıqları onlarca fədakar, mübariz insanlar az qüvvədirmi? Bütün bunları, təşkilat xətti ilə görülən işləri xatırlayınca Zəkinin gözləri ümid qığılcımı ilə parladı, o, məğrur bir görkəm alıb sağ yumruğunu yuxarı qalxızdı, əlini havada oynadaraq:

– Yox, Rusiya xalqlarının azad olacaqları gün çox yaxındır. Beşinci ildən sonra ayağa qalxmış milyonlarla fədakar, mübariz insanlar bu azadlığı əldə edəcəklər, – deyə ucadan səsləndi.

Zəkini elə bil öz səsi ayıltdı. O, yuxudan ayılmış kimi, öz hərəkətlərini, sözlərini, qışqırmasını xatırladı. Bir qədər öz-özündən utandı,

başını buladı. Bu ani əhvali-ruhiyyə dərhal keçdi, geyinib universitetdən qovulmuş yoldaşları ilə görüşmək məqsədi ilə evdən çıxdı. Pilləkənləri düşürdü ki, tələbə yoldaşı Saşaya rast gəldi. Saşa da universitetdən qovulan inqilabçı tələbələr dəstəsinə aid idi. Zəki onu görcək çox sevindi:

– Sən hara, bura hara, yoxsa bizə gəlirsən?

– Yaxşı tapmısan, elə sənin yanına gəlirdim.

Zəki Saşa ilə bərabər evə qayıtdı. Bu, qoca, sonsuz bir fəhlənin evi idi. Nikolay Fyodoroviç arvadı öləndən sonra çarpayılardan birini gəlmə tələbələrə verirdi. Çox məzəli, iti ağıllı bir qoca idi. Gördüyü mənfilikləri tənqid etməkdən çəkinməzdi. Çar üsuli-idarəsi əleyhinə lətifələr söyləməyi çox sevərdi. Evində yaşayan tələbələrdən isə pul almazdı. Əksinə, onlar çətinə düşəndə yeməyə qonaq edər, hətta qabaqlarına hərdənbir yüz qram da qoyardı. Zəkini də ora universiteti bitirib gedən tələbələrdən biri gətirmiş, Nikolay Fyodoroviç elə ilk dəfədən onu bəyənmiş və onunla qalmağına razılıq vermişdi.

Saşa içəri girər-girməz Nikolay Fyodoroviçin divardakı öz arvadı ilə çəkdirdiyi gənclik şəklinə baxdı, sonra bu iki gəncin uzun illər ömür sürdüyü yoxsul daxmasına nəzər saldı, dərindən bir ah çəkib, Zəkinin çarpayısı üstündə oturdu. Bir qədər oturandan sonra Zəkinin sual andıran gözlərinə diqqətlə baxıb:

– Fikrin nədir? Nə etmək fikrindəsən? – deyə bir-birinin ardınca iki sual verdi.

Məsələ aydın idi. Saşa nə isə qərara alıb gəlmişdi. Suallara daha aydın cavab almaq üçün o bu sözləri də əlavə etdi:

– Moskvada artıq biz yaşaya bilmərik. Adımız siyahıya düşüb, hər addımımızı güdəcəklər.

Zəkiyə bu sualların cavabı aydın idi. O öz gələcək işləri haqqında fikirləşmiş, Bakıya qayıtmağı qərara almışdı. Odur ki, çətinlik çəkmədən cavab verdi:

– Fikrim Bakıya qayıtmaqdır. Bu tarixi şəhər də inqilabçılar vətənidir. Mən bu şəhərlə iftixar edirəm. Orada namuslu adamlar çoxdur.

Saşa gülümsündü:

– Doğru deyirsən. Bakı Rusiyanın ən irəlidə gedən şəhərlərindən biridir. Bakı fəhlələrinin göstərdiyi qəhrəmanlıqlar kimə məlum deyil?! Ancaq məsələ burasındadır ki, sən bu Bakı söhbətini lap yerində

saldın. Xeyli fikirləşəndən sonra mən də bu qərara gəlmişdim ki, Bakıya gedim.

Zəkinin sevincindən gözləri parladı, yerindən qalxıb, Saşanın boynunu qucaqladı, onun bu fikrini alqışladı. Saşa sözünə davam edərək:

– Xalam da orada yaşayır, həm onunla görüşər, yanında qalaram, həm də Bakı kimi böyük bir şəhərdə işləməyə, həm də özümüz bildiyimiz kimi işləməyə nail olaram. Axı orada sosial-demokrat partiyası çox qüvvətlidir.

İki dost gələcək planları haqqında xeyli danışdılar, məsləhətləşdilər, elə sabahı Moskvadan çıxmalarını qərara aldılar.

Saşa ilə Zəkini ötürməyə ancaq Nikolay Fyodoroviç gəlmişdi. İzi itirmək üçün Saşa öz tələbə yoldaşlarının bu ötürmə mərasimində iştirak etmələrinə razılıq verməmişdi. Qatar hərəkət edəndə Nikolay Fyodoroviç hər iki gənci qızğın məhəbbətlə qucaqlayıb öpdü, hər ikisinə xeyir-dua verdi.

Qoca fəhlə yaylığını çıxardıb gözlərini siləndə artıq qatar platformadan xeyli uzaqlaşmışdı.

Dörd günlük yol da gənc inqilabçılar üçün səmərəsiz olmadı. Onlar həm özləri bir-birləri ilə müxtəlif mövzularda söhbət etdilər, həm də bir çox qəribə insanlarla, müxtəlif görüşlü adamlarla tanış ola bildilər. Onları ən çox məşğul edən lap yanlarındaca oturan qoca bir rus kəndlisi idi. O, söhbətə şirin lətifələrlə başlamışdı. Çox duzlu, kinayə ilə dolu olan bu lətifələr içərisində ayrı-ayrı çar nazirlərinə, xüsusən mülkədarlara aid olanları da vardı. Qocanın lətifələrində olduğu kimi, söhbətlərində də mövcud quruluşa qarşı bir qəzəb hiss olunurdu. Öz yanında həssas gənclər oturduğundan qoca deyirdi:

– Ey oğul, bizim dərdimiz elə dərddir ki, deməklə başa gəlməz. Kəndlinin vəziyyəti çox ağırdır. Gəlirimiz ilin dörddən birinə çatmır. Çoxumuz şəhərlərə qaçırıq. Bu da bir nicat vermir. Dvoryanlar, onların əlaltıları isə lap qanımızı sorurlar. Vergilər, cərimələr, cəzalar daha bizdə can qoymayıbdır.

Zəki qocanın dediklərini təsdiq etdi:

– Bizim Qafqazda da vəziyyət belədir.

Qocanın söhbətləri açıq, qəzəbli bir şəkildə olduğu üçün Zəki onun müəyyən bir siyasi təşkilata mənsub olduğunu düşündü. Odur ki, daxilindəki marağı söndürmək məqsədi ilə soruşdu:

– Baba can, siz müəyyən bir firqəyə mənsubsunuzmu?

Qoca gülümsəyərək. başı ilə yox işarəsi verdi.

– Məsləksizlik, ən ziyanlı məsləkdir! – deyə Zəki o qədər də yeri olmayan bir fikir ortaya atdı.

Qocanın razı qalmadığını görən Saşa söhbətə qarışdı:

– Zəki, sənlə tamamilə razılaşmaq olmaz. Bitərəflər içərisində elə namuslu, qeyrətli adamlar var ki, onlarsız heç bir zaman mübarizəni axıra qədər davam etdirmək mümkün olmaz. Belələri, əlbət ki, möhkəm məslək adamlarıdır.

Zəki nəyi isə xatırlayıb, Saşanın sözlərini təsdiq etdi:

– Doğru deyirsən, Saşa, Bakıda azərbaycanlı bir qoca var. Məhərrəm əmi. Özü bitərəfdir, ancaq qabaqcıl ziyalılara, inqilabçılara hər işdə kömək edir. Çox qəribə iradəli, mübariz bir adamdır.

Ertəsi gün qoca Qafqazski stansiyasında gənclərlə görüşüb, vaqondan düşdü. Qatar hərəkət etdikdə Zəki ucsuz-bucaqsız zəmiləri seyr edən Saşaya yanaşıb, əlini onun çiyninə qoydu.

– Bilirəm nəyi düşünürsən. Bu geniş düzlərlə indicə qatardan düşən o yoxsul qocanın vəziyyəti arasındakı ziddiyyət! Budur səni düşündürən...

Qatar Şimali Qafqaza, sonra Azərbaycana daxil olanda təbiət xeyli dəyişdi. Buralar Saşanın görmədiyi yerlər idi. Xüsusən meyvə bağları, qarlı dağlar, sıldırımlar ona çox xoş təsir bağışlayırdı. Nəhayət, Bakının ətrafındakı quru, göyərtisiz səhralar qatarın pəncərələrindən görünməyə başladı. Zəkinin ürəyi daha sürətlə döyündü. Bu yerlər nədənsə Zəkiyə daha doğma göründü. Görünür Bakıya yaxınlaşdığı üçün o belə hisslər keçirirdi.

Qatar Bakı stansiyasında dayananda artıq axşamüstü idi. Zəki Saşanı birbaş öz otağına apardı. Onun mənzili bir otaq və bir şüşəbənddən ibarət idi. Gedərkən evi xalası oğlu Musaya tapşırmışdı. Musa onları sevinclə qarşıladı, dərhal çay verdi, olandan yemək hazırladı.

Səhər qəlyanaltı etdikdən sonra Saşanın xalasıgilə getdilər. Qapını orta yaşlı bir qadın açdı.

– Kimi istəyirsiniz?

– Manya Stepanovnanı.

– Mən özüməm, sözünüz nədir?

– Kolyakovkadan gəlmişəm.

Manya Kolyakovka sözünü eşitcək onların hər ikisini evə dəvət etdi. Oturdular.

– Xoş gəlmisiniz, yəqin bacım Qalinadan xəbər gətiribsiniz!

– Elədir, Qalina Stepanovna sağ-salamatdır. Ancaq biz Moskvadan gəlirik.

Manyanın üzündəki sevinc bir anda uçdu, həzin bir səslə dedi:

– Bacımdan çox nigaranam. Neçə aydır məktub almıram.

Zəki:

– Saşa, xalanı nigaran qoyma, bəsdir zarafat etdin – deyə gülümsünərək, Saşanın düzəltdiyi tamaşanı başa çatdırmağa tələsdi. Manya Saşa adını eşidincə yerindən sıçradı, "Saşa, Saşa" – deyə öz bacısı oğlunun boynuna sarıldı. Sonra məhəbbətlə parlayan gözləri ilə Saşanı diqqətlə süzərək:

– Bacımın əziz balası, mən Kolyakovkadan çıxanda sən lap kiçik idin. Nə əcəb gəldin? – dedi.

Saşa şəfqətlə xalasına baxdı, heç bir söz deməsə də xalasını görməkdən çox məmnun olduğunu bildirən bir vəziyyət aldı. Sonra:

– Bu mənim universitet yoldaşımdır, tanış ol, – deyə Zəkini xalasına təqdim etdi.

Manya Zəki ilə görüşdü. Qəlyanaltı hazırlamaq istədikdə gənclər mane olub, təzəcə yediklərini bildirdilər. Saşa günorta gələcəyini bildirib, Zəki ilə bərabər evdən çıxdı.

* * *

Ertəsi gün Zəki Saşanı xalasıgilə köçürtdükdən sonra Məhərrəm əmini görməyə getdi. Qoca mülayim təbiətli arvadı Firuzə ilə birlikdə onu çox məhəbbətlə qarşıladı. Nəzakətlə görüşərkən:

– Firuzə xala, qızınız maşallah böyüyübdür, – dedi.

Firuzə Zəkinin sözlərindən məmnun qaldığını gülümsəyən gözləri ilə bildirdi. Məhərrəm əmi Zəkinin diqqətini özünə cəlb etmək üçün söhbəti sualla başladı:

– Əhməd necədir, dərsləri yaxşı gedirmi?

– Özü yaxşıdır, dərsləri də pis getmir. Çalışqan oğlandır. Sizin məhəbbətiniz ona bir az da artıq qüvvət verir.

Məhərrəm əmi elə indicə Zəkinin Moskvadan nə üçün qayıtması məsələsini xatırlatdı. Dərhal soruşdu:

– Bəs sən niyə dərslərin şirin vaxtında qayıtmısan?

Zəki bu suala birdən cavab verə bilmədi. Sonra qısaca olaraq əhvalatı Məhərrəm əmiyə danışdı. Zəkinin fəaliyyəti qoca vətənpərvəri

nə qədər sevindirdisə, universitetdən qovulması bir o qədər mütəəssir etdi. O, təsəlli üçün ancaq bu sözləri deyə bildi:

– Oğlum, heç fikir etmə, ən böyük məktəb həyatdır. Su axar, yolunu tapar. Bəs indi nə iş görürsən?

– İki gündür gəlmişəm. Hələ heç yerdə işləmirəm.

Məhərrəm əmi Zəki ilə xeyli söhbət etdi. Zəki ona Moskva həyatından, oradakı inqilabi coşqunluqdan danışdı. Məhərrəm əmi isə Bakıda gördüyü hadisələri, eşitdiyi əhvalatları nağıl etdi.

Qocanın söhbəti o qədər şirin, o qədər səmimi idi ki, Zəki çox gec ayağa qalxa bildi. Vidalaşarkən, ər-arvad ona bir də təsəlli verdilər, tez-tez gəlib-getməsini tapşırdılar.

Zəki Məhərrəm əmini tez-tez görməyə gəlirdi. Onu hansı bir hiss isə bura gəlib-getməyə məcbur edirdi. O, bu kiçik ailədə elə bil dincəlirdi, elə bil bütün dərdləri yüngülləşir, asudə nəfəs alırdı. Məhərrəm əminin qızlığı Nəzakətin də söhbətləri onu axır zamanlar cəlb etməyə başlayırdı. Odur ki, o, yeri düşəndə Nəzakətlə də uzun-uzadı danışır, ona maraqlı kitablar oxumağı tövsiyə edir, dərslərindən soruşurdu.

Bir dəfə yenə Nəzakətlə dərslərindən danışanda Məhərrəm əmi söhbətə qarışdı. Nəzakətin Azərbaycan dilini pis bilməsindən, ana dili müəllimlərinin zəifliyindən, məktəblərdəki pis şəraitdən şikayətləndi. Sonra Zəkiyə müraciət edərək soruşdu:

– Sən necə, ana dilini yaxşı bilirsən? Yoxsa bizim bəzi ziyalılarımız kimi sən də öz dilində heç oxumursan?

Zəki hiss etdi ki, Məhərrəm əmi bir qədər əsəbiləşdiyi üçün onunla belə sərt danışır. Odur ki, çox ehmalca cavab verdi:

– Məhərrəm əmi, Bakıya gələndən sonra oxuduğum kitab və qəzetlərin çoxu ana dilindədir. Mən elə əvvəlindən ana dili ilə pis məşğul olmamışam. "Molla Nəsrəddin"in bir nömrəsini də ötürmürəm. Doğrudur, qəzetlərimizin dili çox ağırdır, təmiz Azərbaycan dilində yazan mühərrirlərimiz çox azdır. Amma çarə nədir, oxumaq lazımdır.

– Oxumaq, dili yaxşı öyrənmək lazımdır. Qırx il vətəndən xaricdə olmağıma baxmayaraq, dilimi unutmadım. Ana dilini hər vətəndaş yaxşı bilməlidir. Qeyrətli müəllimlərimizin çox çalışmasına baxmayaraq. Məktəblərimiz yenə savadlı tələbələr buraxmır. Budur, Nəzakətdən bu barədə çox narazıyam. Belə getsə, ana dilini yaxşı bilməyəcək.

Bu sözləri dedikdən sonra o, bir qədər fikrə getdi. Sonra yeni bir şey kəşf etmiş nəzərlə Zəkiyə baxaraq:

– Bəlkə Nəzakətlə sən özün məşğul olasan? Həftədə bir-iki dəfə ona ana dilindən dərs desən, o çox sürətlə irəli gedər, – dedi.

Zəki Məhərrəm əminin təklifini məmnuniyyətlə qəbul etdi.

Məhərrəm əmi elə bil Zəkinin lap ürəyindən xəbər vermişdi. O hər həftə bir-iki dəfə gəlir, bir qədər qocalarla söhbət edir, vaxtının çoxunu isə Nəzakətlə keçirirdi. Nəzakət ona gündən-günə xoş gəlirdi. O həm bir qadın kimi cazibəli, həm də gözüaçıq, mədəni bir qız idi. Yavaş-yavaş Zəkinin səyi ilə azərbaycancanı da yaxşı öyrənir, gündə üç-dörd səhifə yazı yazır, qəzet və jurnallardakı siyasi və bədii materialları maraqla oxuyurdu. "Molla Nəsrəddin" jurnalı onu daha çox cəlb edirdi. Zəki hiss edirdi ki, Nəzakət də ona adi münasibət bəsləmir, onu görəndə utanır, qızarır, tapşırıqlarını səylə yerinə yetirir. Hələ bir dəfə başını qaldırıb Zəkinin gözlərinin içinə baxmamışdır.

Bu gəl-get bir ilə yaxın davam etdi. Artıq elə bir vəziyyət yaranmışdı ki, gənclər bir-birini görməyəndə darıxır, sıxılır, əsəbi hallar keçirirdilər. Qocalar da bu iki cavan arasındakı münasibətlərin nə isə başqa şəkil aldığını görür, işin belə nəticələnməsindən bir növ narahat olurdular. Axı onlar, onsuz da mövcud qanun-qaydaları pozmuş, naməhrəm bir oğlanı qızına müəllim tutmuş, qohum-qardaşın narazılığına səbəb olmuşdur. Müəllim-tələbəliyin belə şəkil alması isə daha böyük dedi-qoduya, söz-söhbətə səbəb ola bilərdi. Məhərrəm əmi, doğrudur, belə şeylərə çox elə əhəmiyyət verən adam deyildi, ancaq arvadı Firuzə hərdən Məhərrəmə deyirdi:

– A kişi, bu cavanlar bizi axırda rüsvay etməsələr yaxşıdır. Zəki ağıllı uşaqdır, amma yenə ehtiyatı əldən qoymaq olmaz. Bəlkə elə deyək ki, dərs deməyə daha gəlməsin.

Məhərrəm əmi etiraz edirdi:

– Yox, ay arvad, qorxub eləmə, heç zad olmaz. Bir də qızını Zəkidən yaxşı oğlana verməyəcəksən ki.

Oxucum yəqin ki, bu hadisənin necə qurtaracağını indidən duyur. Qabaqda deyiləcək sözlərimiz də çox olduğu üçün bu məsələni uzatmaq mənim də xeyrimə deyil.

Nə isə, bir gün növbəti görüşlərindən birində Zəki dərsi başlaya bilmədi. Daha doğrusu başlamadı. O bu gün Nəzakətə məhəbbətini açmalı, onun fikrini bilməli idi. Zəki bilirdi ki, Məhərrəm əmi yeganə qızını, onun istədiyi adama verəcəkdir. Odur ki, birinci növbədə Nəzakətin özü ilə danışmaq qərarına gəlmişdi. Elə bil Nəzakət də

Zəkinin bu günkü məqsədini duymuşdu. O, dəftər, qələmini qırağa qoymuş, başını köksü üstünə buraxıb, nə isə düşünürdü. Zəki əlindəki qələmi oynada-oynada sözə başladı. Ancaq qırıq-qırıq dedikləri sözlər günlərlə əzbərlədiklərinə heç bənzəmirdi:

– Nəzakət, mən bu gün sənin lə bizim hər ikimizə aid olan bir məsələ haqqında danışmaq istəyirəm. Sən daha böyümüsən... Məhərrəm əmi, Firuzə xala da qocalıblar. Məncə...

Nəzakət bu sözlərdən sonra Zəkinin nə deyəcəyini çox yaxşı hiss edirdi. Odur ki, özünü çox pis hiss etdi, utandığından nə edəcəyini bilmədi. Birdən ayağa qalxıb sürətlə otaqdan çıxdı. Lakin o, qapıdan çıxarkən Zəkinin onun arxasınca dediyi son sözləri eşitmişdi:

– Məncə biz hər ikimiz xoşbəxt ola bilərik. Bu sənin əlindədir.

Bu sözlər Nəzakətin ürəyindən xəbər verirdi.

Bu hadisədən sonra Zəki bir həftə Məhərrəm əmigilə gəlmədi. Qocalar lap nigaran qalmışdılar. Nəzakət isə məsələnin nə yerdə olduğunu yaxşı bilirdi. Zəkinin bir də qayıtmayacağını düşünüb, bir gecə əhvalatı anasına açdı, üstəlik bir təhərlə öz razılığını da bildirdi.

Qızının belə bir adamı sevməsi Məhərrəm əmini çox sevindirmişdi. Odur ki, elə sabahkı adam göndərib, Zəkini yanına çağırtdırdı. Bu dəfə Zəki əvvəlkindən fərqli olaraq, içəri tərəddüdlə, qızara-qızara girdi.

Məhərrəm əmi bunu hiss edib, Zəkini bu vəziyyətdən çıxarmaq üçün:

– Gəl otur, Firuzə xalangil də evdə yoxdur. Gediblər tədarük görməyə. Sən də ki, bu gündən mənim oğlumsan, – dedi.

Zəki stolun qırağına necə gəlib oturduğunu da bilməmişdi. Çox çətin görünən bu işin belə asan düzəlməsi onu təəccübləndirir, həm də sevindirirdi. O indi Nəzakətin üzünə bir də baxmaq, onun simasındakı razılıq işarələrini, gözlərindəki təbəssümü görmək istəyirdi. O özünü ən xoşbəxt bir adam sayırdı.

Bu gün Zəki Məhərrəm əmi ilə, demək olar ki, heç nə danışa bilmədi. Hər ikisi nə qədər çalışdılarsa da baş tutmadı. Məhərrəm əmi dalğın, Zəki isə çox həyəcanlı idi. Zəki ayağa durub, bu gün daha nurani sifət almış Məhərrəm əmi ilə görüşəndə o:

– Daha çəkinib eləmə, sabah gözləyəcəyəm, gəl! – dedi.

Elçilərə verilən "hə" cavabı ilə toyun arası uzun çəkmədi. Zəkinin balaca evində keçirilən kasıbyana toy iki gənci bir-birinə qovuşdurdu.

* * *

Zəki konka duracağında Əhmədə rast gələndə Nəzakətlə təzəcə evləndiyi günlər idi.

Zəki Əhmədi birbaş evinə apardı. Qapını Nəzakət açdı. Əhməd gözlərinə inanmadı. Bir anda vücudu titrədi, gözləri qaraldı. Bir də gülümsünən Zəkinin simasına baxınca məsələnin nə yerdə olduğunu anladı. Tez özünü toplayaraq, Nəzakətlə görüşdü, Zəkini təbrik etdi. Sonra səliqə ilə döşənmiş şüşəbənddən keçib balaca otağa daxil oldu. Stolun baş tərəfində qoyulmuş stulda oturdu.

Zəki Nəzakətə nə isə tapşırıb, dostunun dalınca otağa gəldi. Nəzakət şüşəbənddə qəlyanaltı hazırlamağa məşğul oldu.

İki dost üz-üzə oturanda Zəki ilk əvvəl sosial-demokrat tələbə təşkilatı haqqında soruşdu. Əhməd son zamanlar təşkilatın ağır hal keçirdiyini, hər addımda xəfiyyələr tərəfindən təqib edildiyini söylədi. Zəki çox mütəəssir oldu. Yumruğunu şiddətlə masaya çırparaq:

– Ah yırtıcı ayı, nə qədər əlində fürsət var, hökmranlığını et, inan ki, bir gün haqqın yumruğu altında əziləcəksən! – deyə bağırdı.

Əhməd gülümsəyərək:

– Yavaş, yavaş, stolu qırarsan, – dedi.

Zəki daha kəskin bir səslə:

– Masanı deyil, yumruğumla bu istismar dünyasının taxt-tacını alt-üst edəcəyəm! – dedi.

Əhməd bilirdi ki, bu mövzuda Zəki ilə söhbəti davam etdirsə, o, səhərəcən danışacaq. Özü isə belə söhbətlərlə bir o qədər də maraqlanmırdı. Odur ki, söhbəti dəyişmək məqsədi ilə:

– Harada işləyirsən? – deyə soruşdu.

Bu suala açıq cavab vermək çox çətin idi: çünki Zəki Bakıya gələndən sonra jandarm idarəsində çalışan partiya üzvlərinin köməyi ilə orada qulluğa düzəlmişdi. O, neftayırma zavodlarından birində mexanik vəzifəsini tutur, əslində isə jandarm idarəsində xəfiyyə sifəti ilə çalışırdı. Partiya bu sadiq bolşevikdən bu şəkildə istifadə etmək qərarına gəlmişdi. Bunu heç evdə də bilmirdilər. Məhərrəm əmi də, Nəzakət də, başqa dostları da Zəkini zavodda çalışan bir mexanik kimi tanıyırdılar. Əhmədə də belə yalan satmalı idimi? Əhməd ki, onun Moskvadakı fəaliyyətini lap yaxşı bilirdi, orada hər sirrini onunla bölüşürdü. Bir də dostluqda o, çox möhkəm oğlan idi. Bunları xatırlayınca Zəkiyə mərdlik hissi güc gəldi. O, təmkinlə:

– Özüm Qaraşəhər zavodlarından birində mexanik siyahısındayam, əslində isə Bakı jandarm idarəsində çalışıram, – deyə cavab verdi.

Əhməd çox təəccüblə soruşdu:

– Heç bir şey başa düşmədim. Necə yəni jandarm idarəsi? İnqilabçı hara, casusluq hara? Bu nə deməkdir?

– Bəli, hökumət mənə inanıb işə götürmüşdür, bunun üçün partiya çox çalışdı. Özüm isə inqilabın xeyrinə işləyirəm. Yəni qısa desəm, jandarmda işləyib, onların öz işlərinə mane oluram.

Bu cavab Əhmədi bir qədər pərt etdi. Belə qorxulu, cəncəlli yerə gəlməsinə peşman oldu. Bunu Zəki də hiss edib, bu barədə söhbət açmasının yersiz olduğunu düşündü. Ancaq iş-işdən keçmişdi. Məclisin ruhunu dəyişmək məqsədi ilə Əhməd söhbəti yenidən xatırladığı Məhərrəm əmidən saldı. Artıq Nəzakət də stolun üstünü düzəltmiş, özü də bir tərəfdə oturmuşdu.

– Məhərrəm əmi ilə görüşürsünüzmü? Əhvalı necədir?

– Yaxşıdır, ancaq sizinlə çox maraqlanır, gəlməyinizi bilsə, bir dəqiqə də evdə oturmaz, – deyə Nəzakət cavab verdi. Bundan sonra dostlar uzun-uzadı Məhərrəm əmidən danışdılar. Zəki dedi:

– Əsil kişidir, bu şəhərdə ən çox sevdiyim adamlardan biridir. O yaşda qocada bu fəallıq, bu yenilik bizlərdə görünməmiş şeydir. Biz gənclərin üzərində onun çox faydalı təsiri vardır, bunu heç kim inkar edə bilməz!

Əhməd onun sözlərini təsdiq etdi. Zəki bir qədər Məhərrəm əmi haqqında olan xatirələrindən danışdı. Əhməd gülə-gülə dedi:

– Bir gün küçə ilə gedərkən çox mütəəssib mollaların birisi ilə üst-başından yoxsulluq yağan bir kişi bizimlə qarşı-qarşıya gəldi. Molla ona nə isə danışır, kişi də gözlərini heyrətlə onun ağzına dikərək dinləyirdi. Yanlarından keçdiyimiz zaman Məhərrəm əmi dayandı. Kinli baxışlarla onları süzərək: "Bir bu yoluğa bax, mollanın saqqalı altına gör necə soxulubdur. Elə bil mövhumat qoxusu verən mollanın ağzı cənnət qapısıdır; dərdə bax, millətə bax!" deyə üzlərinə baxdı. Bu sözləri o qədər yüksəkdən dedi ki, hər ikisi eşitdi. Hər ikisi acıqlı baxışlarla Məhərrəm əmini süzdükdən sonra, həmin kişi dönərək: "Ey, qoca şeytan, küfr danışma, başını əzərəm!" – dedi. Bax, Məhərrəm əmi belə adamların içərisində iş görür, heç nədən çəkinmir.

İki dost gecə yarısına qədər xeyli söhbət etdilər. Nəzakət onların yatağını otaqda yan-yana salıb, özü şüşəbənddə yatdı. Bir qədər də yataqda danışdıqdan sonra onları yuxu apardı.

Səhər Əhməd gözlərini açanda hamı oyanmışdı. Səhər yeməyindən sonra Zəki öz işinin dalınca, Əhməd isə ilk əvvəl Məhərrəm əmini görməyə getdi. Hərçənd Məhərrəm əmi onun arzusunu ürəyində qoymuşdu. Axı o, Məhərrəm əmiyə oğul olmaq, onun zəhmətinin haqqını vermək fikrində idi. Məhərrəm əmi ilə daimi yaxınlıq saxlamaq üçün Nəzakət ən yaxşı bir vasitə idi. Ancaq bunlar hamısı əbəs xülyalar idi. İş-işdən keçmişdi. Məhərrəm əmidən inciməyə isə heç bir əsas yox idi. Bir də ki, Nəzakət onun yaxın dostlarından birinə getmişdi. Bu haqda fikirləşməyin özü Əhmədə mənəvi əzab verirdi.

Məhərrəm əmi Əhmədi bir ata kimi qarşıladı, alnından öpərək:

– Afərin, oğlum! – dedi.

Məhərrəm əmi Moskvadakı azərbaycanlı tələblər haqqında ondan məlumat almağa başladı. Əhməd bəzi tələbələrin hələ də eyş-işrətə daldıqlarını, dövlətli balalarının oxumaq istəyən studentlərə pis təsir göstərdiyini, bəzilərinin isə öz yoxsul yoldaşlarının xeyrinə müsamirələr təşkil edib, milli nəğmə və rəqslər nümayiş etdirdiklərini söylədi.

Bu sözlər Məhərrəm əminin heç xoşuna gəlmədi. O, məyus bir vəziyyət alaraq dedi:

– Bu Nikolayın taxtı görüm öz başına uçsun. Bizim başımızın altına yastıq qoyur, ingilis siyasəti aparır. Köhnə məhəllə məktəblərini, köhnəpərəst mollaları himayə edərək, xalqımızı qaranlıqda saxlamağa, yeni fənlərdən, texnikadan uzaqlaşdırmağa çalışır. Çar üsuli-idarəsi xalqımızın əkinçi, işçi və ziyalısına qədər hamını kor qoymaq istəyir. Onu kor qalsın. Ən çox qorxduğu, ən çox düşmən tutduğu da bizim ziyalılardır. O, zahirdə başımızı oxşayır, həqiqətdə isə qəlbimizi gəmirir, qanımızı içir. Ziyalılarımız siyasi görüş etibarı ilə o qədər geridədir ki, çarizmin yerli hakimlərlə birləşib apardığı dağıdıcı siyasətin mənasını başa düşmürlər.

Əhməd Məhərrəm əminin ziyalılar haqqındakı fikri ilə razılaşmadı:

– Yanılırsınız, Məhərrəm əmi, ziyalılarımızı o qədər də şüursuz bilməyin. Aralarında namuslu və qeyrətli gənclər çoxdur.

Məhərrəm əmi qismən razılaşdı:

– Doğru deyirsən, qabaqcıl ziyalılarımız, Zəki kimi məzlumların halını düşünən, onların xilası yolunda çalışan gənclərimiz vardır. Mən millətin istedad və gələcəyinə inanıram. Ancaq hələ kaldır, yetişməmişdir, bunu etiraf etməliyik. Qonşumuz gürcülərin, ermənilərin altmış-yetmiş illik siyasi tərbiyəsi var. Bizi adam etsə bu 1905-ci il in-

qilabı kimi inqilablar, bu fəhlə hərəkatları edəcək. Biz bu kimi inqilablarda bütün qüvvətimizlə iştirak etməliyik!

Söz-sözü çəkərək, nəhayət, Əhmədin qulluq məsələsi ortaya çıxdı. Məhərrəm əmi yaxın zamanda neft mədənlərində ona bir vəzifə tapacağına söz verdi. Əhməd hər gün qəzetlərdəki elanları bir-bir gözdən keçirdi. Hətta bir neçə dəfə mədən sahiblərinin kontoruna belə getdi. Ancaq heç bir vəzifə tapmadı.

Bir dəfə Zəki Əhmədə təsəlli verərək dedi:

– Əhməd, ürəyini sıxma, səni bizim təşkilata üzv keçirəcəyəm, sən həm xalqımızın, məhkumların azadlığı yolunda çalışır, həm də təşkilat tərəfindən maddi cəhətdən təmin olunarsan.

Əhmədi ildırım vuran kimi oldu:

– Yox, mənim siyasətlə işim yoxdur, – deyə çox qəti şəkildə etiraz etdi.

Zəki dostunun bu qədər qorxaq, ictimai həyatdan uzaq bir adam olmasına təəssüf etdi, artıq ona bir söz demədi.

Günlər keçdi, həftələr dolandı. Əhməd böyük neft səltənətində özünə, təhsilinə münasib bir vəzifə tapa bilmədi. Ona yalnız Məhərrəm əminin vədləri, Zəkinin gülər üzü, yoldaşlarının xoş rəftarı təsəlli verirdi.

## ALTINCI FƏSİL

Zəki üç gün idi dalğın və əsəbi görünürdü. Axşamlar evdən çıxır, gecə evə çox gec dönürdü. Zəki evlənəndən sonra xalası oğlu Musa öz evlərinə köçdüyündən Nəzakət evdə tək qalırdı. Əhməd isə gecələməyə evə gələndə Nəzakəti tək görür, özünü bir qədər yaxşı hiss etmirdi. "Hər halda müsəlmançılıqdır, – deyirdi,– hərənin ürəyinə bir şey gələ bilər". Ancaq Nəzakət özünü heç o yerə qoymur, Əhmədi səmimiyyətlə qarşılayır, xörəyini verir, şüşəbənddə oturub mütaliəsinə davam edirdi. O, Zəkinin ciddi işlərlə məşğul olduğunu duyduğundan ona mane olmur, əksinə şərait yaradırdı. Zəkinin gecələr evə gec qayıtması Əhmədi çox əsəbiləşdirirdi. Xüsusən Nəzakətə lap yazığı gəlirdi. Bir axşam Zəki iki nəfərlə gəldi. Oturdular, yavaşdan danışdılar, yedilər, içdilər yenə qalxıb getdilər. Əhməd bundan bir şey anlamadı. Ancaq Zəkinin ona qarşı olan soyuq hərəkətindən çox sıxıldı. Nə gələrkən, nə də gedərkən Əhmədə əsla əhəmiyyət vermədi, hətta yeyib-

içərkən onu dəvət də etmədi. O artıq Zəkiyə bir yük olduğunu düşünür və buna çarə axtarırdı. Həmin gecə Zəki çox erkən qayıtdı. Həmişəki kimi nəşəli görünürdü. Otağa girən kimi Əhmədə yaxınlaşdı, əli ilə onun çiyninə vuraraq soruşdu.

– Hə, dostum, necəsən, sıxılmırsan ki?

Əhməd tutqun bir səslə:

– Yox, deyə cavab verdi.

– Səsin xoşuma gəlmədi, sən mənə çox kədərli görünürsən, – deyə Zəki onun boynunu qucaqladı.

– Heç nə yoxdur.

– Bilirəm, işsizlik səni sıxır, qardaşım, fikir etmə, hələ dolanmağa çörəyimiz vardır.

– Sənինlə gələn qonaqlar kim idi?

– O iri bığlı, qısa boylu, qarayağız adam jandarm idarəsinin məşhur xəfiyyəsidir.

Əhməd acı-acı gülərək:

– Mənə də belə vəzifə vermək istəyirsən?

– Yox, bu ipə-sapa girməyən hökumət xəfiyyəsidir. Bu alçaq böyük işlər açır. İndi də hazırlaşır ki, mənim ən yaxın dostum və firqəmizin fəal üzvlərindən birisi haqqında jandarm idarəsinə məlumat versin. Bir də elə xəfiyyələr vardır ki, maaş alır və gizli-gizli bizimlə də əlaqədə olur. Onların bizə zərərdən çox faydası vardır. Tanıdığımız bu kimi adamları biz məxsus ora təhkim edirik.

– Yaxşı, bu xəfiyyənin verdiyi məlumata görə dostunu tutmayacqlarmı?

– Ona çarə tapdıq.

– Necə?

– Yanındakı o arıq, dinməz adamı gördünmü?

– Gördüm.

– Ona təslim etdim.

Əhməd heyrətdən iri-iri açılan gözlərini ona dikərək bir az düşündükdən sonra:

– Bəs, bu adamın məlumat vermiş olduğunu sən necə öyrəndin?

– Bizimlə əlaqədə olan xəfiyyələrimizdən. Onların vəzifəsi ən çox hökumət xəfiyyələrini təqib edərək, onların açacağı işləri öyrənməkdən ibarətdir.

Əhməd qəhqəhə ilə gülərək:

– Böyük bəlasan, – dedi,– jandarm idarəsinin sadiq bir məmuru olub, çar xəfiyyələri ilə mübarizə aparmaq?! Çox qəribə işdir! Padşah bilsə sənə böyük rütbə verər.

– Elə rütbələr məni qorxuda bilməz. Xalqımızın azadlığı yolunda üzərimə götürdüyüm bu rütbədən daha böyük rütbə xəyalıma da gətirə bilmərəm.

* * *

1905-ci il inqilabın qara irtica əvəz etdikdən sonra Bakıda da inqilabçıların vəziyyəti xeyli ağırlaşmışdı. İrtica illərində onların böyük bir hissəsi həbs olunmuş, sürgünlərə göndərilmişdi. İnqilabçılar amansız şəkildə təqib olunurdular. 1908-ci illərdə təzyiq və təqiblər daha da qüvvətləndi. Hökumət Bakıdakı inqilabi hərəkatı axıra qədər boğmaq üçün xüsusi tədbirlər görməyə başladı. Qafqaz canişini Voronsov-Daşkovun əmri ilə Bakıya yeni hərbi qüvvələr gətirildi, jandarmların və xəfiyyələrin, casusların sayı daha da artırıldı.

Son zamanlar Saşa da təşkilatın böyük etibarını qazanmışdı. O, Zəki ilə Moskvadan gələndən sonra az zaman içərisində Qaraşəhərin zavodlarından birinə işə düzəlmişdi. Bu, Zəkinin işlədiyi neftayırma zavodu idi. Hər iki gənc Bakıya gəldikdən sonra təşkilata müraciət etmiş, onlar qeydə alındıqdan sonra həmin işə düzəlmələrində də təşkilat onlara çox kömək etmişdi. Saşa zavoda fəhlələr arasında ilk əvvəl təbliğat aparmaq işi ilə məşğul olurdu. Axır zamanlar hətta çox müvəffəqiyyətlə keçirilən iki tətilə də o, rəhbərlik etmişdi. Fəhlələr ona çox hörmət edirdilər. Gənc olmasına baxmayaraq hər fəhlənin öz dilini bilirdi. Moskva fəhlələrinin mübarizə üsullarından etdiyi söhbətlər də fəhlələri çox maraqlandırırdı. Saşanın Zəki ilə görüşdüyü yer də zavod idi. Zəki şübhə oyatmamaq üçün təşkilata gedib-gəlmirdi. Təşkilatla əlaqəni Saşa saxlayır, tapşırıqları Zəkiyə o verirdi. Zəkinin əldə etdiyi məlumatı isə təşkilata Saşa çatdırırdı.

Son zamanlar xəfiyyələrin, casusların sayının artması partiyanın işini çox çətinləşdirirdi. Jandarm idarəsi, hətta bəzən fəhlələrin öz içərisindən onun xeyrinə işləyən adamlar tapa bilirdi. Xəfiyyə və casuslarla mübarizə üçün partiya da müxtəlif tədbirlər görmüşdü. Zəkinin jandarm idarəsində çalışması da belə bir məqsədlə edilmişdi. Jandarm idarəsi ondan satılmış bir fəhlə nümayəndəsi kimi istifadə etməyə çalışır, Zəki isə partiyanın tapşırıqlarını məharətlə yerinə yetirərək, çar xəfiyyələrinin işinə bir-birinin ardınca zərbələr vururdu.

Bir gecə Zəki qoltuğu içki və yeməklərlə dolu, üç qonaqla içəri girdi. Əhməd onları görüncə uzun və arıq kişidən məsələni anlamış olduğundan şüşəbəndə çəkildi. Nəzakət atasıgilə getmişdi. Zəki əlindəki şeyləri stol üzərinə qoydu, üzünü qonaqlara tutaraq:

– Əziz qonaqlarım, Yelena, Liza və Mustafa, siz çox xoş gəldiniz! – dedi.

Liza otağı diqqətlə gözdən keçirdikdən sonra dedi:

– Gözəl otağınız vardır, əfsus ki, birinci dəfədir görürük.

Yelena gülə-gülə:

– Mən bu xüsusda şikayət edə bilmərəm. Zəki arabir bizi yad edir, – dedi.

Mustafa süni gülümsəyərək:

– Bundan sonra Liza xanım da bizim məclislərimizdə iştirak etməlidir, – dedi.

İçki məclisi quruldu. Qədəhlər bir-birinə vurularaq sağlıqlara içildi. Zəki qədəhi əlinə alaraq sözə başladı:

– Mən padşahın ən sadiq bir bəndəsi olduğum kimi, idarəmdə də özümü doğru bir məmur bildiyimdən xoşbəxtəm. Fəqət idarəmizin ən fəal agenti olan Liza xanımın göstərdiyi böyük xidmətlərə və açdığı mühüm siyasi işlərə qarşı ürəkdən təşəkkür edərək, onun qarşısında əyilməyə özümü haqlı görürəm. Yaşasın Liza xanım!

Qədəhlər onun sağlığına içildi. Məclis get-gedə qızışdı. Söhbət uzandı, başlar qızışdı. Hər kəs xəfiyyəlik işlərində göstərdiyi hünərlərdən danışmağa başladı. Əvvəlcə Yelena söz açaraq dedi:

– Mən şübhələndiyim bir nəfərin dalınca tam bir il dolaşdım. Onunla dost olmaq üçün nə qədər şərait hazırladım, mümkün olmadı. Nəhayət, onun yaşadığı evdə yaxın bir dostu ilə tanış oldum. Onun vasitəsi ilə bu adamın evinə yol açdım, oturub saatlarca danışdıq. Mənim verdiyim suallara o qədər örtülü cavab verirdi ki, onun nə məsləkdə adam olduğunu anlaya bilmirdim. Çarəm kəsildikdən sonra ona açıq suallar verməyə başladım. Bir gün münasib bir məqamda: "Məni bolşevik firqəsi çox maraqlandırır! Bu firqəyə yazılmaq üçün kimə müraciət etməliyəm? Bunu lütfən mənə göstəriniz, sizə qarşı minnətdar olaram"– dedim. O adam istehza ilə gülümsəyərək:

– Bu xüsusda mən də sizin qədər savadsızam, məsəl var: "axtaran tapar" – dedi. Zəhmətlərimin boşa çıxdığını hiss edərək bütün ümidlərim qırıldı.

İki gün sonra yenə o adamın evinə gəldim. Məni çox hörmətlə qəbul etdi. Onun mənə qarşı olan bu qədər nəzakət və hörmətinə heyrət etdim. Gülə-gülə soruşdu: "Məqsədinizə nail oldunuzmu?" "Yox, o bəxtiyarlığa hələ nail olmamışam" – deyə cavab verdim. O gülümsəyərək: "Mən istəyimə nail olsam, siz də olarsınız" – dedi. Heyrətlə soruşdum: "Sizin istəyiniz nədir?" O, mənalı nəzərlə məni süzdükdən sonra: "Mənim istəyim jandarm idarəsində bir təhər işə düzəlməkdir. Buna vasitə tapa bilsəydim heç dərdim olmazdı", – deyə gözlərini üzümə dikdi. Cavaba söz tapmayaraq, qıpqırmızı qızardım.

– Doğrudanmı hərif casus olmaq istəyirdi?

– Yox, o mənim xəfiyyə olduğumu bilmişdi.

– Nədən bilmişdi? – deyə Liza cavab gözləyən gözlərini Yelenanın üzünə dikdi. Mustafa özünə məxsus istehzalı bir səslə:

– Demək, Yelena onu təqib etdiyi kimi, onun da adamları Yelenanı izləyib məsələdən agah olmuşlar.

Liza birdən-birə qəhqəhə ilə gülərək bağırdı:

– Hünərinə mərhaba, o mənim əlimdən canını qurtara bilərdimi?

Zəki Lizanın sözlərini təsdiq etdi:

– Doğrudur, sənin məharətinə söz yoxdur.

Liza özünü öyməyə başladı:

– Mənim vağzallarda işim yoxdur. Müxtəlif qiyafələrdə mən öz ovumu ən adi meyxanalarda, kiçik çayxanalarda vururam. Keçən il mühüm bir iş açmışdım, şübhəsiz, eşitmişsiniz? Böyük çətinliklə də olsa Balaxanı təşkilatının üzvlərini, iş yerlərini, yaxın adamlarını, nəhayət, görüşdükləri yeri müəyyən etdim. Sonra idarəmizə hər şeyi ətraflı bildirdim. Ancaq polisiya gəlib onları birlikdə həbs etmək istədiyi zaman cin kimi yox oldular. Bu sirr məni hələ indi də düşündürür.

Zəki başını tərpədərək:

– Doğrudur, doğrudur, Liza, çox gözəl xatırlayıram, onun çox mühüm siyasi bir əhəmiyyəti vardı. Ancaq idarə bir az gecikdi və buna hamımız təəssüf etdik. Yeni açmaqda olduğun iş isə ondan az əhəmiyyətli deyildir, – dedi.

– Mustafa ilə tanış olmağa da elə bu iş vasitə oldu, – deyə Liza Zəkinin dediklərini tamamlamağa çalışdı. – Maraqlandığım bir nəfəri mənim kimi, Mustafa da təqib edirmiş. Nəhayət, iş elə gətirdi ki, o mənim, mən də onun kim olduğunu bir-birindən gizlədə bilmədik. Həmin adam Bakı Komitəsinin ən fəal üzvlərindən, bəlkə də rəhbər-

lərindəndir. Onu və onun dəstəsini Mustafa ilə birlikdə cinayət üstündə tutacağıq. Buna dair müvafiq planımız, tədbirlərimiz vardır.

Mustafa əlindəki qədəhi Lizaya doğru uzatdı:

– Liza bu yolda sən mənim həqiqi müəllim və rəhbərimsən. Bunu mən hər kəsin yanında iftixarla deyirəm. Sağ olsun mənim müəllimim.

Zəki Mustafanı tərif etməyi lazım bilərək dedi:

– Acizliyini etiraf edən mərd adamdır. Ancaq Liza kimi istedadın geniş qanadları altında az zaman içərisində böyük hünər və təcrübə sahibi olduğunu isbat etdiyin gün sənə gurultulu bir ziyafət verməyi vəd edirəm. Zira ki, biz hər sahədə padşahımıza ən sadiq adamlarıq, hər sahədə padşahımıza qarşı bəslənilən hörmət və sədaqəti gördüyüm zaman köksüm genişlənir.

Liza Mustafanı gülən gözləri ilə süzərək:

– Oh...o..! Onun qaradinməz olduğuna baxmayın, bu da bir növ qəhrəmandır, bu işdə böyük istedadı vardır, – dedi.

Yelena və Zəki Mustafaya mənalı baxaraq gülümsədilər. Mustafa başını aşağı saldı. Məclisə bir an sükut çökdü:

Yelena saata baxaraq:

– Oho... saat on biri keçir. Nə qədər çox qaldıq, – dedi və yenidən qalxdı. Qonaqlar durdular. Zəki onları yola saldıqdan sonra Əhmədin yanına gəldi. Əhməd onu ayaq üstündə gözləyirdi. Onu görüncə:

– Yenə nə tədbirin var? – deyə soruşdu.

Zəki əlini onun çiyninə qoyaraq:

– İki gün sonra qəzetlərdə oxuyarsan, indi isə gəl o günün şərəfinə qədəh-qədəh vuraq, – deyə onu yemək otağına gətirdi. Oturdular.

O gecəni Zəki Əhmədlə çox xoş keçirdi. Yedilər, içdilər, müxtəlif mövzularda danışdılar. Əhməd siyasətə qoşulmayan, liberal görüşlü gənc olsa da, dostluqda möhkəm idi. Zəki onun bu xasiyyətini bilir, odur ki, ondan heç bir şeyi gizlətmirdi. Bu dəfə də onun gələn qonaqlarla çox maraqlandığını bildiyi üçün onları bir-bir tanıtmağa başladı:

– O dinməz, söyləməz Mustafanı tanıyırsan, o heç... Yelena da heç... Bunlar bizim adamlarımızdır. Bizə fəlakət açan o Lizadır, hökumətin ən məşhur, ən hiyləgər xəfiyyəsidir. Hər çətin işdə jandarm idarəsi ona müraciət edir. Mustafa onu bir an gözdən qoymur. Bu günlərdə onun açacağı bir işdə iyirmidən artıq sosialist yaxalanmalıdır. Bu gecəki ziyafət onun üçün ölüm ziyafəti idi, çünki o, aradan çıxmayınca biz rahat çalışa bilməyəcəyik.

– Demək bunun da müqəddəratı Mustafaya tapşırıldı.

– Şübhəsiz!

Əhmədin gözləri dumanlandı, bir an düşüncəyə daldı. Zəki bu fürsətdən istifadə edib geyindi, Nəzakəti atası evindən gətirməyə getdi.

Əhməd o səhər çox erkən oyandı. Zəki yatmışdı. Nəzakətin yalvar-yaxarına baxmayaraq, yemək yemədi, evdən çıxdı və oradan birbaş Məhərrəm əminin yanına getdi. O bu gün Zəkinin evindən qəti surətdə çıxmağa qərar vermişdi. Məhərrəm əmi onu görüncə çox sevindi. "Yaxşı oldu gəldin... Tanış bir mədəndə mühəndis müavini yeri var. Bu xüsusda mühəndislə və mədən sahibi Əsəd bəylə danışmışam. Al bu ünvanı, get və bu gün xəbər gətir", – deyə bir parça kağız uzatdı.

Əhməd o gün evə çox gec döndü, qapıdan girər-girməz:

– Zəki, daha mən gedirəm, – deyə şeylərini toplamağa başladı.

– Hara?

Əhməd vəzifə tapdığını qısaca söylədikdən sonra Zəki təkrar soruşdu:

– Bəs hara köçürsən? Otaq tapdınmı?

– Bir rus ailəsində yemək-içməklə ayda əlli manata gözəl bir otaq tapmışam.

– Niyə tələsirsən, hələlik burada...

Əhməd Zəkinin sözünü tamamlamağa imkan vermədi:

– Yox, səni narahat etmək, işlərinizə mane olmaq istəmirəm.

Zəki cavab vermədi. Əhməd şeylərini yığışdırdıqdan sonra Zəki və Nəzakətlə çox səmimi görüşdü, hətta uzaq bir səfərə gedirmiş kimi, onunla öpüşərək çıxdı. Zəki arxadan:

– Ünvanını bilsəydim arabir yanına gələrdim, – dedi.

– Evin nömrəsini, küçəsini hələlik bilmirəm, sonra sənə deyərəm.

Əhmədin belə gedişi Zəkini çox düşündürdü. Onun getməyə tələsdiyinin səbəbi burada baş verən hadisələr olduğunu bilirdi. Acı-acı gülümsəyərək, əlini yavaşca stola çırpa-çırpa:

– Get, sənin də qəlbini Əşrəflər yemişdir, – dedi.

## YEDDİNCİ FƏSİL

Əşrəf Sonanı dəlicəsinə sevdiyi kimi, Sona da ona ürəkdən vurulmuşdu. Evə gəldiyi zaman Əşrəfi min bir dillə dindirir, sağına, soluna keçir, onu dadlı sözlərlə əyləndirir, iri qara gözlərinin ən səmimi baxışlarını, yaqut dodaqlarının ən şirin gülüşlərini yalnız ona bağışlayır-

dı. Əşrəf də arabir Sonanın o gözəl kiçik başını qucaqlayıb, iki əli ilə onu köksünə sıxaraq:

– Ah, qəlbimin sevinci, ruhumun işığı. Səni kiçiklikdən sevdim. Sənin üçün yaşadım, sən mənim yeganə gözəlimsən, – deyirdi.

Əşrəfin ona qarşı olan səmimi rəftarı Sonanı çox sevindirirdi. Arabir anası Gülcahana:

– Ana, çox şükür, Əşrəf atası Ağamürsələ oxşamadı, – deyirdi.

Gülcahan xala qızının fikrini təsdiq edirdi:

– Qızım, mən bilirdim ki, Əşrəf atasına oxşamayacaq, çünki başı çəkmişdi. Atalar sözüdür: "Başına gələn başmaqçı olar". Bir də Ağamürsəl oxumamışdı. Əşrəf neçə ildir oxuyur, o indi yerin altını da bilir, üstünü də.

Bu sözlər Sonanın qəlbinə yağ kimi yayılır, bal kimi damırdı. Qələm qaşları altında uzun kiprikli qara gözləri daha şəfqətlə yanır, al yanaqları, gözəl, lətif siması daha məlahətlə parlayırdı. Bu sözlər gənc qızın xəyalını işıqlı aləmlərə, daha uzaqlara aparırdı. Əşrəfin onun başını köksünə sıxaraq: "Kiçiklikdən səni sevdim. Sən mənim yeganə gözəlimsən" sözlərini xatırlayırdı. Sona dadlı xülyalarla qol-boyun olaraq xəyala dalırkən, birdən-birə diksinərək, durduğu yerdən şiddətlə atıldı, tez anasına baxıb utancaq bir tövrlə gözlərini aşağı dikdi. Bu hərəkətindən özü də qorxmuş olduğundan qəhqəhə çəkdi. Gülcahan qızının ikicanlı olduğunu bilirdi. Ona mənalı baxaraq:

– Uşaq tərpəndi, bilirəm, qızın olsa Əşrəf adını Məryəm, oğlun olsa Mürsəl qoyacaq, – dedi.

Sona dörd tərəfi ipəklə işlənmiş ağ süfrənin saçaqlarını əli ilə oynada-oynada:

– Sən bu sözü Əşrəfə demə, mən uşağıma bədbəxt adamların adını qoymaram, – deyə cavab verdi.

– O var, o dövlət sahibi olan Ağamürsəl bədbəxt idimi?

– Bir o xoşbəxt idi, bir də yazıq Məryəm. Ev, eşik, ailə tanımayan bir kişi xoşbəxt ola bilərmi?

– Kişi öz ata-anasının adını qoymaq istəsə, nə deyə bilərsən?

– Təkid etsə heç bir şey... Mən Əşrəfin könlünü qırmaram.

* * *

Sona sevə-sevə, oxşaya-oxşaya qızı Məryəmi bələyirdi; anası Gülcahan xala da qızını yoluxmaq üçün yenicə gəlmiş, hələ çarşabını da götürməyib, səssizcə qapı ağzında qızının min bir dillə Məryəmi bələməsinə baxırdı. Sona Məryəmi bələdi, iki əli ilə qaldırıb qarşısına gətirdi və bəbə kimi atıb-tutmağa başladı. "Matan, matandır bu qız, qəşəng matandır bu qız; könülə yatandır bu qız... Balama qurban sərçələr, balam haçan dirçələr?"

Sona anasını görməyib qızını sevə-sevə oxşayıb oynadırkən, Əşrəf Əhmədlə içəri girdi. Sona qucağında uşaq utana-utana o biri otağa keçdi. Əhməd əllərini bir-birinə vuraraq:

– Yox, bu olmadı, Sona xanım məndən qaçır, – dedi.

Əşrəf:

– Sona, Sona, gəl, başqası deyil, bizim Əhməddir, – deyə onu səslədi. Sona gəlmədi. Əşrəf Gülcahan xalanın halını soruşdu. Sonra üzünü Əhmədə tutub:

– Əhməd, mənim bir qayınanam var ki, bütün dünyaya dəyişmərəm. O tək Sonanın anası deyil, mənim də anamdır, – dedi.

– Sağ əlin mənim başıma. Bir elə qayınana mənə də tapsaydın, pis olmazdı, – deyə Əhməd cavab verdi.

Əşrəf fürsətdən cəld istifadə etdi:

– Gülcahan xala, bu mənim məktəb yoldaşımdır. İndi yaxşı incinardır, heç kəsi yoxdur. Bir başıdır. Ayda iki yüz məvacib alır. Buna elə bir qız tapa bilərsənmi evi-eşiyi, hər şeyi olsun? Bu ancaq papağını, əl ağacını götürüb, qızın evinə girsin.

Gülcahan xala burnunu və iki gözünü yaşmaq altından göstərərək:

– Elə bir qız yeri bilirəm, – dedi, – gözəl, ağıllı, bir az da rusca oxumuşdur. Onu yaxşı yerlərdən istəyənlər oldu, qız getmədi. Ata-anası nə qədər cəza verdi, qız yenə razı olmadı. "Mənə var-dövlət lazım deyil, adam lazımdır, yoxsul olsun, yoldaş qədri bilsin" – deyir.

Əhmədin gözləri parıldadı. Əşrəfin üzünə mənalı-mənalı baxaraq:

– Lap mənim malımdır, – dedi.

– Gülcahan xala, kimlərdəndir?

– Hacı Yunusun qızıdır, anası Mina xanım da çox mehriban arvaddır.

Əşrəf əlini Əhmədin çiyninə qoyaraq:

– İtin uladı, yaxşı yerdəndir, – dedi.

– Halva deməklə ağız şirin olmaz, ona yağla bal gərəkdir. Gülcahan xala gərək bu yerdə mənə də analıq etsin.

Əşrəf təkrar Sonanı çağırdı:

– Sona, Sona, gəl çay ver! Gəl Əhmədə sən də bir məsləhət ver.

Sona utana-utana içəri girdi. Əhmədlə başı ilə görüşdükdən sonra Əşrəf soruşdu:

– Hacı Yunusun qızını görmüsənmi? Necə qızdır?

– Anam məndən yaxşı tanıyır.

– Sən qızı görmüsənmi?

– Görmüşəm, sifətdən yaxşıdır, ancaq xasiyyətini bilmirəm, anam onlara çox yetikdir.

Araya bir anlığa sükut çökdü. Əhməd bir qədər fikirləşdikdən sonra:

– Demək mənim ipim Gülcahan xalanın əlindədir, – dedi.

– Xala can, elə sabah özün elçi get, qızın anasının ağzını ara, gör nə deyir...

– Mən getməyə gedərəm, görək nə deyərlər...

– Getmək var, getmək var. Bir ağızucu söz demək, bir də qırsaq-qız olub yapışmaq var...

– Yox, mən qır-saqqız olub yapışa bilmərəm.

– Yapışma, ona mən də razı deyiləm. De ki, tək oğlandır. İki yüz manat maaş alır. Maaşından başqa heç bir şeyi yoxdur. Özümə gəldikdə yaxşı bax: boyumu, başımı, ağzımı, gözümü, üzümü, burnumu, saçımı necə görürsən, elə də de!

Bayaqdan söhbətə qulaq asan Sona qızara-qızara dedi:

– Xasiyyətiniz də gərək bir-birini tutsun. Bəlkə sizin xasiyyətiniz onun, ya onun xasiyyəti sizin xoşunuza gəlmədi.

– Əşrəf sizin xasiyyətinizi bilirdimi? Ya siz onun xasiyyətini bilirdinizmi? Bax, indi necə yaxşı tutur.

Gülcahan xala tez cavab verdi:

– Bunlar bir-birinin xasiyyətinə uşaqlıqdan bələd idilər.

– Bilirsən, Cahan xala, bizim qız almağımız bazardan qarpız almağa bənzəyir, bəxtə-bəxtdir, dadlı da çıxa bilər, dadsız da... İndi nə eləyək, şərait belədir. Oxumuş qızlarımız azdır, həm də bizi saymırlar, gözlərini milyonçu balalarına dikib dururlar.

Gülcahan xala sabah ona xəbər gətirəcəyinə söz verdi. O gecə Əhməd şad görünürdü. Hər zamankı gülüşlərində hiss edilən sünilik, soyuqluq bu gün əsla hiss edilmirdi. Gecəni Əşrəflə xoş keçirdi. Gecə keçirdi, qalxıb gedərkən:

– Hələlik sağ ol, sabah axşam yenə Gülcahan xalanın qulluğunda hazıram... Görək qız gələcək, oğlan? – dedi.

Əhməd o gecəni sabaha qədər yatmamışdı. O, ailə həyatını lazımınca görməmiş olduğundan evlənməkdən həm qorxur, həm də onu dəlicəsinə arzulayırdı. Həmin gecə həyatında gördüyü, tanıdığı ailələrin hamısını xəyalından keçirdi. Öz vicdanı qarşısında ideal bir ailə həyatı qurmağa söz verdi. Gecə uzunu məşğul olduğu fikirlər onu yorduğundan səhər qalxıb işə gedərkən üz-gözündə yorğunluq əsəri müşahidə edilirdisə də, yenə məmnun görünürdü.

O gün ona bir il qədər uzun gəldi. Axşam bir gəlin görüşünə gedirmiş kimi təmiz geyindi, lazım olan bəzəyi vurandan sonra evdən çıxdı. Əşrəf onu gülə-gülə qarşıladı. Gülcahan xala qucağında Məryəmi oturdub Əhmədi gözləyirdi. Əşrəf onun çiyninə vuraraq:

– Əhməd, bəxtin yoxmuş, qızın atası razı olmayıb, – dedi.

Əhməd stulu altına çəkərək, oturmaq istərkən bu sözdən pozularaq, nəşəsi qaçdı, az qaldı yıxılsın. Əşrəfi diqqətlə süzərək:

– Yox!.. Doğru deyirsən? – deyə soruşdu.

Gülcahan xala gülərək:

– Ay bala, aman ver, oğlan bir otursun, – dedi.

Əhməd oturdu, intizar içində Gülcahan xalanın nə deyəcəyini gözləməyə başladı. Gülcahan xala oturduğu stulu tərpətdi, özünü bir az doğrultduqdan sonra dedi:

– Getdim, nə üçün getdiyimi bilmədilər. Sonra söz açdım. Əvvəlcə anası da, özü də razı olmadı, "evi yox, gəldi-gedər adamdır", dedilər. Sonra mən səni çox təriflədim. "Qızın atası bilməsin, qız oğlanı görüb bəyənsə, danışarıq," – dedilər.

– Bəyənməsə?

– Bəyənməsə, səninki səndə, onunku onda.

– Mən də qızı görəcəyəmmi?

– İnanmıram, anası razı olmaz.

– Biz harda görüşəcəyik?

– Sabah axşam sən də gələrsən, onlar da. Sən Əşrəflə o biri otaqda oturarsan. Sona qızla salona çıxar. Qapının deşiyindən o sənə baxsın, sən də ona...

– Qapının deşiyindən niyə?

– Bəs hardan?

– Açıq qapının arasından o mənə baxsın, mən də ona.

– Yox, olmaz!

– Nə üçün olmaz? Əşrəf Sona xanımı qapı deşiyindənmi baxıb bəyənmişdi?

– Yox, bu olmadı, sən indidən Əşrəflə, Sona ilə çəkişirsən. Sən başqa, onlar başqa...

– Onlar nə üçün başqadır?

Gülcahan xala titrək, bir az da əsəbi səslə:

– Əşrəf şəhərdə tanınmış, adlı-sanlı, varlı Ağamürsəlin oğludur. Onun varı-dövləti var.

– Mənim də elmim var.

– Əşrəfin elmi səndən az deyil ki?! Neçə il burada, neçə il də Ursetdə qaldı. O da sənin qədər oxuyubdur, hələ varı-dövləti, adı-sanı da bir artıq.

Əhməd susdu. Sadə qadın Əşrəfi ali təhsil görmüş, mütəxəssis bir ziyalı sanırdı. Bu xüsusda bir söz söyləmədi. Bir az sükutdan sonra:

– Yaxşı, nə eləyirsiniz razıyam. O mənə deşikdən baxar, mən də ona deşikdən baxaram, – dedi.

– Hə, bu olar, nə eləyək.

– Yaxşı, qızın adı nədir?

– Mənə bax, sən sabah sağ tərəfdən qapıya doğru oturarsan ki, burnunun sol tərəfindəki çopurları qız görməsin. – deyə Əşrəf zarafatla əlini Əhmədin çiyninə vurdu. Hamı gülüşdü. Əhməd dedi:

– Sənin acığına sol tərəfdən oturacağam, qoy görsün, axır görəcək ki. Ancaq mən bir şeyi başa düşə bilmirəm, o məni alır, yoxsa mən onu?

Gülcahan yaşmaq altından ona dik-dik baxaraq:

– Bu nə sözdür? O səni alır, sən də onu. Kişinin qızı bilməsin kimə gedir?

– Mən də bilməyimmi kimi alıram?

– Sən də bil, qapının deşiyindən bax!

– Oradan nə o məni, nə də mən onu lazımınca görə bilməyəcəyik.

– Adət belədir, kefinə bax.

– Oho! Gülcahan xala yaman acıqlı arvad imiş.

– Sən də yaman üzlü yetimsən.

– Deyirlər ki, yetim bəxtli olur.

– Yalan ha deyil, bəxtli olmasan belə əmlik kimi qıza rast gəlməzdin.

– Yavaş, dananın gözünü çıxararsan, bəlkə baxıb bəyənməyəcək.

– Bəyənməmiş nə ayıb tapacaq.

O gecə bu xüsusda uzun-uzadı danışdılar. Hətta qızın adını da öyrəndi. Onun adı Rəmziyyə idi.

Bu dəfə Əhməd oradan evinə çox kədərli, düşüncəli dönmüşdü. Otağa girincə kiçik masanın başına oturub, düşünməyə başladı. Gülcahan xalanın sözləri onun mənliyinə çox toxunmuş, onda bir çox acı hiss və düşüncələr oyatmışdı. "Evi yoxdur, gəldi-gedərdir" sözlərini də xatırlayaraq, evlənmək istədiyi ailənin həyat yoldaşına olan görüşünü aydınlaşdırırdı. Belə insanlarla həqiqi və səmimi ailə həyatı qurmağın nə qədər çətin olduğunu etiraf edirdi. Hələ Əşrəf üçün deyilən: "O bu şəhərdə adlı-sanlı, varlı Ağamürsəlin oğludur" sözləri onun ruhunu acı-acı didirdi. O hər iki tərəfi incədən-incəyə tədqiq və mühakimə etdi. Ancaq mühit və şəraitin onda oyatdığı düşüncə və təsirdən Məhərrəm əminin sözlərini ikinci dərəcədə əhəmiyyətli gördü, uzun mühakimədən sonra: "Nə etməli, Əflatun belə olsan, bu ölkədə köməksiz tərəqqi etmək mümkün deyildir. Varlı və nüfuzlu ailəyə bağlanmaqla yüksəlmək üçün meydan verilir" nəticəsini çıxardı. Hətta bunun üçün tanıdığı, bildiyi bir çoxlarını nümunə olaraq misal göstərdi.

Ertəsi gün Əşrəfin evinə getmiş, qız Əhmədi, Əhməd qızı qapının deşiyindən görmüşdü.

Bu görüşdən tam üç ay keçdi. Əhməd qəti bir cavab almaq üçün dəfələrlə gəldi. Hər dəfə də Əşrəf ona Gülcahan xalanın dilindən bir söz dedi: "Qız və anası razıdır, hələ atasına deməmişlər. Atası bir az mühafizəkar və pulpərəstdir, qızını varlı adama vermək istəyir; onu bir təhər razı etmək üçün yollar axtarır, çarələr düşünürlər".

Bəzən də Əşrəf deyirdi:

– Deyirlər ki, bu necə toy olar? Oğlan əlinin ağacını, başının papağını götürüb qızın evinə girsin! Bu toyu çox adi görürlər. "İlk övladımdır, qızın da, bizim də arzularımız var, oğlan, qız adamları gəlsin, evimizdə əzizlənsin, qonaqlansın, qızım karetada, üzündə duvaq, yanında sağdışı, soldışı otursun; qabağında yengəsi, qucağında ayna, əllərində şamdan, musiqi ilə, gurultu ilə aparsınlar. Bu da bir arzudur. Yoxsa toydan sonra qızı öz otağının birindən o birinə köçürmək, bunda nə ləzzət var?".

Əhməd bu sözlərdən sonra bütün dəyişdi. Əlini havada oynadaraq əsəbi səslə:

– Bundan sonra heç lazım deyil. Var, dövlət bunları qudurtmuşdur. O düşüncədə, o mühakimədə adamlarla keçinmək çətindir. Məhərrəm əmi doğru deyir. Mən o kişinin sözlərinə indi qiymət qoyuram. Gedib gözəl bir rus qızı ilə yaşamaq, belə qızlarla ömür keçirməkdən on qat yaxşıdır, – dedi.

Əşrəf sağ əlini açaraq: "Vur bura!" – dedi.

Əhməd əlini onun əlinə çırpdı.

– Demək baş tutmadı. Heç eybi yoxdur. Bir başqasını tapıb yaşaram.

Ayağa qalxdı. Əşrəf onu qapıya qədər müşayiət edərkən dedi:

– Sənin əsəbiləşməyin yersizdir. Onlar sənə hələ rədd cavabı verməyiblər. Hələ öz aralarında bu iş haqqında danışıq aparırlar.

Əhməd güldü:

– Yox cavabı sən nəyə deyirsən? Bu sözlərin hamısı yox cavabı deyilmi?

Əhməd o gündən o tərəfə üz çevirmədi. Bir axşam Əşrəfi görmək bəhanəsi ilə gəldi. Təsadüfən Gülcahan xala da orada idi. İçəri girər-girməz Gülcahan xala:

– Haradasan, ay oğlum? İşi bişirib hazırlamışam, nə vaxtdır gəlib çıxmırsan... Razı oldular.

– Necə, nə şərtlərlə?

– Sənə qızın dayısı İsgəndər bəyin evində beş otaq verirlər. İçərisinin hər müxəlləfatı ilə... Qızın cehizi də üstəlik. Sən ora köçürsən. Bir gecədə həm qız, həm də oğlan evində toy başlanır. Qızı da karet içində dəbdəbə ilə ora gətirirlər.

Əhməd gülə-gülə Əşrəfin üzünə baxdı.

Əşrəf:

– Daha nə istəyirsən? Sənin üçün böyük səadətdir, – dedi. – Yoxsulluğun daşını atarsan.

Gülcahan xala əlavə etdi:

– Sənin toy xərcini də dayısı İsgəndər bəy çəkəcək. Toya heç bir xərcin çıxmayacaq.

– Sağ ol, Gülcahan xala! Məni qorxudan toy xərci idi, çünki, bilirdim gücüm çatmayacaqdı. Hələ onlar məni tanımamış, görməmiş necə razı oldular? Bu məsələ məni çox maraqlandırır.

– Bu işin düzəlməsinə yenə Məhərrəm əmi səbəb olubdur, – deyə Əşrəf Əhmədi məsələdən xəbərdar etdi.

Gülcahan xala Əşrəfin dediyini təsdiq etdi:

– Doğrudur, o qoca rus Məhərrəm... deyirlər ha, o səni çox tərifləyibdir.

Hamı güldü.

– Kimə?

– İsgəndər bəyə... Səni çox soruşmuşlar. Amma o qoca rus Məhərrəm səni başqa cür tərifləyibdir. İsgəndər bəy ondan sonra qızın atasını razı edibdir.

Əhməd üzünü Əşrəfə tutaraq:

– Bu İsgəndər bəy kimdir?

– O, fikri açıq oxumuşları sevən tacirdir. Qurubağ yanında böyük maqazini var. Məhərrəm əminin yaxın dostlarındandır.

Əhməd bir az düşündü, sonra başını qaldırıb gülə-gülə:

– Gülcahan xala demişkən, bu qoca rus Məhərrəm hər yerdə mənim dadıma çatır, – dedi.

– Bu vaxta qədər sən cavab gözləyirdin, indi qız evi cavab gözləyir. Nə deyirsən?

Əşrəf Əhmədin çiyninə vuraraq:

– Nə deyəcək, papağı da razıdır, – dedi.

– Yox, qoy özü desin...

– Mən nə deyim, xala can? Rusun bir məsəli var: "Verirlər al, döyürlər qaç!" Belə işə kim razı olmaz.

– Onda, sabah İsgəndər bəyin yanına get. Toy haqqında sənlə danışmaq istəyir. Bundan sonra hər sözün, hər məsləhətin, söhbətin onunla olacaq.

Əhməd evlənmək məsələsini Məhərrəm əmidən gizlədirdi, çünki bilirdi ki, o, varlı ailədən evlənməyə razı olmayacaq. Məsələni dostu İsgəndər bəydən öyrənmiş olduğundan bu xüsusda onunla görüşüb razılıq almaq, həm də birinci dəfə İsgəndər bəyin yanına onunla getmək fikri ilə Məhərrəm əminin yanına getdi. Məhərrəm əmi onu hər zamankı kimi çox səmimi qarşıladı. Əhməd məsələni açdı:

– Bu xüsusda sizin də razılığınızı almaq borcumdur, – dedi.

Məhərrəm əmi bir az sükutdan sonra:

– İskəndər bəyin bacısı qızı olmasaydı, doğrusu ki, mən razı olmayacaqdım. Deyilənlərə görə qızın üzərində onun yaxşı təsiri vardır. Odur ki, heç bir sözüm yoxdur, mübarək olsun. xoşbəxt yaşayın! – dedi.

Əhməd onun sözündən ürəklənərək qızın bir az rusca da oxumuş olduğunu söylədi.

– Bu da İskəndər bəyin təsiridir. Yoxsa o Hacı Yunus bu günün tələbatını anlaya bilməz. Rusca bilsə də məncə yenə yarımçıqdır. O ruscadan əvvəl öz ana dilini gözəl öyrənməli idi.

Məhərrəm əmi bir qədər ailə həyatının əhəmiyyətindən bəhs etdikdən sonra Əhmədin ricası ilə İsgəndər bəyin yanına getdilər. İskəndər bəy əvvəlcə onları mağazində qarşıladı, sonra kabinəsinə aparıb kiçik çay məclisi hazırladı. Oturdular, danışdılar. İsgəndər bəy Əhmədlə daha yaxından tanış oldu. Məhərrəm əmi onun nə əziyyətlə oxuyub

təhsilini bitirdiyini və onun tərcümeyi-halını bütün təfsilatı ilə danışdı. İsgəndər bəy məmnun baxışlarla Əhmədi başdan-ayağa süzərək:

– Mərhəba, iradən varmış! – dedi.

Sonra evlənmək məsələsi ortaya gəldi. İsgəndər bəy üzünü Əhmədə tutub dedi:

– Bu barədə sən heç fikir eləmə. Hər şey hazırdır. Evimin üçüncü qatında beş otaq ayırmışam. Onun bütün müxəlləfatını Hacı Yunus verəcək, toy xərcini də mən çəkəcəyəm.

Məhərrəm əmi İskəndər bəyə məmnun nəzərlə baxaraq dedi:

– Çox şükür, bizdən də yavaş-yavaş mədəniyyət qoxusu gəlməyə başladı, ziyalılara əhəmiyyət verilir.

Bir həftə sonra Əhməd yeni evinə köçmüşdü. Üç gün sonra isə dəbdəbəli bir toy onu öz yeni həyat yoldaşına qovuşdurmuşdu.

Əhməd öz həyatından çox razı idi. Rəmziyyə onun ruhuna uyğun, idarəçi, həlim, gözəl bir qız idi. Tam mənası ilə ziyalı olmasa da, bəzi xüsusiyyətləri ilə bir çox ziyalı qızlardan yüksək və dəyərli idi. Rusca az-çox oxuyur, yazır, danışır, nərd, şahmat oynamağı, yoldaşını məşğul etmək yollarını bilir, hər şeydən artıq gözəl piano çalırdı. Məhərrəm əmi ilk dəfə olaraq, kiçik bir portfel hədiyyə gətirmişdi. Qızla bir az danışıb, onun kamal və qabiliyyətini öyrəndikdən sonra:

– Əhməd, qalx o portfeli bura gətir, – dedi.

Əhməd portfeli alıb, Məhərrəm əminin qarşısına qoydu. Məhərrəm əmi onu açmaqdan əvvəl üzünü Rəmziyyəyə tutub dedi:

– Qızım, rusca oxumaq nə qədər sənin qiymətini artırırsa, öz ana dilini bilməmək bir o qədər səni qiymətdən salır. Bir ziyalı hansı millətə mənsub olursa-olsun öz dilini, ədəbiyyatını, tarixini, daha doğrusu, özünü də gözəl öyrənməlidir. Özünü bilməyən, özünü təqdir etməyi bacarmayan başqalarını da təqdir etməyi bilməz. Məndən qızıl, brilyant, ya başqa qiymətli bir hədiyyə gözləmə, çünki əvvələn, ona gücüm çatmaz, çatsa da mənim nəzərimdə onların heç bir qiyməti yoxdur. Mən ana dilimizi sənə hədiyyə gətirmişəm, – deyə o, çantanı açdı, içindən "Birinci il", "Əlifba", "İkinci il", "Üçüncü il" adlı dərslikləri, qələmucu və qurşun qələm çıxartdı.

– Bax, mənim hədiyyələrim bunlardır, – dedi.

Əhməd gülərək:

– Məhərrəm əmi, başa düşən üçün bunlar ən dəyərli hədiyyələrdir. Bizim Rəmziyyənin bütün aldığı hədiyyələrdən çox bu hədiyyəyə daha çox qiymət vercəyindən əmin ol, – dedi.

Rəmziyyə də Əhmədin sözünü təsdiq edərək:

– Bundan dəyərli hədiyyə almamışam, – dedi.

Məhərrəm əmi çox oturmadı, bir fincan südlü qəhvə içdikdən sonra getdi. Rəmziyyənin əlini sıxarkən:

– İkinci dəfə sizə gəlincəyə qədər səni türkcə savadlı görməliyəm, – dedi.

Məhərrəm əminin bu hərəkəti həm Əhmədə, həm Rəmziyyəyə olduqca xoş təsir buraxmışdı.

* * *

Əhməd ailə həyatına get-gedə isnişir, get-gedə onu sevməyə başlayırdı. Onun ruhunu sıxan, nəşəsini qaçıran yalnız bir şey vardı: o da onun müsamirələrdə, gəzintilərdə Rəmziyyə ilə yan-yana gəzmək, ictimai yerlərdə öz çiçəyi ilə görünmək arzusu idi. Bunu o dəfələrlə Rəmziyyəyə söyləmiş və ondan yoldaşcasına xahiş etmişdi. Rəmziyyə qəti surətdə rədd edərək:

– Atam bilsə məni parça-parça edər, – demişdi.

Bir gün söhbət əsnasında bu məsələni İsgəndər bəyə açdı.

İsgəndər bəy acı-acı gülümsəyərək:

– Bu fikirdən daşın. Hacı Yunus bilsə qiyamət qoparar, əlindən, dilindən qurtarmaq olmaz, – dedi.

Əhməd bir söz demədi.

Əhməd fövqəladəliyi sevir və ondan da zövq alırdı. Onun ən böyük arzusu mədəni bir ailə həyatı qurmaq, Rəmziyyəni məsləkinə, ruhuna uyğun bir-iki ziyalı ailəsi ilə tanış etmək, onlarla bərabər teatr, kino, müsamirə və gəzintilərdə əylənmək, bu surətlə dinc və şən bir ailə həyatı keçirmək idi.

O bir gün Rəmziyyəsini yoldan çıxardı:

– Bu axşam "Dağılan tifaq" faciəsi gedir. Qadınlara məxsus pərdəli lojalar var, bizi heç kəs görməz. Bax, bilet də almışam. Sən mənim canım rədd eləmə!

Rəmziyyə nə qədər danışdısa, Əhməd qəbul etməyib təkidində davam etdi. Faytona oturub bərabər getdilər. Lakin loja pərdəli deyil, açıq lojalardan idi. Əhməd zor-güc Rəmziyyəni lojaya daxil etdi. Utandığından özünü gizlətməyə yer tapmırdı. O elə zənn edirdi ki, bütün teatra gələnlər ancaq ona baxır. Əhmədin verdiyi suallara bəzən

soyuq cavab verirdi, bəzən də heç vermirdi. O bu işin nəticəsindən qorxurdu.

Ertəsi günü Hacı Yunusa xəbər vermişdilər. Hacı Yunus Əhmədin və qızın dalınca söylənmiş, ağzından çıxanı demişdi. Arvadı onu sakit edə bilməmişdi. O birbaş qızının evinə getmiş, qapıdan girən kimi soruşmuşdu:

– Dünən gecə harda idin?

– Heç yerdə!

– Düzünü de!

– Deyirəm heç yerdə. Nə var ki?

– Canına çor var, dərd var!.. Sən indi üzü açıq matişkalar kimi teatrlarda gəzirsən? Atan, anan getdiyi yoldan azırsan... Vallahi ikinizin də başınıza bir od ələrəm ki... namussuzlar! Heyvanlar!.. Qalx, geyin, gedək! Mənim qızımın namusunu saxlamayan kişiyə mən qız vermərəm.

Əhməd çox yalvardı, yaxardı, "bir daha getmərik", deyə söz verdi. Hacı Yunus qəbul etmədi, zornan qızını götürüb getdi.

Hadisə Əhmədə çox acı təsir bağışladı. Bir həftə gözlədi, on gün gözlədi, Rəmziyyə qayıtmadı. O, Məhərrəm əmini göndərdi. Gülcahan xalanı göndərdi. Nəhayət, özü getdi. Hacı Yunus qəbul etmədi, hətta onun heç üzünə də baxmadı. Rəmziyyə bu getməklə tam bir il atası evində qaldı. Əhməd əvvəlləri çox kədərli və dalğın idi. İşdən evə döndüyü zaman ona zindan kimi görünən otaqlarda özünü bir dustaq kimi hiss edirdi. Sevgili Rəmziyyəsinin ona bir oğul doğduğu xəbəri Əhmədi sevindirmiş, həm də qəm dənizinə batırmışdı.

Qayınanası ona bu işin tezliklə düzələcəyinə söz vermişdi. Əhməd bir gün işdən evə döndü. Xidmətçi qadın yeməyi verdikdən sonra, o, rahatlanmaq üçün yatağa girdi. Nə qədər çalışdısa, gözlərinə yuxu getmədi. Bir saat yatağında acı xəyalların pəncəsi altında əzildikdən sonra köksünü sıxan sıxıntı və həyəcandan dik qalxdı. Paltarını geyindi. Dərdini unutmaq üçün Əşrəfin yanına getdi. Əhməd çox kədərli idi. Üz-gözü bulud kimi tutulmuşdu. O nə qədər özünü şən göstərməyə çalışırdısa, içindəki fırtına simasından oxunurdu.

– Rəmziyyədən, oğlundan nə xəbər? – deyə Əşrəf soruşdu.

Əhməd çibanına bıçaq vurulan adam kimi inlədi:

– Nə bilim, ay Əşrəf, məni oğluma, arvadıma həsrət qoyanın evi yıxılsın.

Əhməd başını aşağı dikərək yenə də fikirli vəziyyət aldı. Əşrəf elə bil onun dərdini bir qədər də artırmaq istəyirdi:

– Əhməd, bu yaşa gəldin, oğul sahibi oldun, yenə də yetimliyin rəngi üz-gözündən silinməyibdir, – dedi.

Bu sözlər Əhmədi tikan kimi yaraladı. Bir an düşündükdən sonra:

– Əşrəf, o zaman ata-anadan yetim idim, indi ailədən yetiməm. Evlikən subay olmaq böyük dərddir, – deyə cavab verdi.

Əşrəf əlini Əhmədin çiyninə vuraraq:

– Düşünmə, onun da bir ləzzəti var, – dedi.

Bu arada qonaq salonundan başdakı kiçik otağa keçmək istəyən Sona Əşrəfin bu sözünü eşidib bərk tutuldu:

– Yoxsa sənin fikrindən subaylıq keçir. Qulağıvın dalını görsən, onu da görərsən. Mən Rəmziyyə deyiləm, allah göstərməsin, bu iş mənim başıma gəlsəydi, bir gününə də dözməzdim.

Bulud arasından çıxan ay kimi Əhmədin üzü işıqlandı:

– Sağ ol, Sona bacı, bax etibarlı arvad belə olar.

– Biz arvadlarda olan etibarın yarısı kişilərdə olsaydı, dünyada bədbəxt bir ailə tapılmazdı.

– Elə demə, Sona bacı, etibarlı kişilər çoxdur.

– Bilirik, Əhməd qardaş, bizim bir ürəyimiz, bir sevgimiz var, kişilər amma elə deyil.

Bu söz Əşrəfin arabir evə gec gəlməsinə işarə idi.

Əşrəf:

– Bilirəm, bu işarəni sən mənə atırsan, ancaq səhv edirsən.

Sona yazıq bir görkəmlə başını yerə dikərək, yan otağa keçdi.

Əşrəf Əhmədi bir daha süzərək:

– Yetim, görürəm çox bikefsən, qalx, qalx. Bu gecə səni şampanskiyə qonaq edəcəyəm, üzüvün, alnıvın qırışları açılsın, – deyə əli ilə onun çiyninə vurdu.

Əhməd gülə-gülə:

– Çoxdandır dilimə dəyməyibdir, həm də dərdimdən ürəyim partlayır, elə bir iş görsən böyük savab etmiş olarsan, – dedi.

Hər ikisi qalxdı.

* * *

Həyati təcrübələrdən çıxarılmış böyük bir həqiqət var: "Alışmış qudurmuşdan yaman olar". O gecə Əşrəf Əhmədi də özü ilə bərabər kazinoya aparmışdı. Hər ikisi salonun sağ qanadındakı dördüncü loja-

ya dirsəklənərək, səhnədə incə, əlvan tüllər içində uçuşan yarımçılpaq rəqqasələri seyr edirdilər. O gecə "qan-qan" rəqsi göstərilirdi.

Salonda, lojalarda, masa ətrafında oturmuş tamaşaçılar dərin bir nəşə içində çəngəllərini, bıçaqlarını qablara qoyub, gözləri ilə yeyəcəklərmiş kimi rəqqasələrin seyrinə dalmışdılar.

Bu "qan-qan" rəqsi qadın düşkünü olan əyyaşların ruhunu oxşayan açıq bir rəqs idi. Rəqsə ən incə, ən lətif və gözəl qızlar cəlb edilirdi.

Hər iki gənc də başqa tamaşaçılar kimi, gözlərini səhnəyə dikərək dayanmışdılar.

Bu zaman qısa boylu, şişman, üzü ətli və üfürülmüş kimi bir adam lojaya girdi. Bitişik, enli qaşları altında parlayan gözlərini onlara dikərək:

– Ağalar, yemək üçün nə əmr edirsiniz? – dedi. Bu sual hər ikisində eyni bir fikir oyatdı. Əhməd laqeyd bir təbəssümlə:

– Nəyiniz var? – deyə soruşdu.

Xidmətçi əllərini döşlüyünə silərək:

– Hər şey, – deyə stol üzərində qoyulmuş yemək siyahısını ona doğru uzatdı. Əhməd kağıza gözucu baxdıqdan sonra:

– Mənə bifşteks gətir! – deyə Əşrəfə baxdı. Əşrəf də eyni səslə:

– O halda mənə də...

– Neçə adamlıq?

Əhməd onun qolundan tutaraq dedi:

– Dostum, yemək dörd adamlıq olacaq. Gecəni əyləncəli keçirmək üçün bizi məşğul edəcək qonaqların dəvətini də sənə həvalə edirik, anladınmı?

Xidmətçi tərəddüdlə əllərini ovmaqda davam edərkən Əşrəf onun ovcuna bir onluq basdı:

– Mənə bax, Arçel, təzə, lətif olmasına diqqət et! Zövqünü göstər!

– Baş üstə. Demək yeməklər qonaqlar gələndən sonra veriləcək?

– Şübhəsiz, iki ədəd gözəl çiçək hazırlamağı da unutma!

Əhməd əlavə etdi:

– İncə bir ruh və zövq sahibi olduğunu bu gecə isbat et!..

Xidmətçi gülərək getdi. Əhməd Əşrəfi şadlıqla süzərək:

– Bu gecəni gərək fövqəladə keçirək, – dedi.

Əşrəf dostunun fikri ilə razı olduğunu bildirdikdən sonra səhnəni göstərdi:

– Əhməd, səhnəyə bax, gör nə qiyamətdir. Bu "qan-qan" baleti mənim ən çox xoşuma gələn bir rəqsdir. Hələ sağdan birinci qıza bax. Nə qədər incə və dilbərdir. Hər necə olsa bununla tanış olacağam.

Hər ikisi onu diqqətlə seyr edərkən xidmətçi lətif və dilbər bir qızla içəri girib hər ikisinə müraciətlə:

– Ağalar, tanış olun! – dedi. Hər ikisi dərhal dik qalxdı. Onun əlindən tutaraq, nəzakətlə orta skamyada oturtdular. Arçel sözünə davam edərək:

– Çox namuslu bir qızdır. Sizinlə ancaq bir dost kimi oturmağa razılıq verdi. Gecəni birlikdə xoş keçirəcəyinizə əminəm.

Əhməd qıza müştəri gözü ilə baxdıqdan sonra:

– Zövqünə mərhəba! Bunun birini də tapmalısan! – dedi.

Xidmətçi gülərək getdi.

Əşrəf nəzakətlə qızın adını soruşdu. Qız nəzakətlə gülümsəyərək:

– Adım Svetlanadır, – dedi.

Əhməd dərhal onun əlindən tutaraq:

– Ox, nə qədər gözəl adınız vardır. Adınızla gözəlliyiniz arasında səmimi bir ahəng var. Siz bizim ruhumuzun qaranlıqlarını işıqlandıran səadət və gözəllik çırağısınız! – dedi.

Əşrəf Əhmədin sözlərini təsdiq edəcək bir ahənglə:

– Yoxsa şübhə edirsən? Svetlana bu gecənin nəzər-diqqətini cəlb edən gözəlliyin canlı bir çiçəyidir. Sözümü uzaqdan-yaxından lojamıza dikilən nəzərlər və durbinlər təsdiq edir, – dedi.

Hər üçünün gözü dərhal lojalara dikildi. Həqiqətən bir çox durbin və nəzərlər Svetlanaya doğru çevrilmişdi. Hər üçü o gecəki müvəffəqiyyət və qalibiyyətdən şənlənərək məğrur baxışlarla lojaları bir-bir gözdən keçirirdi.

Get-gedə qızışmaqda olan "qan-qan" rəqsi qan edirdi. Hamı damarlara hərəkət verən o rəqsi səssiz-səssiz seyr edirdi. Tamaşa zamanı isə Svetlananın hiyləgər gözləri baş lojada onu işarələrlə, busələrlə dəvət edən bir gəncə dikilmişdi. Ancaq o elə bir məharətlə baxırdı ki, yanındakılar heç bir şey hiss etmirdi, çünki aralarında davam edən rəqabət onları o qədər məşğul etmişdi ki, bunu seçəcək halları qalmamışdı. Əhməd qapıya baxaraq:

– Mən ovumu vurdum, allah sənինkini də yetirsin, – dedi.

– Qalx, sən öz tayını tap! – deyə Əşrəf qızın əllərini ovcu içərisində sıxmağa başladı.

– Sən tap, mən tapmışam, elə zarafatlar etmə, canın üçün inciyərəm.

– İncisən də bu ovdan əl çəkən deyiləm!

– Qalx, qalx, sənə tayını tap deyirəm!

– Mən tapmışam, sən tap!

Onlar aralarında gedən gizli rəqabətdən pozulmuşdular. Lakin nəşələri qaçdığı halda özlərini şən göstərməyə çalışır, qızın əllərini əlləri içində sıxır, onu güldürəcək sözlər söyləyirdilər. Bu aralıq səyyar poçtaçı bir qadın qapını açaraq, qıza bir məktub uzatdı. Qız etinasız bir halda məktubun ipək qabını əli ilə yırtaraq, içindəki məktubu oxumağa başladı. Əhməd əlini məktubun üzərinə qoyaraq:

– Boş yerə əmək sərf etməyin, istəsəniz oxumadan məzmununu sizə söyləyim, – dedi.

Qız gülümsəyərək oxumaqda davam etdi. Hər iki rəqib mənalı baxışlarla bir-birini süzdü. Bu zaman Arçel içəri girərək əlindəki çiçək dəstəsini onlara uzatdı. Əşrəf çiçəyi alıb, incə bir nəzakətlə qıza təqdim etdi. Əhməd onu sorucu bir nəzərlə süzərək, sözə başlamaq istərkən Arçel onun sözünü kəsərək:

– Birini tapmışam, – dedi, – ancaq bilmirəm bəyənəcəksiniz?

– Gətir, baxaq!

– Bəlkə bəyənmədiniz, sonra...

– Bəyənməsək, gedər.

– Yox, o yaxşı düşməz.

Əşrəf onun sözünü təsdiq etdi:

– Doğrudur, Əhməd get bax, bəyən.

– Sən qalx!

– Sənə deyirəm qalx, bəyən gəl, hansı kimin olacaq o xüsusda sonra danışarıq.

Arçel dəniz köpüyünə bənzər domba gözlərini onların ağzına dikərək, əllərini önlüyün ətəyi ilə ovuşdura-ovuşdura cavab gözləyənlərə məxsus bir vəziyyət almışdı. Əhməd istər-istəməz bu şərtə razı olub, Arçellə bərabər getdi. Əşrəf qızla dadlı-dadlı söhbət edir, qızın qəlbini çalmaq üçün uzun illər ərzində etdiyi təcrübələrdən istifadə etməyə çalışırdı. Söhbətin qızğın yerində qız birdən-birə qalxdı və nəzakətli bir səslə: "müsaidənizlə, indi gəlirəm" dedi. Qız getdi, Əşrəf qızın qəlbini çalmış olduğuna qəti inanmış olduğundan şirin xülyalardan oyandı. Dönüb baxarkən Əhmədi gördü:

– Qız hanı?

– İndi gələr, səninki nə oldu?

Əhmədin qaşları çatıldı, əsəbi və titrək bir səslə:

– Mənimki indi gələr, səninkinə gəldikdə mən bəyənmədim. istəsən get sən də bax, bəlkə bəyənəcəksən, – dedi.

Əşrəf ona cavab verməyərək, lojanın dirsəkliyinə söykəndi. Əhməd də öz yerində oturdu. Hər ikisi səssizcə rəqsi seyr edir, səbirsizliklə qızın yolunu gözləyir, aralarında oynanan bu dramın necə nəticə verəcəyini düşünür, heç biri bu yeni ovu əldən çıxarmaq istəmirdi. Zaman onlara çox uzun göründü. Saniyələr, dəqiqələr belə sanki ağır-ağır irəliləyərək onlarla əylənirdi. Çox gözlədilər, ruhlarını titrədən o gözəllik çırağı dönmədi. Nəhayət, Əşrəf əsəbiləşərək zəngi basdı və içəri girən xidmətçiyə:

– Arçel, qız gedib qayıtmadı, tez bir xəbər gətir! – dedi.

Arçel beş dəqiqə sonra qızın məşhur sərvətdarlardan Halay bəylə çıxıb getdiyi xəbərini gətirdi. Bu xəbər hər ikisinin başında bir ildırım kimi partladı. Biixtiyar hər ikisi bir-birinə baxdı. Əhməd acı-acı gülərək:

– Bax, yetimin allahı var. Sən onu mənim əlimdən almaq istədin, ona görə də nə sənə qismət oldu, nə də mənə. Burax getsin, iki dostun arasını vuran bir fahişə bizə lazım deyil, – dedi.

Əşrəf qaşlarını çataraq dərin fikrə getdi. Əhvalatı duymuş olan yaxın lojalardan ona dikilmiş istehzalı nəzərlər Əşrəfi xəncər kimi doğrayırdı. O artıq dayana bilmədi, tez qalxıb lojadan çıxdı.

## SƏKKİZİNCİ FƏSİL

Yay olduqca isti keçmişdi. Günəşin altında istilik 56 dərəcəyə, kölgədə 35 dərəcəyə qədər artmışdı. Varlılar, az-çox imkanı olanlar sərin istirahət yerlərinə, Abşeron bağlarına çəkilmişdilər. Məhərrəm əmi öz həyat yoldaşı Firuzə ilə bərabər şəhərdə qalmağa məcbur olmuşdu. Zəki ilə Nəzakət tez-tez onlara baş çəkirdi. İstinin Məhərrəm əmiyə pis təsir etdiyini görüb Zəki qocaları Nəzakətlə bərabər Qala kəndinə aparmaq istədi.

– Məhərrəm əmi, siz bizim Qala bağlarını görməmisiniz. Atamgil də bağdadır. İstidə naxoşlayarsınız. Gəlin sizi aparım bağa.

Zəki ilə Nəzakət nə qədər təkid etdilərsə, Məhərrəm əmi razı olmadı.

– Mənə şəhərdə xoş keçir, Nəzakəti apar qoy o bu istilərdə burda qalmasın.

Nəzakət onlarsız getmək istəmədi. Nəhayət, qocaların təkidi ilə Zəki Nəzakəti aparıb ata-anasının yanında qoydu. Sonralar da nə qədər çalışdı, Məhərrəm əmini yola gətirə bilmədi.

Yandırıcı isti Məhərrəm əmini gündən-günə mum kimi əridib, quru bir skeletə döndərmişdi. Onun kiçik qumral gözləri, dərin və çuxur təşkil edən kölgəli göz həlqələri içində sönük-sönük parıldayır, bir tutumluq ağ saqqalı ətsiz çənəsi üzərindən boğazına doğru qıvrılaraq uzanırdı. Vücudu o qədər ərimişdi ki, paltarı əynindən tökülür, şlyapası gözünün üstünə düşürdü. Qocalıqdan sarsılmış, əsəb xəstəliyi artmışdı. Zəki gedib tanış həkimlərdən çağırdı. Həkimlər onu xəstəxanaya aparmağı təkid etdilər. Məhərrəm əmi qəti surətdə rədd etdi. Firuzə yaşlı gözləri ilə həkimə dedi:

– Cənab həkim, çox israr etməyin, bilirəm, getməz, getsə də məncə faydasızdır. O, artıq son günlərini, son dəqiqələrini yaşayır. Ömür yoldaşıma əlimdən gəldiyi qədər xidmət etmək mənim üçün bir təsəllidir.

Firuzə xəstəni bir an gözdən qoymurdu. Həkimin yazdığı dərmanı ona vaxtlı-vaxtında içirir, üstündə gecə-gündüz yarpaq kimi titrəyirdi. Firuzəyə bağdan yenicə qayıtmış Nəzakət də çox kömək edir, qoca analığına təsəlli verir, Məhərrəm əminin birdən-birə belə düşməsindən çox kədərlənirdi. O dəfələrlə paltarını geyinib, iri düyünlü əl ağacını götürüb küçəyə çıxmaq istərkən, Firuzə min dil, min fəndlə onu fikrindən daşındırmışdı.

Məhərrəm əmi bir gün səhər çox erkən oyanmışdı. Firuzə yatırdı. Paltarını geyindi, ağacı əlinə aldı, mühüm bir iş üçün gedən adamlara məxsus bir tövrlə qapıya gəldi. Qapının dəstəsindən tutub çəkdi, qapı açılmadı. Əlindəki ağacla gücü gəldikcə qapıya çırpdı. Səsə Firuzə dəhşətlə gözlərini açdı. Məhərrəm əmini görüncə yerindən sıçradı, uşaq kimi onu dilə tutaraq:

– Gözüm, quzum, Məhərrəm, bu zaman sən hara gedirsən? – deyə soruşdu.

– Aç qapını, Allahın yanına gedirəm, – dedi.

– Allah ilə nə işin var?

– Aç, aç, ona şikayətim var...

– Məhərrəm, sən xəstəsən, gəl dərmanını iç, yaxşı ol, səni allahın yanına özüm aparacağam.

Firuzə zorla onu soyundurub yatağına uzatdı.

O gün Məhərrəm əmi çox əsəbi idi. Ancaq günortadan sonra Firuzə onu yatırmağa müvəffəq oldu. Bundan istifadə edərək, mətbəxə girdi və Məhərrəm əmiyə meyvə kompotu hazırlamağa başladı. Qonşusu Zivər xanım ona yaxınlaşıb yavaşca:

– Məhərrəm əmi necədir? – deyə soruşdu.

Firuzə Məhərrəm əminin etdiyi işlərdən, onun xəstəliyindən danışdı. Söz-sözü çəkdi, iki qadın arasında söhbət uzandı.

Məhərrəm əmi oyanıb, "Firuzə, Firuzə!" – deyə bir neçə dəfə səsləndi. Cavab çıxmadı. Yerindən qalxıb geyindi, ağacını da əlinə alıb qapıdan çıxdı.

Məhərrəm əmi evdən çıxdıqdan sonra Firuzə söhbətini bitirib, otağa girdi. Məhərrəmi yataqda görməyib ağlı başından oynadı, dəli kimi başıaçıq, ayaqyalın küçəyə qaçdı. O, sağa baxdı, sola baxdı, yoldan keçən adamlardan: "Başında qəhvəyi şlyapa, əlində ağac, boz kostyumda, qoca, arıq bir kişi görmədinizmi?" – deyə soruşdu.

Ondan xəbər verən olmadı. Firuzə ağlaya-ağlaya evə döndü. Paltarını geyindi. Qapını bağlayıb evdən çıxdı. Küçələri, yaxın bağçaları dolaşdı. Nəzakətgilə getdi. Tanıdığı adamlardan soruşdu. Onu "gördüm" deyən olmadı. Yazıq Firuzə nə edəcəyini bilmədi. Zəkinin vasitəsi ilə polis idarəsinə xəbər verdi. Telefonla xəstəxanadan soruşdu, bildiyi, tanıdığı adamlara, Məhərrəm əminin ən yaxın dostlarına müraciət etdi, bir fayda vermədi.

Bu xəbər sürətlə bütün şəhərə yayıldı. Eşidən heyrət etdi. Xüsusən, bu, gənc ziyalılarda daha acı bir təsir oyatdı. Hamı, yaşca qoca olmasına baxmayaraq, fikircə zamanına görə yeni olan bu adamın qaragüruhçular tərəfindən öldürüldüyünü zənn edirdi.

Bütün ziyalılar yas və matəm içində idilər. Onun belə facianə taleyi hər kəsdən çox Firuzəyə təsir etmişdi. O, gecə-gündüz ağlayır, göz yaşları qurumurdu... Hıçqıra-hıçqıra ağlayan Nəzakətin təsəlliləri də Firuzəni sakit etmirdi.

* * *

Məhərrəm əmi küçəyə çıxar-çıxmaz üç dəliqanlıya təsadüf etdi. Onlar Məhərrəm əmini dinsiz, imansız, millət xaini kimi tanıyan cahillərdən idilər. Əllərində səbət, zənbil Şüvəlan bağlarına gedərkən Məhərrəm əmini görüb, "Bu donuz güdən qoca hara gedir?" – deyə onu kinli baxışlarla süzdülər. Onlardan biri istehzalı bir səslə:

– A kişi, hara gedirsən? – deyə soruşdu.

– Ay oğullar, Allahı görməyə gedirəm, onun evi hardadır? – deyə Məhərrəm əmi zəif bir səslə cavab verdi.

Bu sözdən hamısı bir-birinin üzünə baxıb gülüşdülər. Birisi soruşdu:

– Allahı neyləyirsən?

– Ona şikayətim var.

– Ay əmi, Allahın evini mən tanıyıram, gəl səni aparım.

Məhərrəm əmi sevinib, ona xeyir-dua elədi. Həmin cavan oğlan fayton çağırdı, yoldaşları ilə birlikdə onu faytona oturdub, Şüvəlan bağlarına apardılar. Yolda Məhərrəm əmi ilə aralarında keçən qısa sual-cavabdan sonra onun nə qədər saf, nə qədər təmiz bir qəlbə, sarsılmaz bir imana malik olduğunu bildilər, milli düşmən kimi baxdıqları bu qocaya münasibətləri dəyişdi. Bir-iki gün onunla əylənmək fikri ilə bağa apardıqları halda on-on beş gün ona xidmət etməyi qərara aldılar. Qocanı ürəkdən o qədər sevdilər ki, hər biri onu öz bağına aparmaq istədi. Hətta aralarında bu xüsusda artıq-əskik söz də oldu. Nəhayət, sıra ilə hər biri onu öz evində bir neçə gün qonaq saxlamaq şərti ilə razılaşdılar.

Məhərrəm əmi birinci dəfə Eldarın evində qaldı. O, bağa girincə ətrafa boylanaraq:

– Allah hanı? – deyə soruşdu.

Eldar:

– Məhərrəm əmi, sən bir az dincəl, Allahın yanına səni özüm aparacağam, – dedi.

O bu sözü o qədər qəti, inandırıcı bir səslə söylədi ki, Məhərrəm əmi susmağa məcbur oldu. Eldar onu otağa apardı, sərin su ilə əlini, üzünü yudu. Süfrə açıldı. Yemək gətirdilər. Qovun kəsildi. Sərin suda yuyulmuş bir qab üzüm gətirdilər. Eldar üzünü Məhərrəm əmiyə tutub dedi:

– Məhərrəm əmi, bu Allah süfrəsidir. Xudavəndi-aləm öz elçisini göndərib mənə tapşırıb ki, Məhərrəm əmiyə qulluq elə. Bir saatdan sonra gətirərsən yanıma.

Məhərrəm əmini yol yormuşdu. Yeməyə, danışmağa iqtidarı qalmamışdı. Yastığa söykənib mürgüləyirdi. Zor-güc ona bir az yemək yedirtdilər. Yeməkdən sonra yatdı. Cavanlar iri əncir ağacı altında toplanıb Məhərrəm əminin məsələsini həll edirdilər, biri deyirdi:

– Bu kişi xəstədir. İstidən beyni xarab olub, ona həkim çağırmaq lazımdır.

O biri deyirdi:

– Həkim, qulluq öz yerində, bu kişinin arzusu var. Bəlkə onu xəstə edən o arzudur. Kişi ağzında deyir ki, Allaha şikayətim var. Görək bu nə istəyir, kimdən şikayət edir, ona görə iş görək.

– Çox da arzusu var, biz Allahı ona necə göstərək?

Eldar əlini köksünə vurub dedi:

– Mən göstərrəm, mən!.. O bu saat hər şeyə inanır. Siz mən deyənə baxın, həm bir az kef çəkərik, həm də o kişinin ürəyini ələ alarıq. Qalxın, qalxın, o kişi oyanınca hazırlıq görək!

Eldarın təşəbbüsü ilə xiyaban arasına xalı sərdilər. İri bir taxt gətirdilər. Taxtın üstünə bir kreslo qoydular. Eldar Buxara və Səmərqənd işi olan zərli, uzun bir xələt və təsək gətirtdirdi. Qonşuda Rəşid adlı qoca, dünya görmüş, arif bir kişi vardı. Əhvalatı ona söylədilər. Xələti əyninə taxdılar, təsəyi başına qoydular, üzərindən də ağ cuna sarıdılar. Rəşidi allah adına taxtın üzərindəki qoltuqlu iri kresloya oturtdular, hər iki tərəfində əli dəyənəkli fərraş qoydular. Qonşudan adamlar çağırdılar, məclis istənildiyi kimi hazır oldu.

Məhərrəm əmi oyanmışdı. O yenə sərsəmləyir və bəzi çaşqın hərəkətlər edirdi. Eldar onun qolundan tutub bağa çıxartdı. Xiyabanın bir tərəfindən su şır-şır axırdı. Eldar dedi:

– Məhərrəm əmi, heç bilirsən səni hara gətirmişəm? Bu cənnət bağıdır, bu su da kövsər suyudur. İç bu sudan, səni Allahın yanına aparacağam.

Məhərrəm əminin gözləri axdı, özünü suya atmaq istədi, Eldar onu tez tutdu. Üzünə sərin su vurdu. Ona bir fincan su uzadıb:

– Al, bu kövsər suyundan iç! – dedi.

Məhərrəm əmi heyrətlə açılan gözlərini Eldara dikib:

– Nə, kövsər suyu? – deyə soruşdu.

Eldar sözünü təkrar etdi:

– Bu kövsər suyundan iç, Allah səni çağırır, gedək. Məhərrəm əmi suyu alıb içdi. Eldarın qoltuğunda gedə-gedə:

– Bircə o Allahı mənə göstərin! – dedi.

Məclis tamam dəsgahı ilə qurulmuşdu. Eldar əli ilə taxt üstündəki Rəşidi göstərib:

– Bax, Allah odur, nə şikayətin var, de!

Məhərrəm əmi bir-iki saniyə gözlərini Rəşidə dikib qaldı. Sonra yanındakı adamdan soruşdu:

– O kimdir?

Yanındakı kişi qəti səslə cavab verdi:

– Görmürsən kimdir, Allahdır, divan kəsir.

Məhərrəm əmi bunu eşidincə yıxıla-yıxıla irəli getdi. Üzünü Rəşidə tutub dedi:

– Ey böyük Tanrı, mənim ürəyimdə arzularım var.

Rəşid kişi qəti və qalın bir səslə:

– Ey mənim bəndəm, bu gün divan günümdür, qorxma, nə mətləbin var, danış! – dedi.

Məhərrəm əminin uşaq kimi sevincindən əli, ayağı əsdi.

– Ey Tanrı, hökm elə o Nəsirqulunu divan ayağına çəksinlər, ona deməyə sözüm var.

Rəşid kişi bir az düşündükdən sonra:

– Ey bəndəm, Nəsirqulu adlı bəndəm çoxdur, hansı Nəsirqulunu deyirsən?

Məhərrəm əmi Rəşidin sözünü yaxşı anlamadı. Eldar və başqaları Rəşidin sözünü ona başa saldıqdan sonra qoca bağırdı:

– O İran padşahı var ha... onu deyirəm...

Rəşid əli ilə saqqalını oynada-oynada:

– Doğru deyirsən, bacı oğlu, o mənim günahkar bəndələrimdəndir. Tez üzünü fərraşlara tutub bağırdı:

– Tez Nəsirqulunu mənim hüzuruma gətirin!

Göz açıb-yumunca fərraşlar əllərində toppuz Nəsirqulunu çəkə-çəkə gətirdilər. Rəşid üzünü Məhərrəm əmiyə tutub dedi:

– Bacı oğlu, bu sən istədiyin Nəsirqulu, de görüm sözün nədir?

Məhərrəm əmi qəzəblə onun üstünə kükrədi:

– Axmaq kişi, bu İranı niyə viran qoyursan? Firəngistandan bəri gedib gəzdin, özün üçün bir vaqon... yubka gətirdin, o sənin öz başına dəysin, de görüm xalqa nə gətirdin?

Rəşid kişi əlini qoltuqlu kresloya çırparaq:

– De, bacı oğlu, de, yaxşı deyirsən...

Məhərrəm əmi üzünü fərraşlara tutub bağırdı:

– Vurun bu axmaq kişini!

Hər yandan günahkarın üstünə toppuz endi. Nəsirqulu ölü kimi yerə sərildi. Fərraşlar onu götürüb apardılar.

Rəşid kişi üzünü Məhərrəm əmiyə tutub dedi:

– Bacı oğlu, daha nə istəyirsən?

Məhərrəm əmi yalvara-yalvara dedi:

– Başına dönüm Allah, o Həmidqulunu da əmr et gətirsinlər.

Rəşidin əmri ilə Həmidqulu adında bir kişini də çəkə-çəkə gətirdilər. Məhərrəm əmi onu görəndə dayanıb diqqətlə ona baxdı. Sonra soruşdu:

– Sənin adın nədir?

O kişi cavab verdi:

– Adım Həmiddir.

Məhərrəm əmi acıqlı gözlərini onun gözlərinə dikib bağırdı:

– Sarsaq kişi, sən neçin azadlıq istəyən ağıllı, oxumuş cavanları Qara dənizdə boğursan? Vurun bu qanlı sultanı!

Onun da üstünə hər tərəfdən toppuz endi. Onu da ölü kimi götürdülər. Rəşid kişi yenə soruşdu:

– Məhərrəm əmi, daha nə istəyirsən? Bu gün kefim yerindədir, nə istəsən edəcəyəm.

– Tək bircə arzum qaldı, onu da elə, daha heç zad istəmirəm.

– De, bacı oğlu, de!

– Xalqı soyan, mövhumatla başları dolduran mollaları gətirsinlər.

Rəşidin əmri ilə başı sarıqlı bir neçə kişi gətirdilər. Məhərrəm əmi yorulmuşdu. Nə durmağa, nə də danışmağa halı vardı. Ona görə mollaları acı-acı süzdükdən sonra üzünü Rəşidə tutub dedi:

– Bunlar xalqı aldadıb oxumağa qoymurlar. Əgər adam olsaydılar bizim ölkəmiz Rusiya olardı. Vurun bunları!

Fərraşlar əllərində toppuz hər yandan tökülüşdülər. Fərraşlar vurduqca mollalar bağırırdı.

Məclisi gülüşmə və gurultu bürüdü. Məhərrəm əmi əsə-əsə geri çəkildi. Eldar tez onun qoltuğuna girdi. Rəşid kişi gurlayan və qəti bir səslə bağırdı:

– Eldar, mənim qonağımı apar, yaxşı hörmət et!

Eldar Məhərrəm əmini evə apardı. O yorulmuşdu. Lakin ona zövq verən bu hadisədən üz-gözü nəşələr içində parıldayırdı.

Bu gəlişlə Məhərrəm əmi on beş gün bağlarda qaldı. Get-gedə vücudu qüvvətlənməyə, çaşqınlığı azalmağa başladı. Şüurunu toplamış olduğundan bura necə gəldiyini və kimin tərəfindən gətirildiyini soruşdu. Cavanlar:

– Biz səni qonaq gətirmişik, – deyə cavab verdilər.

– Bəs Firuzə nə oldu?

– O, şəhərdə qaldı.

Məhərrəm əmi Firuzəsini görmək istəyirdi. Çox xahiş etdikdən sonra cavanlar onu yenidən şəhərə apardılar.

Məhərrəm əmi qapını açıb içəri girən kimi Firuzə dəlitək yerindən sıçradı. Başına saldığı qara matəm cunasını yerə ataraq:

– Vay, Məhərrəm, gəldin? – deyə ağlaya-ağlaya boynuna sarıldı. Məhərrəm əmi "qeyb" olandan sonra Firuzənin yanında qalan Nəzakət də bir tərəfdən:

– Qurban olum sənə, ay ata, harada idin? – deyə hıçqıra-hıçqıra ağlamağa başladı. Məhərrəm əmi çaşmışdı, əvvəlcə döyükə-döyükə Firuzəyə və Nəzakətə baxdı, sonra birdən-birə o da hönkür-hönkür ağladı.

Eldar təsəlli verərək, onları bir qədər sakit etdi; sonra Məhərrəm əmini necə bağa apardıqlarını danışdı.

Firuzə sevindiyindən bilmirdi nə etsin. Pərvanə kimi Məhərrəmin başına dolanırdı. Əvvəlcə onun əlini, üzünü sərin su ilə yudu, yatağını səliqəyə salıb yerinə uzatdı, sonra qonşulara yüyürüb, Məhərrəmin gəlməsini xəbər verdi. Qonşular axıb töküldülər. Bu işdən xəbər tutan ziyalılar da çox sevindilər.

On beş gün bağ istirahətinin Məhərrəm əminin səhhətinə az-çox yaxşı təsiri olmuşdusa da, lakin tamamilə sağalmamışdı. O yenə arabir məntiqsiz sözlər deyir, qeyri-adi hərəkətlər edirdi.

Axşamüstü Zəki gəlib çıxdı. Məhərrəm əmini evdə görüb sevincindən nə edəcəyini bilmədi. Qocanı qucaqlayıb bağrına basdı, bir neçə dəfə alnından, üzündən öpdü. Lakin Məhərrəm əmi Zəkini ilk əvvəl tanımadı:

– Sən kimsən? – deyə soruşdu.

– Məhərrəm əmi, mən Zəkiyəm, Zəki! – deyə bir qədər ucadan o cavab verdi. Məhərrəm əmi Zəkini tanıyınca əlindən tutdu, ətrafı diqqətlə nəzərdən keçirdikdən sonra kəsə-kəsə:

– İndi sənə çox qəribə hadisə danışacağam, – dedi.

Məhərrəm əminin bu vəziyyəti Zəkini son dərəcə pərişan etdi. O bir qədər də qocaya yaxınlaşdı, onu dinləyir kimi bir vəziyyət aldı. Məhərrəm əmi isə mühüm bir hadisə söyləmək istəyən adamlar kimi ətrafı yoxladı, bürüşük gözlərini heyrətlə açmağa çalışaraq sözə başladı:

– Zəki, mən öz arzuma çatdım!

Zəki bu arzunun nədən ibarət olduğunu bilmək üçün heyrətlə soruşdu:

– Məhərrəm əmi, hansı arzuna?

Məhərrəm əmi özünü bir az da doğruldaraq:

– Zəki, – dedi, – bundan sonra qorxma, Nəsirqulunu da, Həmidqulunu da, mollaları da öldürtmüşəm.

Zəki Məhərrəm əminin dediklərinə diqqətlə qulaq asırdı. O, Allahın yanına getməsindən başlayaraq, bütün təfsilatı ona uzun-uzadı danışdı. Zəki dərin bir sükut və iztirab içində Məhərrəm əmini dinləyirdi.

O, ata kimi sevdiyi bu namuslu qocanın ağır vəziyyətindən təsirlənərək, dalğın gözlərini yerə dikib düşünür, bir tərəfdən onun bu hala düşməsinə ürək yanğısı ilə acıyır, o biri tərəfdən də yoxsul bir kəndli ailəsindən yetişib, öz xalqına və məmləkətinə bu qədər məhəbbət bəslədiyinə heyrət edirdi.

Məhərrəm əmi başına gələnləri Zəkiyə danışdıqdan sonra süst düşdü. Firuzə onu yatağa uzadıb sakit etdikdən sonra bağ səfərini Zəkiyə nağıl etdi.

Ertəsi gün Zəki məşhur həkimlərdən bir konsilium təşkil etdi. Həkimlər xəstəni müayinə etdikdən sonra dedilər:

– Xəstənin vəziyyəti ağırdır. Nəbzi zəif vurur. Əsəbləri tam sarsılmışdır. Onun ən yaxşı müalicəsi sakitlik və dinclikdir.

Məhərrəm əmini xəstəxanaya qoymaq istədilər, ancaq bu da baş tutmadı. Qoca xəstəxana adı gələndə elə bil, bağrı çatlayırdı. Hətta bir gün "Bir dostun evinə gedirik" deyə onu xəstəxanaya tərəf gətirmişdilər. O, xəstəxananın qapısını görən kimi dayanmış, acıqlı-acıqlı ətrafındakılara baxaraq:

– Məni hara aparırsınız?! – deyə hiddətlənmiş, acığından hönkürə-hönkürə ağlamışdı. Onun yanında xəstəxana adı çəkmək mümkün deyildi. Nədənsə xəstəxanaya qarşı nifrəti vardı.

Odur ki, Firuzə onu evdə sağaltmağa qərar verib, bütün qüvvəsini sərf edirdi. Həkimlərin tapşırıqlarına əməl etməyə çalışır, xəstə üçün hər cür şərait yaradırdı. Ancaq nə edirdisə də Məhərrəm əminin gəzməyinin, küçəyə çıxmasının qabağını ala bilmirdi. Buna heç Zəki ilə Nəzakət də mane ola bilmirdilər. O hər gün istədiyi zaman evdən çıxır, istədiyi səmtə gedir, qabağına çıxan tanışlarla görüşür, rabitəsiz, məntiqsiz sözlər danışmaqda davam edirdi.

Bu vəziyyət Məhərrəm əminin əsəb xəstəliyini daha da artırır, vücudunu get-gedə zəiflədirdi. Səhhəti o qədər pozulmuşdu ki, artıq ən yavuq dostlarını da tanıya bilmirdi. Tanıyanda da yapışqan kimi ondan qopmaq istəmir, Allahla görüşməsindən başlayaraq, padşahları, molları fərraşlara döydürməsindən uzun-uzadı danışırdı.

Məhərrəm əmi on-on beş gün bu halla yaşadı. O birdən-birə yeməkdən və hərəkətdən qaldı. İki gün sonra günəş qərb buludlarının arasında gizlənərkən onun da xatirəsi başı üstündə həsrətlə son görüşə toplanmış olan ziyalıların qəlbinə gömüldü.

* * *

Rəmziyyənin oğlu olduqdan sonra Hacı Yunus çox yumşalmışdı. Əhmədlə barışmağa, onu oğlu Gəraya və Rəmziyyəyə qovuşdurmağa kiçik bir bəhanə axtarırdı. Bunu qızın anası hiss etmiş olduğundan bir gün Hacının ağzını yoxlamaq fikri ilə dedi:

– Hacı, sənə bir söz deyəcəyəm, acığın tutmasın. O gün Gəray ağlayırdı. Rəmziyyə uşağı kiritmək üçün qucağına aldı. Döşünü çıxarıb verdi, uşaq əmmədi, yenə də bərkdən ağlamağa başladı. "Atalı yetim, daha niyə ağlayırsan?" – deyə Rəmziyyənin gözləri doldu. Onun bu sözündən ürəyimin başı odlandı. Görürəm qız ərindən, evindən ayrıldığına dərdlənir. Hər ikisi cavandır. Allaha xoş getməz. Bu vaxta qədər yazıq yetim oğlunun üzünü görməyibdir. O bizə hörmət saxlayır, bizim insafımıza nə deyirsən? "Heç olmasa uşağımı versinlər görüm", – deyə adam-adam üstündən göndərir. Xalq da bizə yaxşı deməz. Sən gəl bunların günahından keç, iki həsrətlini bir-birinə qovuşdur.

– Sən mənə söz öyrətmə, onu mən də bilirəm, ancaq onlara belə bir cəza gərək idi. Mən cəzamı verdim. Bir də belə iş görməmək şərti ilə gəlsin arvadını, uşağını aparsın, sözüm yoxdur.

Hacının sözü arvadını sevindirdi. Oturduğu yerdən cəld qalxaraq, Rəmziyyəni müjdələmək üçün getdi.

Kazino hadisəsindən sonra Əşrəf Əhmədlə əlaqəsini büsbütün kəsmiş və onu təhqir edərək ayrılmışdı. Bu hadisə Əhmədə olduqca acı təsir buraxmışdı. Subaylıq həyatı, kimsəsizlik də onu bir tərəfdən sıxır, saatlarla düşünür, kədərlənir, bu əzici həyatdan qurtarmaq üçün tədbir və çarə axtarırdı. Hətta Hacı Yunusdan məhkəməyə şikayət etməyi qərara almışdı.

Bir gün yeməkdən sonra qoltuqlu sandalyaya yayılaraq qəzet oxuyarkən Hacı Yunusun xidmətçisi yemək otağına girdi. Əhməd onun səsini eşidincə əlindən qəzeti alıb, dimdik qalxdı və xidmətçi qızı görüncə:

– Ay qız, xeyir olsun! – deyə soruşdu. Xidmətçi qız gülə-gülə:

– Xeyirdir, qorxma, muştuluğumu ver, ağa da, xanım da səni çağırır, – dedi.

Əhməd dərhal məsələni duydu:

– Demək, axır insafa gəldilər. Rəmziyyə necədir?

– Necə olacaq, şadlığından əl-ayağı yerə dəyməyir.

– Demək barışmaq istəyirlər, bu çox yaxşı oldu. Hələ de görüm, Gəray mənə bənzəyirmi?

– Yox, sənə bənzəmir, qohum-qardaş deyir ki, lap babası Hacı Yunusun özüdür.

Əhməd gülə-gülə:

– Paho, elə isə ondan qorxmaq gərəkdir! – deyə qızın ovcuna beş manatlıq basdı.

– Al, bu sənin muştuluğun. Sonra yenə də görüşərik.

O gün Əhməd Hacı ilə barışmışdı. Bir il həsrətini çəkdiyi gözəl Rəmziyyənin, oğlu Gərayın evinə qayıtması Əhmədin üz-gözünü işıqlandırmış, könlünü şənləndirmişdi. Əhməd ailə həyatını sevdiyi üçün o gündən öz namusu və vicdanı qarşısında Rəmziyyəyə sadiq qalmağa söz verdi. Onu indi nə kazinoda rəqs edən qızlar, nə öz namusunu pula satan svetlanalar, nə də əyyaşlıq, içki və qumar maraqlandırırdı. O indi ancaq ad, şöhrət və sərvət qazanmaq xülyası ilə yanırdı. Əhməd qayınatası Hacı Yunusun və başqa qohum-əqrəbasının köməyi ilə şəhər dumasında ən mühüm bir şöbəyə sədr təyin edilmişdi. Üzvlükdən və tutduğu yüksək mövqedən istifadə edərək, ucuz qiymətə boş torpaq alır, bir qismini baha qiymətə satır, bir qismini tikdirir, bu yolla böyük mülkədar və sərvətdar olmağa çalışırdı. Ziyalıların könlünü almaq fikri ilə "Nicat", "Nəşr-maarif" cəmiyyətlərinə üzv yazılaraq hər il üzvlük haqqı verir, böyük müsamirələrdə bir az maddi köməklik etməklə kifayətlənirdi. Əhməd çox dəyişmişdi. Onu nə ictimai işlər maraqlandırırdı, nə də xalqın, vətənin müqəddəratı. Sərvəti, şöhrəti artdıqca xalqa olan münasibəti də dəyişirdi. Onun ictimai şüuru inkişaf etməkdənsə gündən-günə geriləyirdi.

Şəhər duması hər il yay tətili münasibəti ilə ali məktəblərdən vətəninə qayıtmış yoxsul tələbələrə vəzifə verirdi.

İki yoxsul tələbə yay tətilindən istifadə edərək, kiçik bir vəzifə üçün onun yanına getdi. Əhməd onları iki saat qapıda saxladıqdan sonra qəbul etdi. Hər ikisi öz vəziyyətini ona söylədikdən sonra kiçik bir vəzifə istədilər. Onların gülə-gülə sərbəst danışmaları Əhmədin xoşuna gəlmədi. Onları qürurla dinlədikdən sonra stol üzərindəki zəngi basdı, katibi çağırdı. Onlara vəzifə verəcəyini düşünən tələbələr çox şad oldular. Qapıçı içəri girdi. Əhməd üzünü ona tutaraq, məğrur bir görkəmlə:

– Bunları kabinədən çıxart! – deyə əmr etdi.

Gözlənilməz bu hadisədən tələbələr donub qaldılar. Bu təhqirə dözməyərək, Əhmədi təhqir etdikdən sonra kabinəni tərk etdilər.

## DOQQUZUNCU FƏSİL

Qızı olduqdan sonra Əşrəf Sonaya ancaq bir ana kimi baxırdı. Qəlbinin içini dolduran əvvəlki səmimiyyət və məhəbbət get-gedə sönməyə və boşalmağa başlayırdı. O, indi müxtəlif bəhanələrlə gecələr evə vaxtsız qayıdır, rəftarında, hərəkətlərində Sonaya qarşı əvvəlki qədər səmimi görünə bilmirdi. Sona isə eşqini kimsə ilə bölüşmək istəmədiyindən gecə-gündüz onun keşiyini çəkir, dəlicəsinə sevdiyi Əşrəfini özünə bağlamaq üçün çarələr düşünür və onu dərhal tətbiq etməyə çalışırdı. Lakin bunların səmərəsiz və təsirsiz qaldığını və ailə həyatındakı sevgi və səmimiyyətin Əşrəf tərəfindən gündən-günə ayaqlanıb, insafsızcasına tapdalandığını gördükcə kədərlənirdi. O çox düşündü, bir çox tədbir və çarəyə əl atdı, amma heç biri fayda vermədi. Son tədbir olaraq bir gün:

– Əşrəf, teatra gedəndə məni də özünlə apar, – deyə yalvardı.

– Bunu sənə kim öyrədib?

– Heç kəs, mən də görmədiklərimi görmək istəyirəm.

– Yox, bu sənin başına gələn fikir deyil, doğru de, bunu sənə kim öyrədibdir?

Sona qaşlarını çataraq bir an düşündü, sonra köksünə dikmiş olduğu kiçik başını qaldıraraq:

– Kim öyrədibdir? Sənə olan eşqim, – deyə cavab verdi.

Əşrəf istehza ilə güldü:

– Arvad ağzından birinci dəfədir ki, belə söz eşidirəm. Qadında eşq olmaz, ehtiras olar.

Bu söz bir xəncər kimi Sonanın qəlbinə saplandı. Bir anın içində dəyişdi.

– Bunu kim deyir? Qadının ürəyi yoxdurmu?

– Var, ancaq aldadıcı bir ürəyi var. Odur ki, şəriətimiz qadınlara açıq gəzməyə yol vermir.

– Kişilərə qadınlarla qol-qola gəzməyə yol verirmi?

– Kişi başqa... Qadın kişinin namusudur. Mən səni yanıma salıb, min bir millətin içində teatr və ya müsamirəyə apara bilmərəm. Bundan gözünü çək!..

Sona daha cavab vermədi. Əşrəfin bu hərəkəti onu tamam sarsıtmışdı. O indi ərinin çirkin yollarda dolaşdığını və ona tamamilə başqa gözlə baxdığını anlayırdı.

* * *

Əşrəf paltarını geyinib evdən çıxdı. O bu gün çox nəşəsiz idi. Kazino lojasında gözəl qızın onu qoyub qaçması, o gecə başqa lojalardan varlı oğlanlarının ona dikilən istehzalı baxışları Əşrəfin qəlbini neştər kimi dəlmişdi. Bu təhqirləri öz qürurunu sığışdıra bilmədiyindən onlara cavab olaraq, ən gözəl bir qızla tanış olmaq qərarına gəlmişdi. Yolda hara gedəcəyini hələ təyin etməmişdi. Birdən o gün baletdə iştirak edən bəyəndiyi qız yadına düşdü. Üz-gözündən kədər kölgəsi silindi, o qızı ələ keçirmək ümidi ürəyinə qüvvət verdi. Oradan birbaş kazinoya gedərək, bir vasitə tapıb o qızla tanış olmağa qərar verdi.

Ağamürsəlin Abram Bakşteyn adlı bir hesabdarı vardı. Əşrəf Moskvadan dönüncəyə qədər Ağamürsəl onu çıxarıb yerinə başqa bir hesabdar qəbul etmişdi. Əşrəf kazinoya gedərkən həmin Abrama təsadüf etdi. Görüşüb bir-birindən xəbər tutmağa başladılar. Ayaqüstü söhbət uzun, həm də maraqlı olduğundan Abram Əşrəfi güclə evinə apardı, onu arvadı və o gün onlara qonaq gəlmiş bacısı qızı Sara ilə tanış etdi. Əşrəf Saranı görən kimi bəyəndi və ürəyində: "Nə gözəl, nə müdhiş afətdir!" – dedi.

Onlar oturub söhbət etdilər. Abram Bakşteyn yoxsul, ancaq səliqəli bir süfrə açdı. Yedilər, içdilər. Söhbət uzandı. Hər mövzuda danışdılar. Qısası, silkələnməmiş bir budaq qoymadılar. Gecə gec qalxdılar. Gedərkən Abram da Saranı evə ötürmək üçün paltosunu geymək istədi. Əşrəf qızı ötürməyi öz üzərinə götürdü və Abramın zəhmət çəkməsinə razı olmadı. Küçəyə çıxınca bir faytona oturdular, Əşrəf qızı evlərinə qədər apardı. Qız təşəkkür üçün Əşrəfin əlini sıxarkən evlərini göstərdi:

– Bizə də gəlin! Çox sevinərik, bu təsadüfdən isə son dərəcə razı qaldım. Evimizi tanıdınız, məni unutmayın, – dedi.

Bu sözlər Əşrəfin qəlbinə yağ kimi yayıldı. O həmin gündən sonra Saranın evinə ayaq açaraq gəlib gedirdi.

Saranın atası kiçik bir məmuriyyətdən aldığı az maaşla böyük ailəni çox çətinliklə idarə edə bilirdi. Halbuki Sara artıq böyümüş, nazlı, qəmzəli bir qız olmuşdu. Gözəl yemək, gözəl geyinmək, müsamirələrdə, gəzintilərdə, teatrlarda görünmək, xoşladığı gənclərə özünü bəyəndirmək istəyirdi. Atasının aldığı az maaşla bu arzusuna nail ola bilmirdi. Bu ehtiyac Saranı Əşrəfə bağlayırdı.

Əşrəf gördüyü ilk gündən Saranı xoşlamışdı. O yalnız gənc qızın gözəlliyinə yaraşmayan biçimsiz libasını bəyənməmişdi. Qızı yeni moda ilə tovuz quşu kimi bəzəmək, bu ürkək ceyranı bir təhər özünə ram etmək onun ən böyük arzusu idi. Əşrəf bu arzusuna gözlədiyindən tez qovuşdu. Sara artıq o Sara deyildi. O, indi gözəl, yeni moda ilə geyinərək Əşrəflə müsamirələrə, teatrlara gedirdi. Hər şeydə başqalarından seçilmək istəyən şöhrətpərəst, məğrur Əşrəf Sara ilə qol-qola dolaşdığı zaman özü kimi qadın düşkünlərinin ehtiraslı baxışlarını gördükcə qıza daha da yaxınlaşaraq, bir yenilik göstərməyə çalışır, qürurundan yerə-göyə sığmırdı.

Sara gündən-günə gözəlləşir, yeni açılmış qönçə kimi ətri ətrafı bürüyürdü. Məğrur Əşrəf buna görə də Saraya məftun idi. Lakin o, Saranı səmimi bir aşiq kimi sevmirdi. Bununla belə özünü qıza səmimi göstərməyə çalışırdı. Ancaq, aldanırdı, çünki qızların kişilərdən daha tez duyan, daha həssas olduğunu bilmirdi. Sara Əşrəfin ona qarşı olan məhəbbətini hər zaman ölçür, biçir, onun aldadıcı, sönük bir şölədən başqa bir şey olmadığını bilirdi. Qızı yalnız öz istəyi, öz qüruru üçün sevdiyi kimi, qız da müvəqqəti olaraq onu öz faydası üçün sevirdi. O, arabir qıza sarılaraq: "Gözəl Sara, sən mənim ruhum, qəlbim, zövqüm, həyat və idealımsan! Sənə qarşı olan eşqimi ölçə biləcək bir cihaz olsaydı, səni nə qədər sevdiyimi bilərdin!" – deyə cavab gözləyən gözlərini ona dikərdi. Sara cavabında: "Cihaza nə hacət, sənin eşqini mən öz qəlbimlə ölçə bilərəm" – deyirdi.

Qızın kinayəli bu sözünü Əşrəf doğru sayaraq, ürəkdən sevinirdi. Hələlik Sara kimi gözəl və şıltaq bir qıza Əşrəf kimi bir adam lazım idi ki, onu istədiyi kimi öz barmağında oynatsın. Onun artıq nəyi yox idi? Ən zəngin qızlarda olan hər şeyi var idi. O, namusunu yalnız buna qurban edirdi.

Əşrəf Saranı teatra aparmaq üçün gəlmişdi. Sara isə o gün çox kefsiz görünürdü. Dostlarından birisi ona yeni il münasibəti ilə dekabrın 31-də böyük bir müsamirə olacağını və hamının oraya hazırlaşdığını söyləmişdi.

Əşrəf Saranın başına, ayağına keçir, şirin dillərlə onun qəlbini almağa çalışır, ancaq müvəffəq ola bilmirdi. Qız iri, mavi gözlərini aşağı dikib, özünü kədərli göstərmək istəyirdi. Nəhayət, başını qaldırıb:

– Əşrəf, ayın 31-də böyük müsamirə var, – dedi.

– Yoxsa sən də getmək istəyirsən?

– İstəyirdim, ancaq...

– Bəs mane olan nədir?

Qız onun gözlərinə baxaraq güldü, sonra yenə tez başını aşağı saldı.

Əşrəf qəti səslə:

– Sara, nə istəyirsən, de!

Sara özünü bir az doğrultdu. Qaşlarını, gözlərini işvəkar bir surətdə oynatdıqdan sonra:

– Bilirsən, müsamirəyə təzə modada, qızılla işlənmiş bir paltar hazırlamaq istəyirəm. Ancaq çox baha tamam olur, – dedi.

Əşrəf ehtirasla onun əllərindən yapışaraq dedi:

– Gözəl Sara, mən ölməmişəm, nə istəyirsən, hazırla! Mənim səndən tələb etdiyim ancaq bir şeydir.

Sara onun saçını oxşayaraq:

– Bilirəm, bilirəm, qısqanc uşaq, – Əşrəfi sakit etdi və dodaqlarını ona doğru uzatmaqda olan Əşrəfin dodaqlarına yapışdırdı. Sonra yerindən oynayaraq, şən bir quş kimi ötməyə, müsamirə haqqında uzun-uzadı məlumat verməyə başladı.

Əşrəf ona istədiyi paltarı tikdirmiş, müsamirə gecəsi Sara maskaradda iştirak etdiyi zaman bir çox gəncin ona vurulduğunu duymuşdu. Oyun bitərkən maskanı üzündən götürdüyü zaman bütün gözlər ancaq ona dikilmiş və "Yaşasın Sara" sözləri salonu bürümüşdü. Oyunda birinciliyi qazanan və bu qədər qızğın alqışlarla qarşılanan Sara artıq yerə-göyə sığmırdı. Onun kimi gözəl, bir az da məğrur olan bir qıza bunlar azmı şərəf idi?

Ancaq bütün bunlar Saraya ucuz başa gəlmirdi. Son dərəcə qısqanc olan Əşrəfin: "Ona nə üçün baxdın? O səni haradan tanıyır? Nəşən neçin qaçdı? Bu gün səndə başqa bir hal var" kimi sözləri hər yerdə onun sərbəstliyini alır, cəmiyyətdən uzaq, çox uzaq bir aləmdə yaşamasına səbəb olurdu. Bu hallar Saranı çoxdan bezdirmişdi. Hətta bir gün teatr foyesində dolaşdıqları zaman Saranın qarşıdan gələn bir gəncə baxdığını görüncə Əşrəf onun qolunu şiddətlə sıxaraq:

– Ey, sən özünü idarə etməyi unudursan! – deyə ona bərk acıqlanmışdı. Bu sözləri o qədər hiddətlə demişdi ki, Saranın bütün vücudu titrəmiş və qolunu onun qolundan çəkərək, gözü yaşlı evə dönməyə məcbur olmuşdu. Ona görə də sərbəst bir həyata atılaraq, özünə səmimi bir həyat yoldaşı tapmaq arzusu Sarada gündən-günə artırdı.

* * *

Sərin bir payız axşamı idi. Sara anası ilə bərabər şəhər bağçasına seyrə çıxmışdı. Hər iki tərəfindən söyüd və zeytun ağacları əkilmiş bir xiyabanla gedirdilər. Birdən-birə qulaqlarında şən və sürəkli bir qəhqəhə ucaldı. Bu səsdən Saranın vücudu titrədi. Dayanaraq:

– Ana, yorulduq, oturmayaqmı? – deyə əlindəki günlüyə söykəndi. Qoca qadın şübhəli nəzərlərlə qızını süzərək, bir söz demədən yaxındakı skamyaya oturdu. Sara şübhəli nəzərlərini qəhqəhə qopan guşədən ayırmırdı. Bir az sonra o, aydın olaraq bu sözləri eşitdi.

– Ox gözəl mələyim... Sən mənim ruhum, gözəl pərim və şəfəqli ulduzum olduğun üçün səni bu qədər sevirəm.

Tanış olan bu cümlələrdən, bu səsdən Saranın bütün əsəbləri gərildi. İçindəki iztirab onu boğan kimi oldu. Yavaşca: "Odur, mütləq odur!" – dedi. Bu anda bir öpüş şappıltısı, daha sonra şən bir qəhqəhə pərdə-pərdə yüksələrək, o yaşıllıqlar arasında əriyib yayıldı. Sara acı bir nəzərlə anasını süzərək, dimdik qalxdı, "getməyəkmi?" – dedi. Anası qızındakı iztirabı hiss edərək qalxdı və qolunu onun qoluna keçirərək, ağır-ağır yeriməyə başladı. Sara zehnində qərar verdiyi fikrindən bir üzüntü, vücudunda bir zəiflik və yorğunluq hiss etməkdə idi. Öz-özünə "Artıq qurtardım" – dedi.

Onlar öpüşlər və qəhqəhələr yuvasına yaxınlaşmışdılar. Sara iri, mavi gözlərini sıx əkilmiş zeytun ağacları altında bir-birinə sarılaraq, hərəkətsiz kimi duran iki kölgəyə dikib, diqqətlə baxdıqdan sonra: "Uf, artıq qurtardım. Bundan sonra sərbəst quşlar kimi istədiyim nəğməni oxuya bilərəm!" – deyə sıx ağacların kölgələri arasından uzaqlaşıb getdi.

Saranı sevənlərin sayı gündən-günə artırdı. O, fürsəti qaçırmayaraq, bundan istifadə etməyə qərar verdi. Sonuncu dəfə Əşrəfdən ayrıldıqdan sonra evə gəldi. Ondan əbədi olaraq ayrılmaq istədiyini, bu xüsusda qurmuş olduğu planı və tədbiri ailə üzvlərinə bütün təfsilatı ilə anlatdı, bu məqsədlə bir müddət xalası evində yaşamağı qərara aldı. Əşrəf iki gün intizar və həyəcan içində gözlədi. Saradan xəbər çıxmadı. Onu görmək və barışmaq fikri ilə evinə getdi. Anası əllərini çarpazlayaraq:

– Sara getdi, – dedi.

– Hara getdi? – deyə Əşrəf həyəcanla soruşdu.

– Bizə demədi... O gün səndən ayrılandan sonra Sara evə dalğın bir halda gəldi. Oturub xeyli ağladı. Səhər çayını içər-içməz gecədən hazırlamış olduğu çamadanını götürüb: "Ana, mən getdim. Hara getdiyimi indi heç özüm də bilmirəm. Çatan kimi oradan sizə məktub yazaram", – dedi. Yalvardım, yaxardım... onu nə qədər bu işdən çəkindirmək istədimsə, bir şey çıxmadı, inadkarlıq etdi. Onun hara getdiyini biz də bilmədik.

Əşrəf oradan kor-peşiman qayıtdı.

Sara Əşrəflə bərabər opera teatrına getdiyi zaman Aleksandr İvanoviç adlı gənc bir aktyora vurulmuşdu. Böyük şöhrət qazanmış bu aktyor qızın qəlbini çoxdan ovlamışdı. Sara onunla yaxından tanış olmaq fikri ilə opera teatrı müdirinin yanına getdi. Müdir şıq geyimli bu gözəl qızı hörmətlə qəbul etdi. Sara balet dəstəsində iştirak etmək istədiyini müdirə söylədikdə müdir qulaqlarına inanmadı. Heyrətlə: "Siz? Balet dəstəsində?.." – deyə soruşdu. Sara baletə böyük marağı və istedadı olduğunu və bu işi ürəkdən sevdiyini müdirə bildirdi. Qızın çox münasib xarici görkəmini və teatrda cavan artistlərə olan ehtiyacı nəzərə alaraq müdir razılıq verdi və Saranı öz kabinəsindən birbaş səhnəyə, yeni əsərə hazırlıq aparmağa başlayan aktyorların içinə gətirdi: "Sizə yeni aktrisamızı təqdim edirəm, tanış olun" – dedi. Aktyorlar bir-bir Sara ilə əl verib tanış oldular. Aleksandr İvanoviç qıza əl verirkən hər ikisi aşiqanə bir nəzərlə bir-birini süzdü.

Əşrəf Saranın opera teatrında balet dəstəsində iştirak etdiyini çox gec öyrəndi. O gün Saranı görmək, onunla barışmaq fikri ilə teatra getdi. Onu ancaq son pərdədə balet oynarkən gördü. Qaçırmış ovunu ələ keçirmiş ovçu kimi ümidlə parlayan gözlərini qızdan ayırmırdı. Qız da onu görmüş, ancaq görməməyə çalışmışdı.

Oyun bitdi, pərdə salındı. Tamaşaçılar şən gurultularla dağılışdılar. Əşrəf teatr qapısında qızı gözləyir, daha doğrusu, bir xəfiyyə kimi onu güdərək kimlə çıxdığını, haraya gedəcəyini öyrənmək istəyirdi. Bir saat gözlədi, iki saat gözlədi, qız çıxmadı. İntizar və həyəcandan qəlbi titrəyirdi. Ayaq üstdə durmaqdan taqəti tükənmişdi. Əşrəf qızı əbəs yerə gözləyirdi, çünki Sara başqa aktyorla bərabər o biri, kiçik qapıdan çıxıb getmişdi.

* * *

Əşrəf yatağa uzanmış, gözlərini bir nöqtəyə dikərək qalmışdı. Axşamın yavaş-yavaş ətrafa yaydığı ala-qaranlıq və get-gedə təbiətə hakim olmağa başlayan səssizlik onun dərdini bir qədər də artırmışdı... O, qəlbini sıxan, beynini dumanlandıran, ruhunu dırmalayan düşüncələrin əzici pəncəsindən qurtulmaq üçün yatağından sıçrayaraq, masa yanına gəldi, titrək əlləri ilə elektrik lampasını yandırdı. Qutudan bir rəsm götürdü. Mahir fotoqraf tərəfindən alınmış olan gözəl bir qız şəklini lampanın işığına tutdu. Uzun-uzadı gözlərini ondan götürmədi. Baxdı, baxdı, ruhunun damcı-damcı əriyib içinə axdığını hiss etdi. İxtiyarsız olaraq rəsmi dodaqlarına yaxınlaşdıraraq: "Uf, nə qədər gözəlsən, mələyim" – deyə bildi. Rəsm həqiqətdə gözəl idi. Kiçik, yuvarlaq başına gözəl yaraşan qıvırcaq tel-tel saçlar, səmanın saf və mavi gözləri, sübhün al şəfəqlərindən bir nişan olan lətif yanaqlar, kiçik və mütənasib ağız, burun, əndam, hələ ətrafındakı yaşıllıqlar, qayalıqlar, uzaqdan sahilə doğru gəlməkdə olan köpüklü dalğalar bu rəsmin gözəlliyini bir qat daha artırmışdı. Şairanə bir ruha malik olan fotoqrafçı həqiqətən çox əmək sərf etmiş, mahir bir rəssam qədər canlı və qiymətli bir lövhə yaratmışdı.

Əşrəf hələ gözlərini o rəsmdən ayırmayaraq ona baxır, düşünürdü. Bu zaman iri rəngsiz dodaqlarından ixtiyarsız bir ah qopdu, bütün kədərlərinin ifadəsi olan bu cümlələr dodaqlarından qırıq-qırıq tökülməyə başladı: "Ah, mavi gözlü dilbərim, sən mənim vicdanımdın. O köpüklü dalğalardan daha ağ olan o mərmər köksünə başımı qoyduğum, gözlərini gözümlə, dodaqlarını dodaqlarımla öpdüyüm o bəxtiyar günlərim nə oldu? Halbuki mən bütün həyatımı ancaq sənin dizlərin üstündə keçirmək istərdim".

Bu aralıq bir ayaq səsi eşidildi. Əşrəf onu hiss edəcək halda deyildi. O öz qəlbi ilə danışmaqda davam edirdi: "Söylə, mələyim, söylə, o kiçik pambıq əllərini əllərim içinə alaraq köksümə sıxarkən, coşqun hissiyyatımı sənə anlatmağa, qəlbində mənə qarşı bir riqqət, bir mərhəmət oyatmağa çalışarkən, eşqinlə çarpan qəlbimi o qədər dadlı-dadlı oxşadığın nə idi? Sonra arzu və ümidlərlə dolu olan qəlbi ayaqlar altına atdığın nə idi? Ah gözəl Sara, gənc bir aşiq üçün bunlar heç çəkilən bəladırmı?"

Hələ sözlərini bitirməmişdi ki, birdən-birə acı bir qəhqəhədən dimdik qalxdı. Gülən Sona idi.

– Əşrəf, üç illik gəlin üçün bu heç çəkilməz dərddir. Bir zamanlar: "Nazlı Sona, səndən başqa sevdiyim yox... Səni gördüyüm zaman elə güman edirəm ki, bütün kainat mənimdir, kiçiklikdən səni sevdim, sənin üçün yaşadım" – deyirdin. İndi bildim ki, bu bədbəxt arvadlar kişilərin müvəqqəti arzu və ehtiraslarını təmin etmək üçün yaradılmış bir oyuncaqmışlar!

Bu sözləri güclə, lakin dərin bir qəzəblə deyən Sona hıçqıra-hıçqıra ağlamağa başladı. Əşrəfin qaşları çatıldı. O özünü itirmiş halda:

– Sus, ismətsiz qadın! İndi xəfiyyələr kimi gizli-gizli pusquya durursan? – dedi.

Sona ayaqlarını yerə çırparaq:

– İsmətsiz olduğumu isbat edəcəksən! – deyə bağırdı.

Əşrəf qəzəblənmişdi. O, yumruğunu Sonanın başı üzərində oynadaraq həyəcanla çığırdı:

– Çıx buradan! Yoxsa!..

Sona Əşrəfin bu halını acı-acı süzdükdən sonra:

– Bədbəxt adam, deyəsən səni də atavın taleyi gözləyir, – dedi və göz yaşları içində hıçqıra-hıçqıra otağına çəkildi.

Əşrəf isə qarışıq, biçimsiz bığlarını ağzına alaraq, gəmirə-gəmirə otağın içində gəzinir, öz-özünə söylənirdi.

* * *

Divardakı böyük saat səkkizi çaldı. Bu, məsud bir hadisəni xəbər verən müjdə səsi kimi onun bütün kədərlərini silərək unutdurdu. Bu səs onun zehnində bir çox düşüncələr canlandırdı. O: "Bu axşam "Demon" operası gedir, şübhəsiz, o da iştirak edəcəkdir" – dedi və yeni moda ilə tikdirdiyi libasını geyindi, bığlarına yağ sürtərək, ayna önünə keçdi, onu istədiyi kimi dikəltdi. Hansı vəziyyətin ona yaraşdığını bilmək üçün əvvəlcə özünü çəkdi, məğrur bir görkəm aldı, sonra özünü sadəcə buraxaraq, gəlişi gözəl bir vəziyyət aldı, bir dəfə süni gülümsədi, bir də qəhqəhəni andıran bir tövrlə ağzını iri-iri açdı. Bu dəfə çox çirkin göründüyünü özü də hiss etdi. Şapkasını əlinə alaraq, bir neçə dəfə yenə ayna qabağında özünə sığal verdikdən sonra bayıra çıxdı.

Bir az sonra Əşrəf teatrın foyesində dolaşırdı. İndi o büsbütün dəyişmişdi. Nəşəsi yerində idi. Ən gözəl qızları başına toplamış, dadlı-dadlı danışır, hər birinə bir çiçək dəməti alıb təqdim edir, gah da birinin əlini: "Ay, nə qədər gözəl, nə qədər də kiçikdir" – deyə əlləri

içində sıxıb, sonra qızın dodaqlarından uçan "uf" kəlməsindən aldığı nəşə ilə o əlləri öpə-öpə oxşayırdı.

Əşrəf bunların hər birindən bir növ həzz və zövq alırdı. Bu qədər lətif, gözəl qızlar onun ətrafını aldığı və bir çox lətifələrlə onu məşğul etdiyi halda o, yenə ara-sıra gözlərini izdihama dikərək, bir şey axtarırmış kimi baxırdı. Bir də nə gördü?.. Bütün ömrünü dizləri dibində keçirməyə hazır olduğu Sara uca, gənc və yaraşıqlı bir zabitin qoltuğunda nazlı bir əda ilə gəlir. Bunu görər-görməz başında ildırım çaxan kimi oldu, gözləri dumanlandı, acı bir hiss bütün vücudunu titrətdi. Başına topladığı qızlardan bir bəhanə ilə ayrılaraq, adamları yarmaq, özünü gözəl Saraya yetirmək istədi. Mümkün olmadı, uzaqlaşmışdılar. Durduğu yerdə mıxlanmış kimi qaldı. Onların qayıtmalarını gözlədi.

Saranı sevənlərin sayı gündən-günə artmaqda idi. Qız isə nədənsə ərə getməkdən boyun qaçırırdı. Opera aktyorları içərisində böyük şöhrət qazanmış Aleksandr İvanoviçə getməyə bir qədər meyl göstərdisə də, şıq geyinməyə, zəngin həyat sürməyə alışmış Sara bir aktyora getməyə razılıq vermək istəmədi. Bütün aktyor yoldaşları: "Aleksandr İvanoviçin parlaq gələcəyi var. Belə bir nişanlını əldən buraxma" – deyə nə qədər ona nəsihət edirdilərsə də, qız tərəddüd etməkdə davam edirdi. Nəhayət, Aleksandr İvanoviçə getməyə qərar vermək istərkən, gənc və zəngin bir zabitlə tanış oldu. Zabit onun qəlbini birinci gündən ovladı. O gündən Sara onunla tez-tez görüşməyə başladı.

Bu gün yenə onunla birlikdə "Demon" operası tamaşasına gəlmişdi. Hər ikisi teatr foyesində gəzirkən, Əşrəfi uzaqdan görmüş, lakin gözlərini izdihama dikərək, məğrur bir görkəmlə onun yanından keçmişdi.

Əşrəf həsrətlə onların arxalarından baxa-baxa qalmışdı.

Sara ilə zabit gəzişirdilər. Əşrəf barmaqları ucunda boylanaraq, gözlərini ürək yandırıcı mavi gözlərə dikib qalmışdı. "Ah, əgər bir dəfə mənə baxsaydı... Amma yanındakı bu yaramaz nə çirkindir. Gül budağına sarılmış ilana bənzəyir" – dedi. Sara indi əvvəlki Sara deyildi. Bir naz pərisi, bir gözəllik timsalı olmuşdu. Yerişində, hərəkətində, rəftarında bir başqalıq vardı. Ayaqlarında uzun dabanlı tufli, əynində son moda ilə tikilmiş paltar vardı, o indi incə qızıl ipəklərlə işlənmiş ətəklərini əli ilə qaldıraraq, canalıcı bir qəmzə ilə yeriyirdi. O yaxınlaşdıqca Əşrəfdə iztirab və həyəcan artır, qəlbində şiddətli bir çırpıntı, bədənində isitməli bir titrəyiş, damarlarında yandırıcı bir ağrı hiss edirdi. Artıq üz-üzə gəlir, Əşrəf ona baxır, ona yaxınlaşaraq, hər vasitə ilə olur-olsun, onun qəlbini bir də ələ almaq istəyirdi. Lakin bu

qədər səy, təlaş və iztirablar faydasız idi, çünki o, Əşrəfdən istədiyini almış, arzusuna çatmışdı. İndi üç aya yaxın idi ki, operalarda bir aktrisa sifəti ilə çalışır, baletlərdə çıxış edir, alqışlarla qarşılanaraq, varlıların nəzər-diqqətini cəlb edirdi.

Əşrəf onun gözəl ovuna sahib olan bu adamın kim olduğunu bilmək və hər vasitə ilə olur-olsun, onu qızdan əbədi olaraq uzaqlaşdırmağa bir çarə axtarırdı.

Onlar bir də döndülər. Əşrəfdə iztirab və həyəcan artırdı. Zabit onun Saraya dikilmiş ehtiraslı nəzərlərini əvvəlcə görmüşdü. Bu dəfə də Əşrəfin uzaqdan Saranı yeyəcək kimi ac nəzərlərini görüncə ağzını qızın qulağına yaxınlaşdıraraq, nə isə dedi. Sonra hər ikisi istehzanı andıran bir təbəssümlə Əşrəfi acı-acı süzdülər. Əşrəf də bunu gördü.

İndi yenə keçəcəklərdi. Sara bir əlində ətəyi, o biri əlində yelpiyi oynada-oynada işvəli bir tövrlə irəliləyirdi. Əşrəf gəzmək bəhanəsi ilə qıza doğru getdi. Ona zehnində qərar vermiş olduğu sözləri deyəcəkdi. Ancaq bir-birlərinə yaxınlaşdıqları zaman cəsarəti qırılaraq, bir söz söyləmədən məyus bir halda dayandı. Gənc zabit hiddətli baxışlarla onu süzərək: "Bu adam nə istəyir? Bir də yaxınlaşsa həddini bildirəcəyəm" – dedi. Bu sözləri elə qəti və kəskin bir səslə dedi ki, hamı eşitdi. Kəlmələr Əşrəfin qulaqlarında bir ildırım kimi partladı. Tez özünü bir guşəyə çəkdi.

Zabitin sözləri onu qılınc kimi kəsmişdi. Onun beynində uçuşan qara düşüncə, dumanlı xəyallar ağzından havaya buraxdığı papiros tüstüsü kimi beynində burum-burum uçur, öz rəqibindən intiqam almaq üçün qəti tədbirlər düşünürdü.

Onu bu qara xəyallardan çiyninə toxunan bir əl uzaqlaşdırdı... Başını çevirərkən:

– Nə var, Əşrəf? Nə fikirdəsən?

Əşrəf acı-acı gülümsəyərək:

– Ay sənsən, Murad? – deyə əlini ona tərəf uzatdı.

– Doğrudan nə var? Bir az kədərli görünürsən.

– Heç, bir az xəstəyəm.

– Bilirəm, bilirəm, gərək qızı əldən buraxmayaydın!

* * *

O gecə Əşrəf evə dönmədiyindən Sonanın gözlərinə yuxu getməmişdi. Onun gəlmədiyinin səbəbini min yerə yozaraq ürəyindən qara

qanlar axırdı. Gecəni dərin bir sıxıntı, həyəcan içində keçirdi. Dan atdı, günəş doğdu, günəş yaqut tacı ilə firuzə taxtına oturdu. İlk qızıl şəfəqlər pəncərədən Sonanı salamlarkən onu bulud kimi tutqun gördü. O, qəlbini sıxan acı sıxıntıların, ruhunu qaraldan həyəcanların, beynini dumanlandıran qara xülyaların ağır pəncəsi altında çırpınırdı. Güllərə rəng və lətafət verən gözəl çöhrəsi xəzan görmüş bir çiçək kimi solmuş, ulduzlara aydınlıq saçan qara parlaq gözləri şimşəkləri sönmüş qara bulud kimi alacalanmışdı.

Yalnız Əşrəfin gecə gəlməməsi deyil, axşam baş verən hadisə onun bütün varlığını sarsıtmış, saf və parlaq eşqini insafsızcasına bulandırmışdı. Hər şey ona qara, hər şey ona kədərli görünürdü. Hətta aləmə həyat və şənlik verən günəş də sanki: "Özünü üzmə, o bu gecə yeni sevgilisinin qolları arasında daha bəxtiyardır" – deyə ona istehza ilə gülümsəyirdi. Sona Əşrəfin ona qarşı olan münasibətinin dəyişməsini düşündükcə kədərindən partlayırdı. O artıq dayana bilmədi, xidmətçini anası Gülcahan xalanı çağırmağa göndərdisə də, intizar və həyəcanından bir an rahat ola bilmirdi. Əşrəfin gəlməsi ehtimalını verən hər kiçik səs onun həyəcan və çırpıntılarını bir qat daha artırırdı.

Gülcahan xala gəldi. Sona onu görüncə ürəyi kövrəldi, birdən-birə hönkürə-hönkürə ağlamağa başladı. Gülcahan xala ona nə qədər təsəlli verdisə də, Sona sakit olmadı.

– Qızım, nahaq yerə narahat olursan, yəqin yoldaşlarının evindədir, – deyə ona təsəlli verməyə çalışdı. Sona sakit olmadı. Əşrəfin bir qıza vurulduğunu, bu xüsusda aralarında keçən dünənki hadisəni nə qədər ona açmaq istədisə, bacara bilmədi. Acı və yanıqlı bir dillə:

– Bu gecə yoldaşlarının deyil, təzə məşuqəsinin evindədir, – dedi.

Anası heyrətlə onun üzünə baxarkən qız yenidən ağlamağa başladı. Sonra Sona keçən gecə aralarında baş verən hadisəni qırıq-qırıq danışdı. Gülcahan xala heyrətlə dedi:

– Nə bilim, ay qızım, mən onu ağıllı-başlı bir adam bilirdim. Atası Ağamürsəlin yolunu tutubsa, vay halıva.

Gülcahan xala sözünü bitirməmişdi ki, pilləkənlərdə eşidilən qarışıq səsdən Sona qapıya tərəf qaçdı. Qapıya çatar-çatmaz qapı vuruldu. Sona qapı döyənin kim olduğunu soruşmadan qapını açdı. Murad onu görüncə:

– Bacı, Əşrəf naxoşlayıb, onu xərəkdə gətirmişik, hara qoyaq – deyə soruşdu.

– Necə naxoşlayıb? Özü hanı?

Murad əli ilə pilləkəni göstərərək:

– Budur, gətirirlər, siz yer göstərin, – dedi.

Sona başını pilləkənlərə tərəf uzatdı. Əşrəfin xərək üzərində uzanıb, meyit kimi üstünə ağ qətfə çəkilmiş olduğunu görüncə dili tutuldu, ayaqları qurudu, bağırmağa, çığırmağa artıq onda hal qalmadı. Gülcahan xala qızını belə görüncə qoluna girərək Murada:

– Bu otağa gətirin, bu otağa!.. – dedi və Sonanı çəkə-çəkə apardı.

Əşrəfin meyitini öz otağına gətirdilər. Gülcahan xala Sonanı otaqda qoyub, sinəsini vura-vura, həyəcan içində Əşrəfin nə üçün, kim tərəfindən öldürüldüyünü Muraddan soruşdu. Murad məsələni çox müxtəsər nağıl etdi:

– Qəza gərək öz işini işləsin. Əşrəfin tanıdığı bir qız başqa zabitlə teatra gəlmişdi. Onları birlikdə görən Əşrəf cəhənnəm kimi alovlandı, ona çox nəsihət etdim, fayda vermədi. Tamaşa bitdikdən sonra hər ikimiz qapıdan çıxdıq. Əşrəf qapıda durub onları gözlədi. Mən çox dedim, az eşitdi. Qız zabitlə qol-qola qapıdan çıxdı. Əşrəf onlara yaxınlaşaraq nə isə dedi, əlini tapançasına atmağı ilə yıxılmağı bir oldu. Elə bil zabit qabaqcadan hazır idi, Əşrəfə macal verməmişdi. Qaradavoylar zabitin tapançasını alıb, özünü də polis idarəsinə apardılar. Mən tez fayton çağırıb, Əşrəfi Mixaylovski xəstəxanaya apardım. Bir saat sonra Əşrəf canını təslim etdi.

Gülcahan xala Muradı qohum-qardaşa xəbər vermək üçün göndərdi. Sona ayılmışdı. Özünü dəli kimi meyitin üzərinə ataraq, iki əli ilə saçlarını yola-yola ağlayırdı. Gülcahan onun əllərini bərk-bərk tutaraq:

Qızım, özünü üzmə, Məryəmə yazığın gəlsin, – deyə ağlaya-ağlaya Sonaya yalvarırdı.

## ONUNCU FƏSİL

Əhməd Əşrəfin təsiri altına düşdükdən sonra Zəki ondan əlaqəsini tamamilə kəsmişdi. Bir gün küçədə Əhmədlə qarşı-qarşıya gəldi. Üzünü çevirib keçmək istərkən Əhməd onun qolundan tutub:

– Bura bax, üzünü çevirib keçmə! – dedi.

Zəki dayandı:

– Nə deyirsən? – deyə soruşdu.

Əhməd onun bu hərəkətindən pozulduğunu hiss etdirməyərək:

– Canım, daha bizi saymırsan, görəndə də üzünü çevirib keçirsən? – dedi.

– Elədir, biz özü üçün yaşayan xudbin, məsləksiz adamları görəndə üzümüzü yana çeviririk. Bir də ki, sən indi mələklərlə birlikdə göyün yeddinci qatında uçursan. Bizim qısa əllərimiz o yerlərə çata bilməz.

Dostunun nə demək istədiyini Əhməd çox gözəl anlayırdı.

– Mən göylərdə uçan adam deyiləm. Həmin gördüyün, bildiyin Əhmədəm.

Əhmədin bu inadkarlığı Zəkinin ürəyini yumşaltdı. Onun yadına köhnə dostluq günləri, təhsil illəri düşdü. Moskvanı xatırladı. "Eh dünya!" – deyə dərindən köksünü ötürdü. Bu anda ötən günlər Əhmədin də gözləri qarşısında canlandı, çox mütəəssir oldu. Sonra Zəkinin kefini, vəziyyətini xəbər aldı. Onlar söhbət edə-edə yaxındakı bağçada oturdular.

Əhməd siyasi hadisələrlə çox maraqlanmasa da, daha doğrusu, ondan çox ehtiyat etsə də Zəkini çox sevdiyindən, onu görəndə o saat siyasətdən söhbət salmağı sevərdi. Çünki bilirdi ki, Zəkinin özünün də buna azarı var. Odur ki, Zəkigildə yaşadığı günləri, Zəkinin və dostlarının gizli xəfiyyəlik fəaliyyətini xatırladı. Elə dərhal Zəkigildən getdiyi günlərdə qəzetdə Liza haqqında oxuduğu bir məlumat yadına düşdü:

– Hə, yaxşı yadıma düşdü. Liza məsələsini də qəzetdə oxudum. Doğrudan da dostun Mustafa mahir imiş. Elə qəzetdə Liza adını görən kimi bildim ki, sizin əhvalatdır. O saatca sən yadıma düşdün, – Əhməd bir an sükutdan sonra: – Bəs Lizanın yaxalamaq istədiyi inqilabçılar necə oldu? Bunlar haqqında qəzetdə heç bir şey yox idi – deyə suallı nəzərlərini Zəkinin gözlərinə dikdi.

Zəki bir qədər fikrə getdi. Əvvəlcə dostunun suallarını cavabsız buraxmaq istədi. Ancaq bunu bacarmadı. Bir də ki, Əhməd özünün sirr saxlamaqda çox möhkəm bir dost olduğunu çoxdan sübut etmişdi. Odur ki, üstü örtülü də olsa dedi:

– Hərçənd ki, sənin belə mövzularda söhbət etməyə bir firqəçi kimi haqqım yoxdur, ancaq necə olsa arada dostluq və etibar var. Lizanın qeyb olması oxuduğun kimi qəflətən oldu. Onun başını Mustafa Balaxanıya getdiyi zaman yolda əzmiş, meyitini isə heç güman gəlməyən bir yerdə basdırmışdı. Ölürkən: "Belə bir taleyi mən sənin üçün, dostların üçün hazırlayırdım, hayıf ki, sən qabağa düşdün" – demişdi.

Zalım qızı, bizim də kim olduğumuzu bilirmiş. Onun başı lap vaxtında əzildi. Yoxsa onunla bacarmaq çox çətin idi. Tülkü kimi hiyləgər, şeytan kimi ağıllı idi. Lizanın iş başında yaxalamaq istədiyi təşkilat üzvlərinə gəlincə bundan bir şey çıxmadı; çünki basqın hazırladığı vaxtdan bir gün əvvəl onun özünü Mustafa haqqa vasil etmişdi.

Zəkinin dediklərinə diqqətlə qulaq asan Əhməd, dostunun son cümləsini təbəssümlə qarşıladı:

– Doğrudan da vaxtında gorbagor etmisiniz, yoxsa o sizin başınıza cəncəl açа bilərdi. Bəs bu hadisədən başqa xəfiyyələrə, sizlərə heç bir söz gəlmədi? Mustafa ki, onunla bərabər işləyirdi!

– Sən bunları nə yaxşı yadında saxlamısan? – deyə Zəki heyrətlə cavab verdi, – yox, Lizanın qeyb olmasının nəticəsi bizim üçün bir o qədər də yaxşı olmadı. Mustafanı sorğu-suala çəkdilər. Mustafa həmin gün jandarmeriyaya başqa bir işdən ötrü gedəcəyini bildirmişdi. Lizanı basdırandan sonra isə həmin işin dalınca gedib, idarəyə lazım olan məlumatı gətirmişdi. Odur ki, ondan şübhələnməyə əldə heç bir əsas yox idi. Ancaq məsələ burdadır ki, hadisədən sonra fəhlələrin içərisindən özlərinə sadiq bilib seçdikləri xəfiyyələrə etibar azalmışdı. Onsuz da bizimlə bir qədər ehtiyatla dolanır, çox güman ki, yeri gələndə təqib də edirlərmiş. Nə isə son təmizləmədə Mustafanı da, məni də işdən çıxardılar. Jandarmeriyanın rəisi bizi yanına çağırıb:

– Bu saat yuxarıdan aldığımız qərara əsasən idarəmizdə ixtisar gedir. Siz bu gündən işdən azadsınız. Lazım olanda özümüz çağıracağıq. Lakin burada olan müddətdə gördüklərniz işlər haqqında, təkrar tapşırıram, bir kəlmə də eşitməməliyik, – dedi. Sonra dilimizdən iltizam aldı.

– Bəs Yelena?

– O, hələlik işləyir. Çox bacarıqlı, ağıllı qızdır. Təşkilatımız hazırda jandarmeriyadakı işlərdən az-çox onunla xəbər tutur. Firqəyə faydası çox dəyir.

Aralarında gedən bu açıq söhbət iki dostu bir-birinə sanki bu son bir-iki saatda xeyli yaxınlaşdırmışdı. Bunu Əhmədin gözlərindən, səmimi rəftarından da görmək olurdu. Odur ki, Zəki Əhmədi bir də sınamaq istədi, onu təsiri altına almağa, firqəyə tərəf çəkməyə təşəbbüs etdi, indiki fürsəti qaçırmaq istəmirdi.

– Əhməd, sən xalqın oğlusan, – dedi, – belə bir fəlakətli gündə onu düşünməyən övlada nə ad vermək olar? Sənin vücudunun, biliyinin bu xalqa, bu ölkəyə bir faydası olmayacaqsa nəyə lazımsan?

Əhməd bu sözlərin ağırlığı altında əzilərək, ciddi bir səslə:

– Mən də öz ixtisasım dairəsində çalışıram, – dedi.

– Aldığın maaşa görə rəsmi bir məmur kimi çalışmağının bizim üçün nə əhəmiyyəti var. İnqilabçılardan uzaqlaşdın, siyasətdən yaxanı bir kənara çəkdin. Bu gün İran inqilab içində çırpınır. Bütün namuslu inqilabçılar İran xalqını əyyaş və müstəbid şahların pəncəsindən qurtarmaq üçün heç fədakarlıqdan çəkinmirlər.

Əhməd onun sözünü kəsərək:

– Bura bax, Zəki, məni o yollara çəkə bilməzsən. Sən öz yolunda çalış, mən də öz ixtisasımda. Bunun faydası daha çox olar, – dedi.

Zəki qəhqəhə ilə güldü:

– Hacı Yunusun sərvəti, bu azğın neft səltənəti səni çox dəyişdirmişdir. Haram olsun sənə bu qoca Məhərrəmin çəkdiyi əmək! Ona yazdığın məktublar, verdiyin vədlər nə oldu?

– Sən nə deyirsən? Mən on beş il qara gün içində can çürüdüb təhsil alım, sonra da bu canımı, bu biliyimi qurban verim? Yox, mən bunu bacarmaram.

– Heç olmazsa bu yolda canını qurban vermək istəyənlərə uzaqdan-uzağa əl uzat, kömək et! Bu qanlı üsuli-idarəni yıxmaq, onu alt-üst etmək lazımdır!

– Bura bax, dostluğumuz öz yerində, məslək öz yerində. Bir də hansı üsuli-idarə olur-olsun, mənim üçün nə fərqi var? Kim eşşək olsa mən ona palanam.

Bu söz elektrik cərəyanı kimi Zəkinin bütün vücudunu titrətdi. Söz söyləməyə onun iqtidarı olmadı.

– Tfu, alçaq, vicdansız, – deyə Zəki ondan uzaqlaşdı.

* * *

Bakı Komitəsi İran "Ədalət" təşkilatı ilə birlikdə çalışır, İran inqilabçılarına maddi və mənəvi kömək göstərirdi. Yerli təşkilatın qərarı ilə bütün üzvlər hərbi təlim keçməli, silah işlətməyi öyrənməli idilər. Zəki bu sahədə də heç kimdən geridə qalmırdı. O, bomba qayırmaq işində böyük ixtisas qazanmışdı. Bu sənəti İran inqilabına kömək etmək istəyən yoldaşlarına da öyrədir, onlara bomba atmağın qaydalarını başa salır və İran inqilabında iştirak etməyə hazırlayırdı. Axı o özü

də İrana gedəcək təlim keçmiş dəstənin üzvlərindən idi. Zəkinin arzu etdiyi günlər gəlmişdi...

Azadlıq məftunu olan Zəki xalq azadlığı yolunda çarpışmaqdan böyük zövq alırdı. İrana hərəkət etmək üçün tələsir, hər gün ona bir il qədər uzun görünürdü. Zəkinin səbirsizliklə gözlədiyi günlər gəldi. O, Firuzə xala ilə görüşdü, Nəzakətin yaşarmış gözlərindən öpdü, hər ikisinə təsəlli verərək öz yoldaşları ilə birlikdə İrana hərəkət etdi.

Bu hadisədən altı ay keçmişdi, bir axşam Əhməd yolda Zəkinin dostu Mustafa ilə üz-üzə gəldi. Əhməd ötüb keçmək istərkən Mustafa onu dayandırdı:

– Necəsən, Əhməd? Daha bizi saymırsan, – dedi.

Əhməd gülərək:

– Bağışla, görmədim, sən necəsən? – deyə ayaq saxladı.

Mustafa bir az susdu. Sonra yavaşca:

– İrana getmişdim, – dedi. – Sonra Əhmədə söz söyləməyə imkan verməyərək əlavə etdi: – Hələ, başın da sağ olsun, deyilənlərə görə, dostun Əşrəfi də öldürüblər?

– Hə, öldürdülər, ancaq günah özündə oldu, – deyə Əhməd cavab verdi.

Mustafa ona mənalı baxaraq:

– Zəki də cəbhədə vuruldu, – deyə gözlərini Əhmədin üzünə dikdi.

Əhməd qorxmuş halda əllərini Mustafanın çiyninə qoyaraq, həyəcanla soruşdu:

– Nə deyirsən? Doğrudanmı?

Mustafa qəti bir səslə:

– Doğrudur, – dedi, – Əşrəf də öldü, Zəki də. Ancaq o, yubka qurbanı, bu isə azadlıq və inqilab qurbanı oldu. Aralarında nə böyük fərq var! Namuslu ölüm də namuslu həyat qədər şərəflidir! Bir cəbhədə çarpışırdıq. Zəki vurulan kimi başını dizlərimin üstünə aldım. Qurşun ürəyini dəlib keçmişdi. Gözlərini açaraq üzümə baxdı. Söz deməyə taqəti qalmamışdı. Ancaq sağ qolunu boynuma keçirərək, məni qucaqladı. Yavaşca: "Azadlıq, azadlıq!" – deyə dizlərim üzərində canını təslim etdi. Namusla yaşayanların ölümü də namuslu və şərəfli olurmuş!

*1909-1918*

# DURSUN

Kiçik və yoxsul daxmasının səkisi üzərində orta boylu, sağlam, yaşlı bir adam oturmuşdu. İri dəri papağını qaşlarının üstünə çəkərək düşünürdü. Ətrafı dərin cizgilərlə dolu kiçik, parlaq gözlərində, qarışıq boz bığları altındakı iri, qalın dodaqlarında, uzun ətli üzündə sevinc qığılcımları oynaşırdı; çünki bir az əvvəl bostandan ilk bəhrə olaraq iki araba qovun-qarpız dərib hazırlamışdı. Verdiyi vədəyə görə bu gün ortağı yaylaqdan gələcək, bu qovun-qarpızları şəhərə aparıb satdıqdan sonra o, yaylağa gedəcəkdi. Onu ən çox sevindirən yaylaq məsələsi idi. Orada Güllü ilə görüşəcək, dəli təbiətin şən qucağında onunla bərabər yaşayacaq idi. O birdən-birə başını qaldırdı. Alnının tərini arxalığının tərsi ilə silərək, məmnun olmadığını göstərən bir səslə öz-özünə söyləməyə başladı:

– Of, istidən bişdik; bu yaramaz oğlu yaramaz da gəlib çıxmır ki... Gəlsəydi, mən də bir beş-on günlüyə yaylağa gedib, Güllümə qovuşardım, – dedi.

Bu düşüncə onun əsəblərinə bir ildırım kimi toxundu. Bütün vücudu titrədi. O yenə ikiqat əyilərək, başı əlləri içində düşünməyə başladı.

İyul ayına məxsus boğanaqlı bir gün idi. Günəş səmanın ortalarına doğru yüksələrək, qızğın şüalarını yer üzünə səpməkdə davam edirdi. Sanki şəffaf bir duman üfüqləri və mavi fəzanı mis rənginə çevirmişdi. Ağacların, divarların qısa kölgələri ərimiş filiz kimi donub qalmışdı. Havanın ağırlığından adamlar boğulmaq dərəcəsinə gəlirdilər.

İki ay əvvəl bu kənddə həyat qaynaşırdı: yaylağa köçməkdə olan köçərilərin şən və kəskin səsləri, qoyunların mələşməsi, mal-qaranın böyürtüsü, atların kişnəməsi, itlərin hürüşməsi, arabaların cırıltısı, şən uşaqların bağırtısı indi səssizlikdən irəli gələn bir hüznlə əvəz edilmişdi.

Yalnız günəşin şəfəqlərindən gümüş kimi par-par parlayaraq axan dərədəki çayın qıjıltısı, istidən yarpaqlar arasına sığınmış quşların civiltisi sükutu pozurdu. Bu bürkü, bu səssizlik qocanın dalğınlığını bir qat da artırırdı.

Birdən-birə yol ağzındakı ağacın arxasından "Dursun, Dursun!" deyə gələn bağırtı onu ayıltdı. O, sürətlə yerindən sıçrayıb, iti addımlarla irəliləyərək, qalın bir səslə:

– Aslan, Aslan, gəl, burdayam, – dedi.